Xalqın qəzeti!

# Xalq qəzeti

№ 31 (31000) 18 fevral 2026-cı il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Vaşinqton Cənubi Qafqazda sülh prosesinə mötəbər dəstək verir




*Bizim üçün dünyanın ən qüdrətli ölkəsi – Amerika Birləşmiş Ştatları ilə strateji tərəfdaş olmaq böyük şərəfdir. Ötən avqustda Ermənistan və Azərbaycan Ağ Evdə Prezident Trampın iştirakı ilə sülh sazişini parafladılar və biz Prezident Trampın, həmçinin şahid kimi imzaladığı Sülh haqqında Birgə Bəyannaməni imzaladıq. Artıq altı aydır ki, biz sülh şəraitində yaşayırıq. Biz sülh içində yaşamağı öyrənirik. Biz bu cür böyük töhfəyə görə ABŞ Hökumətinə çox minnətdarıq.*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının***
***Prezidenti***

## **“Xalq qəzeti”:** Azərbaycan həyatının 107 illik salnaməsinin 31 mininci səhifəsi


Xalq qəzeti

Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevlə bağlı paylaşım edib

Mənəviyyatı Azərbaycan olan dahi

Dünya liderlərini heyran qoyan lider

**Bu gün anadilli mətbuatımızın öncül və qocaman rəsmi nəşri olan “Xalq qəzeti”nin 31 mininci sayı işıq üzü görür. Milli mətbuatımızın yaranmasından 44 il 40 gün sonra ilk nömrəsi ərsəyə gəlmiş bu qəzet dövlətçilik tariximizin 108 ilində mövcud olmuş 4 respublikanın hamısının dövründə fəaliyyət göstərmiş yeganə gündəlik nəşrdir. Ümumiyyətlə, “Xalq qəzeti” milli mətbuatımızın 151 illik tarixinin ən üzunömürlü media qurumudur.**

Ötən il avqustun 29-da 106 yaşını 30 min 877-ci sayı ilə qeyd edən qocaman qəzet 5 ay 20 gün sonra 18 fevral 2026-cı il tarixli 31 mininci sayı ilə artıq 4-cü nəsil sayılan oxucularının görüşünə gəlib. “Xalq qəzeti”nin hər 1000 nömrəsi, təxminən, 3 il yarımlıq bir dövrü əhatə edir. Təsəvvür etmək üçün bildirək ki, 106 il 5 aylıq qəzetin 31 min sayının 1 nüsxədən ibarət 426 rüblük toplululları redaksimızda və bir neçə mərkəzi saxlancda bütöv bir otağı doldurur.

Bütün bu tarix və rəqəmlər Azərbaycan milli mətbuatının əsr yarımlıq mövcudluğu dövrünün nadirlik və öyünclü məxsusilik göstəriciləridir. Bu Azərbaycanın 106 il 5 aylıq tarixinin ən əhatəli və mükəmməl yazılı salnaməsidir.

Azərbaycan Xalq Cümhuriyyətinin mətbuat azadlığına meydan açdığı zaman yerli sosial demokrat qrupun “Kommunist” adı ilə çap etdirdiyi, AXC-nin qəzetinin bazasında fəaliyyətini genişləndirmiş bu qəzet 7 onillik sovet-kommunist epoxası dövrdə xalqımızın acılı-şirinli taleyinin, faciəli-təntənəli günlərinin, milli yaddaşa sadiqliyinin, eləcə də yurdumuza qarşı xəyanətlərin ən əhatəli salnaməsi sayılır.

Tarixinin 72 ilinin tamamında müstəqilliyimizin bərpasının mətbu qaranquşlarından biri kimi fəaliyyətini “Xalq qəzeti” adı altında davam etdirən redaksiya 1991-ci ilin 27 avqustundan “Xalqın qəzeti” məsləkini yaradıcılıq devizinə çevirib.

*(ardı 2-ci səhifədə)*

# Dünyanın yeni kəsərli Sülh Şurası

## *Yaxud Trampın qlobal ambisiyasının şifrələri*

**Fevralın 19-da Vaşinqtonda baş tutacaq Sülh Şurasının ilk liderlər sammiti müasir beynəlxalq münasibətlər sisteminin tarixində həlledici dönüş nöqtələrindən biri kimi yaddaşlara həkk olunacaq. ABŞ Prezidenti Donald Trampın yeni təşəbbüsü İkinci Dünya müharibəsindən sonra formalaşmış və bu gün artıq iflic vəziyyətində olan qlobal təhlükəsizlik arxitekturasının tamamilə yenidən dizayn edilməsidir. Ağ Ev rəhbərinin Sülh Şurası Qəzzadan daha irəli gedəcək və ən əhəmiyyətli beynəlxalq təşkilat ola bilər bəyanatı açıq şəkildə göstərir ki, dünya ənənəvi diplomatiyadan praqmatik korporativ idarəetmə modelinə keçid edir. Bu keçid prosesində Azərbaycanın strateji mövqeyi və Prezident İlham Əliyevin uzaqgörən siyasəti ölkəmizi yeni qlobal masada söz sahiblərindən birinə çevirib.**




Sülh Şurasının yaradılması ideyası əslində dünyanın uzun müddət ehtiyac duyduğu, lakin mövcud bürokratik əngəllər səbəbindən reallaşdıra bilmədiyi radikal islahatın təzahürüdür. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasındakı daimi üzvlərin veto hüququndan sui-istifadə etməsi qlobal münaqişələrin həllini dalana dirəyib. Prezident Trampın “Biz Birləşmiş Millətlər Təşkilatı ilə birlikdə işləyirik. BMT-nin böyük potensialı var” fikri diplomatik nəzakət kimi səslənsə də, əslində, sətiraltı mənaya malikdir. Bu, BMT-nin funksionallığını itirdiyinin, yeni və daha çevik mexanizmin işə düşməsinin rəsmi elanıdır. Fevralın 19-da Sülh Şurasının iclasında elan ediləcək 5 milyard dollarlıq ilkin yardım paketi və İndoneziyanın 8 minlik sülhməramlı kontingentinin təsdiqlənməsi bu qurumun BMT-dən fərqli olaraq sözdən əmələ keçmək qabiliyyətini nümayiş etdirir.

*(ardı 5-ci səhifədə)*


Münxendən Balkanlara: Yeni strateji diplomatiya



Səhifə ⇨ 3

Delimitasiya prosesi növbəti mərhələyə keçir



Səhifə ⇨ 3

Bərabərhüquqlu dünya nizamı uğrunda




Səhifə ⇨ 5

Rostovda azərbaycanlı miqrantları nələr gözləyir?



Səhifə ⇨ 5

Dövlətin aztəminatlı ailələrə qayğısı davamlıdır



Səhifə ⇨ 6

İtaliya Azərbaycanın yatırımlarını dəstəkləyir



Səhifə ⇨ 7

Qlobal Şəhərsalma Forumuna 3 ay qalır




Səhifə ⇨ 8

# Çin Xalq Respublikasının Sədri Zati-aliləri cənab Si Cinpinə

**Hörmətli cənab Sədr!**

Sizi və Sizin simanızda dost Çin xalqını qarşıdan gələn Bahar bayramı münasibətilə öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik etməkdən məmnunluq duyuram.

Sülh və harmoniyanın rəmzi, yeniliyin, ümidin, təbiətə minnətdarlıq hissinin təcəssümü olan bu qədim bayram bütün qayəsi ilə qarşılıqlı anlaşmanı, dostluğu və birliyi tərənnüm edir. Çin təqvimi ilə yeni ilin gəlişini qeyd edən Çuntsze bayramının xalqınıza xoş ovqat, firavanlıq və bol ruzi-bərəkət gətirməsini diləyirəm.

Azərbaycan ilə Çin arasında möhkəm təməllər üzərində qurulmuş hərtərəfli strateji tərəfdaşlıq münasibətlərinin dərinləşməsi və yeni məzmun qazanması bizi sevindirir. Şübhəsiz ki, siyasi dialoqumuzun intensivliyi və qarşılıqlı anlaşma bu münasibətlərin daha sürətli inkişafına və möhkəmlənməsinə şərait yaradır.

Əminəm ki, Azərbaycan-Çin ənənəvi dostluq münasibətləri, səmərəli əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq birgə səylərimizlə bundan sonra da genişlənəcək, strateji tərəfdaşlığımız daha da güclənəcəkdir.

Bu bayram münasibətilə bir daha Sizə ən səmimi təbriklərimi çatdırır, möhkəm cansağlığı, xoşbəxtlik, məsul dövləti fəaliyyətinizdə müvəffəqiyyətlər, dost Çin xalqına isə daim əmin-amanlıq və rifah arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 6 fevral 2026-cı il**

# Azərbaycan–BƏƏ birgə işçi qrupu yaradılacaq



**Birləşmiş Ərəb Əmirlikləri Azərbaycanla aqrar sahədə əməkdaşlığı genişləndirməkdə maraqlıdır. Bu barədə Kənd Təsərrüfatı Nazirliyində Azərbaycanda səfərdə olan Birləşmiş Ərəb Əmirliklərinin iqlim dəyişikliyi və ətraf mühit naziri Amna bint Abdulla Əl Dahak Əl Şəmsinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşdə bildirilib.**

Görüşdə kənd təsərrüfatı naziri Məcnun Məmmədov iki ölkə arasında əməkdaşlığı inkişaf etdirmək üçün böyük potensialın olduğunu deyib. Nazir qeyd edib ki, keçirilən müzakirələr Azərbaycanla Birləşmiş Ərəb Əmirlikləri arasında aqrar sahədə əməkdaşlıq perspektivlərini araşdırmağa və yeni tərəfdaşlıq yaratmağa imkan verir

Amna bint Abdulla Əl Dahak Əl Şəmsi bildirib ki, ölkəsi Azərbaycanla aqrar sahədə əməkdaşlığı genişləndirməkdə maraqlıdır.

Görüşdə Azərbaycan və Birləşmiş Ərəb Əmirlikləri arasında kənd təsərrüfatı məhsullarının ticarət dövriyyəsinin artırılması, heyvandarlıq və kənd təsərrüfatının digər sahələrinə investisiya qoyuluşu imkanları, aqrar sahədə yeni texnologiyaların tətbiqi və digər mövzular ətrafında geniş fikir mübadiləsi aparılıb.

***XQ***

# QMİ Qazılar Şurasının Ramazan fətvası




**Dünən Qafqaz Müsəlmanları İdarəsi Qazılar Şurasının Ramazan ayı ilə əlaqədar iclası keçirilib.**

QMİ sədri, şeyxülislam Allahşükür Paşazadə çıxış edərək mübarək Ramazan ayının başlanması münasibətilə dünya müsəlmanlarını təbrik edib.

İclasda Qazılar Şurasının Ramazan ayı ilə bağlı hazırladığı fətva da səsləndirilib. Orucluğun qaydaları, vaxtları və digər dini məsələlər öz əksini tapıb. Fətva səsə qoyularaq Şura üzvləri tərəfindən qəbul edilib.

Sonra Qafqaz Müsəlmanları İdarəsinin yenilənmiş loqosu təsdiq edilib.

*

**Qafqaz Müsəlmanları İdarəsi Qazılar Şurası Ramazan ayı ilə əlaqədar fətva verib.**

Fətvaya əsasən bu il Ramazan ayının 1-i miladi təqvimlə fevral ayının 19-dur.

Ramazan bayramının tarixi isə Şəvval ayının hilalının görünməsindən asılı olaraq böyük ehtimalla miladi təqvimlə martın 20-nə təsadüf edəcək.

Fitrə zəkatının miqdarı adambaşına 10-15 manat miqdarında müəyyən olunub.

***XQ***

# Azərbaycan–Mərakeş əməkdaşlıq müzakirəsi

**Azərbaycanın elm və təhsil naziri Emin Əmrullayevin rəhbərlik etdiyi nümayəndə heyətinin Mərakeş Krallığına səfəri çərçivəsində bu ölkənin milli təhsil, məktəbəqədər və idman naziri Mohamed Saad Berrada ilə görüşü keçirilib.**

Elm və Təhsil Nazirliyindən bildirilib ki, görüş çərçivəsində iki ölkə arasında məktəbəqədər və ümumi təhsil, eləcə də STEAM təhsili sahəsində cari əməkdaşlıq və yaxın gələcəkdə keçirilməsi nəzərdə tutulan təşəbbüslər barədə ətraflı müzakirə aparılıb.

***XQ***



# Leyla Əliyeva Albaniyanın Baş naziri ilə görüşüb



**Leyla Əliyeva Albaniya Respublikasında səfərdədir.**

Leyla Əliyeva səfər çərçivəsində Albaniyanın Baş naziri Edi Rama ilə görüşüb.

Səmimi dostluq və qarşılıqlı anlaşma şəraitində keçən görüşdə Azərbaycan ilə Albaniya arasında əlaqələrin yüksək səviyyədə olduğu bir daha vurğulanıb.

Tərəflər mədəni əlaqələrin möhkəmləndirilməsini müzakirə edərək, incəsənətin birgə yaradıcılıq üçün universal vasitə kimi rolunu qeyd ediblər.

Söhbət zamanı Leyla Əliyeva və Edi Rama ekoloji məsələlərə xüsusi diqqət ayıraraq, ətraf mühitin mühafizəsi və iqlim dəyişikliyi ilə mübarizədə səylərin birləşdirilməsinin vacibliyini qeyd ediblər.





# **“Xalq qəzeti”:** Azərbaycan həyatının 107 illik salnaməsinin 31 mininci səhifəsi

**(əvvəli 1-ci səhifədə)**

72 illik avanqard nəşrin hüquqi varisi olan kollektiv 34 ildir ki, ümummilli nəşr kimi suveren dövlətimizə və azadlıq qazanmış xalqımıza xidmət göstərir.

2 əsrin 11 onilliyində, 2 müxtəlif ictimai sistemdə xalqımızın və dövlətçiliyimizin mətbu salnaməsinə çevrilmiş bu rəsmi statuslu, ümumxalqyönlü qəzetin 107 il davamlı işıq üzü görməsi milli mətbuatımızda ikinci bir qəzetə nəsib olmayıb. Bu nadirlik yalnız media tariximiz üçün deyil, bütövlükdə, ölkənin milli-mənəvi dəyərlər çevrəsinin önəmli faktıdır. Dövlət müstəqilliyimizin 35 il əvvəl qəzetin taleyində yaratdığı əsaslı dönüş, redaksiyanın qarşısında açdığı yeni mərhələ hərtərəfli yeniləşmə, söz azadlığı anlayışının gerçəkləşməsi ilə müşayiət olunub.

1994-cü ildə 75 illik yubileyi münasibətilə redaksiya kollektivinə təbrik məktubunda ümummilli lider Heydər Əliyev qəzetin ötən dövrdəki fəaliyyətinə doğru-düzgün qiyməti belə ifadə etmişdi: “Xalq qəzeti” mənalı yaradıcılıq yolu keçmiş, özünəməxsus üslub və sənətkarlıq xüsusiyyətləri olan nəşrlərimizdəndir. Uzun müddət “Kommunist” adı ilə nəşr edilən bu qəzet bütün sovet dövrü ərzində Azərbaycanın ictimai, iqtisadi və mədəni həyatının güzgüsü olmuşdur. Respublikada qəzetçilik ənənələrinin formalaşmasında, jurnalistikamızın inkişafında “Xalq qəzeti”nin xidmətləri xüsusi qeyd olunmalıdır”. Ulu öndər bu yüksək qiyməti ilə milli- mədəni sərvətə çevrilmiş qəzetin tarixi xidmətlərini kölgə salmaq istəyən populist və avantürist şəxslərin bədxah münasibətini obyektiv olaraq cavablandırmışdı.

Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusunun dediyi “Bugünkü çoxsəsli, rəngarəng Azərbaycan mətbuatının bir çox görkəmli nümayəndələri bu qəzetin yaradıcılıq məktəbini keçmişdir” sözləri təkcə “Xalq qəzeti”nin milli jurnalistikamıza xidmətinin uca tutulması deyil, həm də yeni şəraitdə varisliyin zəruriliyinin təsdiqi idi. Belə bir ideya-siyasi baxış əsas verir ki, bu gün inamla deyək: “Xalq qəzeti” əsrdən uzun media marafonu keçən bir ümummilli qəzet kimi tarixinin 107-ci ilində fəaliyyətini milli maraqlara və dövlətçilik məfkurəsinə yüksək peşəkarlıqla xidmət etməklə davam etdirir.

***“Xalq qəzeti” redaksiyası***

# Paytaxtın rayon icra başçılarına məsuliyyət çağırışı

**Bakı Şəhər İcra Hakimiyyətində paytaxtın rayon icra hakimiyyətlərinin başçıları və şəhər kommunal xidmətlərinin rəhbərlərinin iştirakı ilə növbəti müşavirə keçirilib.**

Bakı Şəhər İcra Hakimiyyətinin mətbuat xidmətindən bildirilib ki, müşavirədə şəhərin sanitar təmizliyinin və yaz-yay mövsümünə hazırlığının vəziyyəti, əsaslı təmir, abadlıq və yaşıllaşdırma işləri, habelə qanunsuz tikintilərlə bağlı məsələlər müzakirə olunub.

İclasda çıxış edən Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov bildirib ki, rayon icra hakimiyyəti başçıları ərazilərində mövcud nöqsanları operativ şəkildə aşkar edib aradan qaldırmalı, məsuliyyət və təşəbbüskarlığın günün əsas tələbi olduğunu daim nəzərə almalıdırlar.

Müşavirədə Suraxanı, Qaradağ və Xəzər rayonlarında təsərrüfat məsələlərinin



vəziyyəti kəskin tənqid edilib. Qeyd olunub ki, bu rayonların bəzi qəsəbələri ümumşəhər standartlarından geri qalır. Yol verilmiş nöqsanlara görə Suraxanı Rayon İcra Hakimiyyətinin başçısına töhmət, Xəzər Rayon İcra Hakimiyyətinin başçısına isə şifahi xəbərdarlıq elan edilib.

Toplantıda paytaxt rayonlarında təmizlik, abadlıq və yaşıllaşdırma sahəsində görülən işlər də müzakirə edilib. Novruz bayramına hazırlıq və işlərin daha da təkmilləşdirilməsi üçün müvafiq tapşırıqlar verilib.

Müşavirədə rayonlarda qanunsuz tikintilərin monitorinqinin nəticələrinə dair video və fotomateriallar nümayiş etdirilib. Bu mövzu ətrafında geniş müzakirələr aparılıb, aşkarlanmış qanun pozuntuları əyani şəkildə təqdim olunub. Bildirilib ki, bu cür hallar əsasən Sabunçu, Qaradağ, Xəzər və digər rayonlarda qeydə alınıb. Qanunsuz tikintilərlə mübarizənin gücləndirilməsi məqsədilə aidiyyəti üzrə tapşırıqlar verilib.

Qeyd edilib ki, müşavirədə verilən tapşırıqların icrasına Bakı Şəhər İcra Hakimiyyətinin monitorinq qrupu tərəfindən nəzarət olunacaq. Yaz-yay mövsümünə hazırlıq məqsədilə xüsusi qərargah yaradılması və görülən işlərin nəticələrinin 2 ay ərzində yenidən müzakirəyə çıxarılması qərara alınıb.

***XQ***

# “Övraqi-nəfisə” jurnalı yeni əlifbada





**Fevralın 17-də Azərbaycan Milli Konservatoriyasında “Övraqi-nəfisə” jurnalının transliterasiya nəşrinin təqdimatı olub. İncəsənətin ən zəngin səhifələrini özündə cəmləşdirən “Övraqi-nəfisə”, 1 əsr sonra milli mətbuatımızın 150 illik yubileyinə töhfə vermək niyyətilə “Ədibin evi” Ədəbiyyata Dəstək Fondu tərəfindən yenidən gündəmə gətirilib. ADA Universitetinin təşəbbüs və dəstəyi sayəsində ərəb qrafikalı əski Azərbaycan əlifbasından latın qrafikalı müasir əlifbaya transliterasiya olunaraq nəfis bir tərtibatla nəşr edilib.**

Tədbirdə çıxış edən Azərbaycan Milli Konservatoriyasının rektoru Kamilə Dadaş-zadə bildirib ki, “Övraqi-nəfisə” ifadəsi nəfis, incə və dəyərli səhifələr anlamını daşıyır. Onun sözlərinə görə, zaman keçəcək, lakin bu layihə Azərbaycan mədəniyyətinin, milli incəsənətimizin və ümumən ədəbiyyat-musiqi tariximizin ən parlaq səhifələrindən biri kimi yaddaşlarda qalacaq.

“Ədibin evi” Ədəbiyyata Dəstək Fondunun icraçı direktoru Şəfəq Mehrəliyeva, jurnalın transliteratoru, qeyd və şərhlərin müəllifi, filoloq və tərcüməçi Azad Ağaoğlu, Milli Məclis sədrinin müavini, akademik Rafael Hüseynov çıxış edərək nəşrin əhəmiyyətindən danışıblar.

Sonda çıxış edən ADA Universitetinin rektoru Hafiz Paşayev təqdimat mərasiminin çox gözəl sözlərlə yadda qaldığını bildirib və əməyi keçən hər kəsə təşəkkürünü çatdırıb.

# Münxendən Balkanlara: Yeni strateji diplomatiya

**2026-cı il qlobal siyasət üçün yalnız keçid dövrü deyil, həm də yeni beynəlxalq reallıqların sistemli şəkildə ifadə olunduğu, dövlətlərin suveren qərarverməsinin yeni təhlükəsizlik arxitekturasında baş rol oynadığı bir xətt olaraq yadda qalır. Bu fondu ən aydın şəkildə ifadə edən siyasi platformalardan biri də Münxen Təhlükəsizlik Konfransı oldu. Dünya dövlət başçıları, beynəlxalq təşkilatların liderləri, düşüncə mərkəzlərinin nümayəndələri Münxendə toplaşaraq yeni təhlükəsizlik çağırışlarını, regional əməkdaşlıq modellərini, enerji sabitliyinin qlobal təsirlərini və qarşılıqlı fayda prinsiplərinə əsaslanan diplomat strategiyalarını müzakirə etdilər.**



Bu forumda İlham Əliyevin çıxışı yalnız Azərbaycanın regional gündəliyini əks etdirməklə kifayətlənmədi; o, yeni qlobal əməkdaşlıq formatlarının konturlarını açıq və praqmatik dildə ifadə etdi. Prezident çıxışında Azərbaycanın xarici siyasət prinsiplərini konkret kontekstdə belə formalaşdırdı: "Biz inanırıq ki, heç bir ölkənin təhlükəsizliyini başqa ölkənin və ya güc mərkəzinin təzyiqi üzərində qurmaq olmaz. Hər bir dövlət öz təhlükəsizliyinə öz qərarları ilə töhfə verməlidir".

Bu cümlə Münxen tribunasından səslənən ən prinsipial mesajlardan biri oldu. Çünki o, beynəlxalq münasibətlərdə suverenliyin qorunmasını yalnız hüquqi kateqoriya kimi deyil, həm də real siyasi mexanizm olaraq təqdim edir. Qloballaşmanın və çoxşaxəli təhlükəsizlik çağırışlarının hökm sürdüyü müasir dünyada suveren qərarvermə dövlətlərin öz mənafelərini qoruyan aktiv siyasi xəttidir. Prezidentin vurğuladığı bu prinsip postsovet məkanında uzun illər dominant olmuş "böyük güclərin rəqabəti" paradiqmasına alternativ kimi səsləndi. Bu yanaşma, əslində, qlobal siyasətdə seçim azadlığını həm praktik, həm də prinsipial səviyyədə qorumaq məqsədi daşıyır.

Münxendə səslənən çıxışın başqa diqqətçəkən tərəfi enerji təhlükəsizliyi məsələsinə həsr olunmuş hissə idi. Avropanın enerji xəritəsi son illərdə ciddi şəkildə yenidən formalaşır; enerji marşrutlarının şaxələndirilməsi isə təkcə iqtisadi fayda deyil, həm də siyasi sabitlik amili kimi qiymətləndirilir.

**Prezident bu mövzunu belə səciyyələndirdi:**

"Enerji layihələri yalnız iqtisadi layihələr deyil; onlar siyasi sabitlik, etimad və regional əməkdaşlıq amilləridir. Marşrutların şaxələndirilməsi qlobal təhlükəsizlik risklərini azaltmaq üçün mühüm addımdır".

Bu, funksional əməkdaşlıq modelinin birmənalı ifadəsi idi — əməkdaşlıq yalnız iqtisadi səmərəlilik üçün deyil, eyni zamanda, regionlar arasında risklərin bölüşdürülməsi və qarşılıqlı etimad zəminınə xidmət edən bir mexanizm kimi qurulmalıdır.

Enerji təhlükəsizliyi məsələsində Azərbaycanın Avropaya ixrac etdiyi enerji resursları alternativ marşrutların formalaşmasına imkan verir. Bu isə enerji təhlükəsizliyinin təminində çoxşaxəli yanaşmanın tətbiqinə zəmin yaradır. Azərbaycanın Avropanın enerji xəritəsində artan çəkisi təkcə enerji sektorunda deyil, həm də qlobal siyasi koordinatlarda Azərbaycanın daha fəal aktor kimi rolunu gücləndirir. Bu kontekstin əsas elementi funksional əməkdaşlığın siyasi sabitlik komponentidir. Enerji ilə bağlı qarşılıqlı fayda modeli müasir təhlükəsizlik düşüncəsinin mühüm hissəsinə çevrilir.

Münxendə səslənən fikirlər yalnız bu konseptual paradiqmaları ifadə etmədi; onlar həm də konkret real əməkdaşlıq formatlarının təzahürüdür. Bu formatlardan biri uzun illərdir inkişaf edən Balkanlarla münasibətlərdir. Balkanların qəlbində yerləşən Serbiya ilə münasibətlər isə son illərdə keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. Rəsmi səfərlər, imzalanan sənədlər və ardıcıl icra olunan layihələr göstərir ki, tərəflər əməkdaşlığı yalnız diplomatik protokolla məhdudlaşdırmır; o, enerji təhlükəsizliyi, infrastruktur, müdafiə sənayesi və humanitar müstəvilərdə sistemli şəkildə genişlənir.

Bu yaxınlaşmanın arxasında yalnız geosiyasi mövqelərin üst üstə düşməsi dayanmayıb. Əsas amillərdən biri də Prezident İlham Əliyev ilə Aleksandar Vuçiç arasında formalaşmış səmimi və etibara söykənən şəxsi münasibətlərdir. Liderlər səviyyəsində qurulan bu dialoq siyasi gündəliyə əlavə dinamika gətirir, qərarların operativ və praqmatik ruhda qəbuluna şərait yaradır. Müntəzəm təmaslar, təşəbbüslərə açıq dəstək və regional sabitliyə ortaq baxış Bakı ilə Belqrad arasında strateji tərəfdaşlıq modelini möhkəmləndirir.

Bu münasibətlərin fəlsəfəsi təkcə sözlərlə deyil, həm də praktikada özünü göstərir. Prezident İlham Əliyev Serbiyanın rəsmi nümayəndələri ilə görüşlərində bu münasibətləri belə xarakterizə edib ki, biz Serbiya ilə yalnız siyasi əlaqələr deyil, həm də iqtisadi, enerji, infrastruktur və müdafiə sənayesi sahələrində real əməkdaşlıq nümunələri yaradırıq. Bu əlaqə hər iki tərəf üçün faydalıdır və regional sabitliyə xidmət edir. Bu fikir iki dövlət arasında yalnız rəsmi əlaqələrin deyil, strateji əməkdaşlığın dərinliyi və məzmununu ifadə edir.

**Aleksandar Vuçiç də tərəfdaşlıq əlaqələrini yüksək dəyərləndirir:**

"Azərbaycan bizim üçün strateji tərəfdaşdır. Bizim əməkdaşlığımız yalnız iki ölkə üçün deyil, bütövlükdə Avrasiya məkanı üçün iqtisadi və siyasi faydalar yaradır". Vuçiçin bu sözləri dövlətlərin qarşılıqlı etimad əsasında qurduğu əməkdaşlığın coğrafi sərhədlərini aşaraq çoxşaxəli, dinamik və perspektivli bir siyasi modelə çevriləcəyini göstərir.

Bu dialoq təkcə enerji və iqtisadi əməkdaşlıqla məhdudlaşmır. Nəqliyyat və logistika sahəsində qarşılıqlı maraqlar müasir kommunikasiya və tranzit xətlərinin Avrasiya məkanında yeni bağlantılar yaradılmasına xidmət edir. Bu, yalnız iki dövlət arasında tranzit xətlərinin inşası deyil; o, regional inteqrasiyanın real mexanizmidir və iqtisadi inteqrasiya ilə siyasi əməkdaşlıq arasında birbaşa körpü rolunu oynayır. Bu model Avrasiya məkanında daha geniş geosiyasi əməkdaşlıq çərçivəsinin əsas sütunlarından birinə çevrilə bilər.

Eyni zamanda, humanitar mübadilələr, mədəni tədbirlər və təhsil proqramları xalqlar arasında yaxınlığı gücləndirərək siyasi iradəni ictimai dayağa çevirir. Mədəniyyət və təhsil sahələrində qarşılıqlı əlaqələr yalnız diplomatik rəsmi münasibətlərdən ibarət deyil; onlar ictimaiyyətin qarşılıqlı anlaşmasını artıran faktor kimi çıxış edir. Bu, strateji tərəfdaşlığın əsas istiqamətlərindən biri kimi formalaşır və dövlətlərin xalqlar arasında etimad mühitinin yaradılmasına verdiyi önəmi göstərir.

Münxendə səslənən çıxışlar və Balkanlarla əlaqələrin dinamik inkişafı bir daha göstərir ki, Bakı ilə Belqrad arasında münasibətlər situativ maraqların deyil, uzunmüddətli strateji baxışın məhsulu kimi formalaşır. Qarşılıqlı hörmət və etimada söykənən liderlərarası münasibətlər bu xəttə əlavə dayanıqlılıq verir və tərəfdaşlığı regional təhlükəsizlik üçün əhəmiyyətli amilə çevirir. Bu, yalnız coğrafi qonşuluq deyil, strateji tərəfdaşlıq modelidir.

Münxendə səslənən tezislər Azərbaycan xarici siyasətinin əsas xəttini bir daha aydın konturlarla ortaya qoydu. Prezidentin ifadə etdiyi kimi: "Bizim kursumuz milli maraqlara söykənən, amma çoxtərəfli dialoqa açıq siyasətdir. Bu, sərt ritorikadan çox strateji məntiqi əsas alır".

Bu strateji məntiq — suverenlik, enerjinin sabitliyi, regionlararası dialoq və qarşılıqlı fayda — yalnız sözlərlə deyil, real əməkdaşlıq formatları ilə təsdiqlənir. Forumda səslənən fikirlər Azərbaycanın özünü yalnız regional aktor kimi deyil, qlobal təhlükəsizlik diskursunun fəal iştirakçısı kimi təqdim etməyə çalışdığını göstərir.

Prezidentin çıxışı polemikadan uzaq, lakin mövqeyi qəti ifadə edən diplomatik praqmatizm nümunəsi idi. Rəsmi Bakı beynəlxalq auditoriyaya sabitlik ixrac edən, riskləri idarə edən və əməkdaşlıq üçün açıq olan bir dövlət obrazını təqdim etdi. Münxendə səslənən tezislər yalnız forum protokolunun bir epizodu deyil — yeni regional və qlobal reallıqlar fonunda Azərbaycanın öz yerini necə gördüyünün siyasi manifesti kimi yadda qaldı.



2026-cı il siyasi reallıqlarının kodları dəyişir. Suverenlik anlayışı yenidən təfsir olunur, enerji təhlükəsizliyi yalnız iqtisadi problem deyil, eyni zamanda, geosiyasi təhlükəsizlik elementi kimi qiymətləndirilir, regionlararası əməkdaşlıq isə multidimenzional və qarşılıqlı fayda əsasında qurulur. Azərbaycanın bu yeni gündəliyə adaptasiyası, onun strategiyasını daim yeniləməsi bu gün beynəlxalq münasibətlər sistemində seçilən nümunələrdən biridir. Balkanlarla — xüsusilə Serbiya ilə — qurulan əməkdaşlıq modelinin davamlı olması isə bu strateji xəttin təkcə fikir bazarında deyil, praktikada da real siyasi transformasiya yaratdığını göstərir.

Münxen tribunasından yüksələn bu strateji xətt yalnız bir bayraq altında toplanan regionların deyil, bütün qlobal cəmiyyətin diqqətini cəlb edir. Suverenlik, sabitlik və əməkdaşlıq — bu üçbucaq qlobal siyasətin yenidən formalaşan konturlarında Azərbaycanın yeri və rolunu müəyyən edir. Dövrün çağırışlarına cavab verən bu xətt, eyni zamanda, çoxşaxəli təhlükəsizlik və əməkdaşlıq modelinə sadiq qalmağın real nümunəsinə çevrilir.

***Elnarə AKİMOVA,***
***Milli Məclisin deputatı,***
***filologiya elmləri doktoru***

# Delimitasiya prosesi növbəti mərhələyə keçir

## *Cənubi Qafqazda sülhün xəritəsi inamla formalaşır*

**Azərbaycan və Ermənistan arasında ötən il avqustun 8-də Vaşinqtonda sülh sazişinin paraflanması regionda uzun illər davam etmiş qarşıdurmanın hüquqi müstəvidə tənzimlənməsi istiqamətində atılmış mühüm addım oldu. Sənədin imzalanması ilə paralel tərəflər münasibətlərin normallaşdırılması üçün praktiki mexanizmlərin işə salınmasına üstünlük veriblər. Xüsusilə nəqliyyat-kommunikasiya xətlərinin açılması, tranzit imkanlarının bərpası və qarşılıqlı ticarətin başlanması məsələləri gündəliyin əsas istiqamətlərini təşkil edir. Bu proseslər yalnız iqtisadi dividend vəd etmir, eyni zamanda, qarşılıqlı əlaqə mühitini formalaşdıraraq siyasi riskləri minimuma endirməyi hədəfləyir.**



Kommunikasiyaların açılması regionun logistik xəritəsində yeni konfiqurasiya yaradır, iki ölkəni daha geniş iqtisadi şəbəkələrin tərkib hissəsinə çevirir. Qarşılıqlı ticarətin başlanması isə uzunmüddətli sabitliyin sosial-iqtisadi dayaqlarını möhkəmləndirə bilər. Çünki iqtisadi əməkdaşlıq genişləndikcə, tərəflər üçün qarşıdurma ritorikasına qayıdış daha az rasional görünür. Bu baxımdan sülh prosesi yalnız siyasi razılaşma deyil, həm də əməkdaşlıq platforması kimi formalaşır.

Bütün bu təşəbbüslərin dayanıqlı nəticə verməsi üçün əsas şərtlərdən biri dövlət sərhədinin hüquqi və faktiki baxımdan dəqiq müəyyənləşdirilməsidir. Məhz bu mərhələdə delimitasiya və demarkasiya prosesi xüsusi əhəmiyyət kəsb edir. Sərhədlərin xəritələr əsasında razılaşdırılması, yerində işarələnməsi, sərhəd dirəklərinin quraşdırılması tərəflər arasında gələcəkdə yarana biləcək mübahisələrin qarşısını almağa xidmət edir. Eyni zamanda, bu addım təhlükəsizlik mühitini sabitləşdirir, kommunikasiyaların açılması və ticarət əlaqələrinin inkişafı üçün zəruri hüquqi zəmin yaradır. Beləliklə, sülh sazişinin paraflanması, iqtisadi əlaqələrin qurulması və nəqliyyat xətlərinin açılması ilə yanaşı, sərhədlərin delimitasiyası və demarkasiyası prosesi bütövlükdə regionda davamlı sülhün institusional əsaslarını formalaşdıran bir-biri ilə bağlı mərhələlər kimi çıxış edir.

Bu istiqamətdə yenilik Azərbaycan və Ermənistan arasında dövlət sərhədinin delimitasiyası və demarkasiyası üzrə dövlət komissiyalarının növbəti iclasının yaxın vaxtlarda keçiriləcəyi ilə bağlıdır. Bunu Ermənistan mediasına açıqlamasında Ermənistan–Azərbaycan "Sülh körpüsü" təşəbbüsünün iştirakçısı, "Erməni Şurası" analitik mərkəzinin nümayəndəsi Narek Minasyan bildirib. O, növbəti görüşün Ermənistanda keçiriləcəyini deyib: "Yaxın vaxtlarda iki ölkənin sərhədin delimitasiya və demarkasiyası üzrə komissiyalarının iclası planlaşdırılır. Nəzərə alsaq ki, əvvəlki iclas Azərbaycan ərazisində keçirilib, növbəti iclas çox güman ki, Ermənistanda baş tutacaq". Sərhədlərin delimitasiya və demarkasiyası üzrə komissiyaların sonuncu – 12-ci iclası 2025-ci il noyabrın 28-də Qəbələ şəhərində komissiyaların hər iki tərəfdən həmsədrləri – Azərbaycan Baş nazirinin müavini Şahin Mustafayevin və Ermənistan Baş nazirinin müavini Mher Qriqoryanın sədrliyi ilə keçirilib.

*

Komissiyaların növbəti iclasının yaxın vaxtlarda keçiriləcəyi barədə məlumat sülh prosesinin texniki mərhələsinin davam etdiyini göstərən mühüm siqnaldır. Bu, paraflanmış sülh sazişindən sonra tərəflərin konkret mexanizmlər üzərində işləməyə davam etdiyini nümayiş etdirir və prosesi siyasi bəyanatlar müstəvisindən praktik icra mərhələsinə keçirir. Əvvəlki iclasın Azərbaycan ərazisində keçirildiyini nəzərə alsaq, növbəti görüşün Ermənistanda baş tutmasının planlaşdırılması danışıqların qarşılıqlı prinsip əsasında aparıldığını göstərir. Bu, həm də tərəflər arasında müəyyən prosedur razılaşmalarının formalaşdığını təsdiqləyir. Delimitasiya və demarkasiya kimi həssas məsələlərdə belə texniki ardıcıllıq və razılaşdırılmış mexanizmin mövcudluğu daşıyır. Çünki sərhədlərin dəqiqləşdirilməsi yalnız xəritə üzərində xətt çəkmək deyil, həm də təhlükəsizlik, kommunikasiya və yerli əhali ilə bağlı praktiki məsələlərin həllini tələb edir.

Sərhədin hüquqi baxımdan razılaşdırılması regionda uzunmüddətli sabitliyin əsas dayaqlarından biridir. Delimitasiya, yəni sərhəd xəttinin hüquqi sənədlər və xəritələr əsasında müəyyənləşdirilməsi gələcək mübahisələrin qarşısını almağa xidmət edir. Demarkasiya isə həmin xəttin yerində, fiziki olaraq işarələnməsidir ki, bu da praktiki müstəvidə anlaşılmazlıqları minimuma endirir. Hər iki mərhələ paralel və ya ardıcıl şəkildə aparıldıqda, sərhəd boyunca insident riskləri azalır, hərbi-siyasi gərginlik üçün zəmin daralır. Bu prosesin davam etməsi, eyni zamanda, kommunikasiya xətlərinin açılması və tranzit layihələrinin reallaşdırılması baxımından da mühüm əhəmiyyət kəsb edir. Çünki sərhədlərin dəqiq müəyyənləşdirilmədiyi şəraitdə nəqliyyat marşrutlarının təhlükəsiz və davamlı fəaliyyəti çətinləşir. Qarşılıqlı ticarətin başlanması və iqtisadi əlaqələrin genişlənməsi üçün də sabit sərhəd rejimi zəruridir. Bu mənada, delimitasiya və demarkasiya sülh gündəliyinin texniki detalı deyil, onun əsas sütunlarından biridir.

Digər tərəfdən, komissiyaların iclaslarının müntəzəm keçirilməsi göstərir ki, tərəflər prosesi uzatmaq yox, mərhələli şəkildə irəlilətmək niyyətindədirlər. Əlbəttə, sərhəd məsələsi tarixən mürəkkəb və emosional fonu olan mövzudur və hər addım ciddi hüquqi əsaslandırma tələb edir. Lakin institusional mexanizmlərin işlək qalması və dialoqun davam etməsi özü-özlüyündə müsbət tendensiyadır.

Beləliklə, növbəti iclasın planlaşdırılması sülh sazişinin paraflanmasından sonra yaranmış dinamikanın qorunduğunu göstərir. Əgər proses ardıcıl və qarşılıqlı hörmət prinsipi əsasında davam etdirilərsə, delimitasiya və demarkasiya işləri regionda davamlı sülhün və təhlükəsiz əməkdaşlıq mühitinin formalaşmasına real töhfə verə bilər.

***Səxavət HƏMİD***
***XQ***

### *Ekspert rəyi*



**Ramiyə MƏMMƏDOVA,**
**politoloq**

Azərbaycan və Ermənistan arasında sərhədlərin delimitasiyası və demarkasiyası üzrə komissiyaların növbəti iclasının planlaşdırılması ilk baxışda texniki xarakterli xəbər kimi görünə bilər. Lakin əslində, bu, regionda formalaşmaqda olan yeni təhlükəsizlik arxitekturasının mühüm elementidir. Çünki sərhəd məsələsi iki ölkə münasibətlərində həm simvolik, həm də praktik baxımdan ən həssas istiqamətlərdən biri olaraq qalır. Uzun illər qeyri-müəyyən qalan xəttin hüquqi əsaslarla müəyyənləşdirilməsi tərəflər arasında məsuliyyət bölgüsünü də dəqiqləşdirir. Sərhədin haradan keçdiyi aydın olduqca, insidentlərə dair iddiaların və qarşılıqlı ittihamların manevr sahəsi daralır. Bu isə təkcə hərbi risklərin azalması demək deyil, eyni zamanda, diplomatik münasibətlərin daha proqnozlaşdırılan müstəviyə keçməsi anlamına gəlir.

Növbəti görüşün keçirilməsi barədə məlumat onu göstərir ki, tərəflər dialoq kanalını açıq saxlayırlar. Bu, xüsusilə vacibdir, çünki sərhəd məsələsi prosesin ən çətin komponentlərindən sayılır. Məhz bu sahədə ardıcıllıq qorunursa, deməli, ümumi sülh gündəliyinin digər istiqamətləri üçün də müəyyən baza mövcuddur.

Sərhədlərin dəqiqləşdirilməsi yalnız təhlükəsizlik məsələsi deyil. Bu, həm də iqtisadi və sosial sabitliklə bağlıdır. Sərhədyanı ərazilərdə yaşayan əhali üçün aydın hüquqi status, torpaq və mülkiyyət məsələlərinin dəqiqləşməsi gündəlik həyatın sabitləşməsinə xidmət edir. Eyni zamanda, dövlətlərarası münasibətlərdə qeyri-müəyyən zonaların aradan qalxması investisiya və infrastruktur layihələri üçün daha əlverişli mühit yaradır.

# Ruben Vardanyanla bağlı hökm, yaxud separatizm barədə nekroloq

## *Azərbaycan hüquqi müstəvidə də qalibdir*

**2022-ci ilin sentyabrında Azərbaycan ərazisinə qeyri-qanuni gəlmişdi. Onun barəsində həm də buna görə hökm oxundu. Söhbət Qarabağdakı keçmiş separatçı rejimdə qondarma "dövlət naziri" postunu tutmuş Ruben Vardanyandan gedir. O Vardanyandan ki, Rusiya vətəndaşlığından imtina edib Qarabağa gəlişi fövqəladə hadisə kimi qiymətləndirilirdi və bu haqda söz açacağıq. Ancaq dünən Vardanyanla bağlı heç bir fövqəladəlik yaşanmadı. Bakı Hərbi Məhkəməsi onun barəsində 20 il müddətinə azadlıqdan məhrumetmə cəzası çıxardı. Beləliklə, 1 ildən artıq davam edən proses başa çatdı. Ancaq başa çatan yalnız məhkəmə işi olmadı və mövcud məqama da diqqət yetirəcəyik.**



Qeyd edək ki, həm Ermənistandakı revanşist və şovinist kəsim, həm də Qarabağdakı başıpozuqlar hesab edirdilər ki, Vardanyan erməni separatçılığını diri saxlamağa müvəffəq olacaq. Bu fikirlər heç də elə-belə meydana çıxmamışdı. Məşhur Azərbaycan atalar sözündə deyildiyi kimi, arxalı köpək qurd basar. Vardanyanın arxasında hansı dövlətin dayandığı məlumdur. Nəzərə alaq ki, onun Rusiya vətəndaşlığından tez-tələsik imtina qərarını leqallaşdıran Kreml rəhbərliyi olmuşdu. Yeri gəlmişkən, Rubenin Ermənistan vətəndaşlığına keçidi də sürətli alınmışdı. Qarabağa gəldikdən sonra isə Vardanyanın bölgədəki Rusiya sülhməramlıları tərəfindən qorunduğu məlumdur. Ancaq bütün bunlar Azərbaycan qarşısında əngəl yarada bilmədi. Ölkəmiz 2023-cü ilin sentyabrında lokal xarakterli antiterror tədbirləri ilə Qarabağda separatizmin kökünü kəsdi, öz ərazilərində konstitusyon hakimiyyət quruluşunu tam bərpa etdi. Vardanyan isə saxlanıldı və Bakıya gətirildi.

Bəli, 2023-cü ilin sentyabrında R.Vardanyanla Azərbaycan torpaqlarında separatçılığa yeni nəfəs gətirmək cəhdləri də boğuldu. Amma Ruben amili təkcə bunun üzərində qərarlaşmamışdı. Onu bölgəyə yerləşdirənlər tarixi təkrarlamaq xülyasında idilər. Onlar istəklərini "Qarabağ kartı" ilə reallaşdırmağa çalışmışdılar. Çalışmışdılar ki, Rubenin bölgədə parlaq lider obrazı canlansın. Elə bir obraz ki, sonradan onun Ermənistanda da hakimiyyətə gəlməsi reallaşsın. Beləliklə, Cənubi Qafqazda erməni avantürası davamını tapsın. Ona görə də Vardanyan çıxışlarında Ermənistanın baş naziri Nikol Paşinyanı hədəfə çevirir, ümumən ölkə rəhbərliyinə münasibətdə aşağılayıcı ifadələr işlədirdi. O, bu yolla revanşist və şovinistlərin dəstəyinə ümid bəsləyirdi. Amma...

Rusiyanın Vardanyanı Qarabağda yerləşdirməsinə gəlincə, deməli, Moskva 2018-ci il inqilabından sonra Ermənistanda itirdiyi mövqelərini bərpa etməyə müxtəlif cəhdlər göstərsə də, buna nail ola bilmirdi. Bu zaman Kreml Qarabağdakı erməni maraqları üzərinə oynamaq qərarına gəldi və bölgədə R.Vardanyanın əli ilə, bir növ, mikro Ermənistan qurmaq istədi ki, yekunda onu İrəvana qarşı alternativ qoysun. Lakin məsələ həllini tapmadı. Bu yerdə vaxtilə Koçaryan-Sarkisyan Qarabağ klanının Ermənistanda hakimiyyəti ələ keçirdiyinə və uzun müddət iqtidarda qaldığına diqqət çəkməliyik. Yəni Vardanyan məhz bu planı təkrarlamaq istəyirdi.

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində cinayət işləri üzrə açıq məhkəmə prosesi bu il fevralın 5-də başa çatmışdı. R.Vardanyana hökmün oxunmasını isə başlanılmış böyük işin kuliminasiya nöqtəsi kimi qiymətləndirmək olar. O işin ki, postmünaqişə mərhələsində mühüm hüquqi vəzifənin icrasıdır. Yəni Azərbaycan öz ərazisində törədilmiş ağır cinayətlərə hüquqi qiymət verdi. Başqa sözlə desək, Vardanyanla bağlı çıxarılan cəzada bütövlükdə separatizm barədəki hökm mahiyyəti dayanır.

Onu da bildirək ki, "Vardanyan işi" ötən bir ildən artıq müddətdə Azərbaycana təzyiq vasitəsi kimi də istifadə edildi. Bu baxımdan Avropa Parlamentinin ölkəmizin rəsmilərinə qarşı sanksiya hədələrindən tutmuş, Rubenin dərhal və qeyd-şərtsiz azad edilməsini tələb edən qətnamələrədək bir çox məqamları vurğulamaq mümkündür. Eyni zamanda, Vardanyanın ailə üzvlərinin də qatıldıqları kampaniya var idi ki, bu kampaniyanı Fransa mediası həyata keçirmişdi. Məsələn, Rubenin oğlu "Le Figaro" qəzetinə müsahibə verərək, Bakıda keçiriləcək COP29-a beynəlxalq boykot çağırışı səsləndirmiş, həyat yoldaşı isə saxta sentimentalizmə güc vermişdi.

Habelə, nüfuzlu "Vaşinqton post"un da Rubenin müdafiəsinə qalxdığı yadımızdadır. Daha böyük miqyasda isə Vardanyanın Nobel Sülh Mükafatına namizəd göstərmək cəhdlərini, BMT-nin xüsusi məruzəçilərinə ünvanlanan müraciətləri vurğulamaq mümkündür. Bundan başqa, bir vaxtlar "Vardanyan işi"ni Azərbaycan–Ermənistan sülh prosesi ilə əlaqələndirmək kimi gedişlərin edildiyini də bildirməliyik. Bu gedişlər Rubenlə bağlı duruma geosiyasi kontekst qazandırmaq istəyindən qaynaqlanırdı.

Lakin bütün bunlar Bakıdakı məhkəmənin ahənginə və ritminə təsir göstərə bilməzdi və bilmədi. Azərbaycan dövlətinin ortaya qoyduğu iradə və əzm hərbi və diplomatik cəbhədə uğur qazandığı kimi, hüquqi müstəvidə də öz sözünü dedi. Bu əzm və iradə dələduz Vardanyanın illərlə özü barədə formalaşdırdığı maarifçi və xeyriyyəçi imicini də yerlə-bir etdi. Sonda isə belə nəticəyə gəlmək mümkündür ki, R.Vardanyan barəsindəki hökm yalnız fərdi məsuliyyət deyil, bütövlükdə separatçı sistemin hüquqi müstəvidə ifşası anlamını daşıyır. Azərbaycan separatizmə qarşı mübarizənin hüquqi mərhələsini də uğurla tamamladı.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Erməni oliqarx layiqli cəzasını aldı

**Azərbaycan Respublikası Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesi fevralın 17-də davam etdirilib.**



Bakı Hərbi Məhkəməsində hakim Zeynal Ağayevin sədrliyi ilə keçirilən açıq məhkəmə iclasında təqsirləndirilən şəxs bildiyi dildə, yəni rus dilində tərcüməçi, habelə müdafiəsi üçün dövlət hesabına vəkillə təmin olunub.

İclasda təqsirləndirilən şəxs, onun müdafiəçisi, zərərçəkmiş şəxslərin və zərərçəkmişlərin hüquqi varislərinin bir qismi və onların nümayəndələri, dövlət ittihamını müdafiə edən prokurorlar, həmçinin Azərbaycan dövləti adından zərərçəkmiş qismində Nazirlər Kabineti Aparatının rəhbəri Rüfət Məmmədov iştirak edib.

Ötən il yanvarın 17-də başlamış və bir ildən çoxdur davam edən məhkəmə prosesində təqsirləndirilən şəxsin barəsində yekun məhkəmə qərarı (hökm) elan edilib.

Elan olunub ki, təqsirləndirilən şəxsə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 228.3-cü maddəsi ilə elan edilmiş ittihamlar həmin Məcəllənin 228.2.1-ci maddəsinə tövsif edilib.

Bundan başqa, irəli sürülmüş ittihamdan Cinayət Məcəlləsinin 279.1 və 279.2-ci maddələri rəqəmlə ifadədə xaric edilib.

Elan edilib ki, Vardanyan Ruben Karlenoviç Azərbaycan Respublikası Cinayət Məcəlləsində nəzərdə tutulan təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma, əhalini məcburi köçürmə, təqib, insanları zorakılıqla yoxa çıxarma, beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə, işgəncə, muzdluluq, müharibə qanunlarını və adətlərini pozma, silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma, qəsdən adam öldürmə, qanunsuz sahibkarlıq, terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, cinayətkar birlik (təşkilat) yaratma, qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, saxlama, daşıma və gəzdirmə, aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə, qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma, Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə cinayətlərini törətməkdə təqsirli bilinərək qəti olaraq 20 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilsin və cəzasının ilk 10 ilini həbsxanada, qalan hissəsini ciddi rejimli cəzaçəkmə müəssisəsində çəksin.

Xatırladaq ki, dövlət ittihamını müdafiə edən prokuror məhkəmə prosesində təqsirləndirilən şəxsin ömürlük azadlıqdan məhrumetmə cəzasına məhkum edilməsini məhkəmədən xahiş etmişdi.

***XQ***

# Rostovda azərbaycanlı miqrantları nələr gözləyir?

**Rusiyada miqrasiya qanunvericiliyinin sərtləşdirilməsi və əmək bazarında dövlət nəzarətinin gücləndirilməsi həyata keçirilir. Ölkədə işləyən və ya ora getməyə hazırlaşan milyonlarla miqrantı, eləcə də işəgötürənləri ciddi dəyişikliklər gözləyir. Əmək bazarında köhnə qaydaların yerini daha sərt nəzarət mexanizmləri və rəqəmsal izləmə sistemləri tutur.**

Diqqətçəkən qərarlardan biri Rostov vilayətində qəbul edilib. Regionun qubernatoru Yuri Slyusarın imzaladığı fərmana əsasən, 1 aprel – 31 dekabr 2026-cı il tarixlərində patent sistemi ilə çalışan xarici vətəndaşlara bir sıra sahələrdə işləmək qadağan olunub. Bu sahələrə kuryer xidməti, ərzaq, içki və tütün məhsullarının topdan və pərakəndə satışı, quru və boru kəməri nəqliyyatı, eləcə də poçt rabitəsi daxildir. Bundan əlavə, mart 1-dən etibarən patent əsasında çalışan xarici vətəndaşlara qiymətli metalların satışı və fitnes mərkəzlərində fəaliyyət də qadağan ediləcək. Bu qərar regionda xidmət və ticarət sektorunda çalışan minlərlə miqrantın fəaliyyətini məhdudlaşdıracaq. Oxşar məhdudiyyətlər Rusiyanın 32 regionunda tətbiq edilir. Qadağalar çatdırılma xidməti, taksi fəaliyyəti, ticarət və logistika kimi sahələri əhatə edir. Xüsusilə xidmət və logistika sektorunda çalışan miqrantlar üçün bu dəyişikliklər əmək bazarında rəqabətin artmasına və fəaliyyət sahələrinin məhdudlaşmasına səbəb olacaq.

Ümumiyyətlə, yeni qaydalar yalnız patent sistemi ilə işləyən xarici vətəndaşlara şamil olunur. Bu kateqoriyaya əsasən Azərbaycan, Moldova, Tacikistan və Özbəkistan vətəndaşları daxildir. Avrasiya İqtisadi İttifaqına üzv ölkələrin – Belarus, Qazaxıstan, Ermənistan və Qırğızıstan vətəndaşlarının isə patentsiz işləmək hüququ var və bu qadağalara məruz qalmırlar.

Rusiya mediası 2025-ci ildə Rostov vilayətinə miqrant axınının 5 faizdən çox artdığını qeyd edib. Regiona gələnlərin böyük hissəsi əmək miqrantlarıdır. Ekspertlər bu artımı qonşu regionlarda patent ödənişlərinin yüksəldilməsi ilə izah edirlər. Rostov vilayəti coğrafi baxımdan Cənub Federal Dairəsinin əsas iqtisadi mərkəzlərindən biri kimi əmək miqrasiyası üçün cəlbedici sayılır. Burada logistika, ticarət və xidmət sektorları inkişaf edib. Azərbaycan vətəndaşları da ənənəvi olaraq bu sahələrə üz tuturlar.

Rusiyada vergi sahəsində də dəyişikliklər müzakirə olunur. "Vedomosti" qəzetinin məlumatına görə, Maliyyə Nazirliyi miqrasiya və vergi qanunvericiliyinə sistemli dəyişikliklər paketi hazırlayıb. Təkliflərdən birinə əsasən, patentlə işləyən əmək miqrantlarının yetkinlik yaşına çatmayan uşaqlarına görə gəlir vergisi üzrə sabit ödəniş etmələri nəzərdə tutulur.

Mövzu ilə bağlı XQ-yə açıqlama verən **hüquqşünas Samir Osmanlının** sözlərinə görə, Rusiyada miqrasiya siyasətində müşahidə olunan sərtləşmə təkcə hüquqi dəyişiklik deyil, həm də əmək bazarının strukturuna və miqrantların fəaliyyət imkanlarına təsir göstərə biləcək genişmiqyaslı transformasiyanın başlanğıcıdır. Əlbəttə, bu, azərbaycanlı miqrantlara da təsir göstərəcək.

***(ardı 5-ci səhifədə)***

*Replika*

**Ermənistanın baş naziri Nikol Paşinyanın "Facebook" səhifəsindəki videoyayım zamanı dedikləri heç də yenilik deyil. O anlamda ki, Nikol əvvəllər də oxşar məzmunlu fikirlər səsləndirib. Amma bu dəfə baş nazirin hədəfi daha dəqiq nişan aldığını söyləmək mümkündür.**

# Paşinyan erməni tarixini yenidən öyrənir

## *O öz xalqını yaşamağa deyil, inkişafa çağırır*

Deməli, Paşinyan bildirib ki, hazırda Ermənistanın gündəliyi yaşamaq uğrunda mübarizə deyil, inkişaf gündəliyidir: "Ermənistan tarixi"nin üçüncü cildinin birinci kitabını oxuyub bitirdim və dərhal üçüncü cildin ikinci kitabına başladım. Erməni tarixinin dərslərini öyrənin. Əslində, mənim daim məşğul olduğum iş budur. Bu gün bizim yaşamaq yox, inkişaf gündəliyinə sahib olmağımızın səbəblərindən biri də məhz budur".

Bəli, Paşinyanın "Ermənistan tarixi" kitabını oxuduğunu bildirməsi və bu kitabı hər bir erməniyə məsləhət görməsi müsbət haldır. Hərçənd, söhbətin hansı Ermənistandan getdiyi maraqlıdır. Axı olmayan məmləkətin tarixinin mövcudluğu nonsensdir. Hər bir halda, hesab edək ki, Nikolun vərəqlədiyi kitab özündə erməni varlığının indiyədək keçdiyi yolu əks etdirir. Burada başlıca məqam baş nazirin "yaşamaq uğrunda mübarizə" tezisidir.




Məsələ ondadır ki, erməni varlığının "yaşamaq uğrunda mübarizə" gündəliyi qondarma mahiyyət daşıyır. Daha doğrusu, sözügedən gündəlik xaricin, yəni imperialist qüvvələrin bu varlıq üçün müəyyənləşdirdiyi aqibət, belə demək mümkünsə, alın yazısıdır. Diqqət yetirək, həmin qüvvələr, bir qayda olaraq, erməniləri döyüşkən millət kimi xarakterizə ediblər. İkincilər isə tərifdən çuşa gələrək, özlərini yüksək tutublar. Ancaq heç bir hayın ağlına nə üçün, nəyə görə və kiminlə döyüşməli olduğu gəlməyib. Ermənilər sorğu-sualsız özləri üçün yazılmış aqibətə boyun əyiblər. İndi Ermənistanda bu barədə söz açanların sayı çoxalıb. Söhbət, eyni zamanda, özünütənqiddən gedir. Məsələn, erməni bloger və jurnalist Roman Baqdasaryan tez-tez qondarma "erməni soyqırımı" haqqında danışanda bildirir ki, 1915-ci il hadisələrinə görə günahkar daşnaklardır.

R.Baqdasaryanın qəti fikri ondan ibarədir ki, hay qövmü daşnakların xaricdə hazırlanmış təxribat ssenariləri ilə təbəəsi olduğu Osmanlı imperiyası daxilində iğtişaşlar törədiblər və bunun adı xəyanətdir. Həqiqətən, ortaya maraqlı sual çıxır: O boyda Osmanlı niyə birdən-birə antierməni ovqatına köklənməli idi? Axı ermənilər Osmanlı Türkiyəsində hər zaman digər qeyri-müsəlman xalqlar kimi dinclik və əmin-amanlıq şəraitində yaşayıblar. Onlara "gözün üstə qaşın var" deyən olmayıb. Yəni ermənilərin ayrıca tutulması mümkün deyildi. Amma belə bir hal yaşandı və səbəbi odur ki, Baqdasaryanın diqqətə çatdırdığı daşnak amili ilə yanaşı, kilsənin də "rolu" vurğulanmalıdır. Bu iki amil Qərbin anti-Osmanlı xəttinin təxribat aləti funksiyasını yerinə yetirdi, Osmanlının müxtəlif bölgələrində qırğınlar törətdi və hətta dinc ermənilər də bu qırğınların hədəfinə çevrildilər. Belə bir şəraitdə Osmanlı dövləti hayları imperiyanın müxtəlif bölgələrinə köçürmək qərarına gəldi.

Köçürülmələr təxribatçı ermənilərin pərən-pərən salınması üçün idi. I Dünya müharibəsində iştirak edən dövlət özünə qarşı xain həmlələrini məhz belə zərərsizləşdirdi ki, onun bu addımı sonradan "erməni soyqırımı" adlandırıldı. Halbuki belə adlandırılma çox haqsızdır. Çünki ermənilər təbəəsi olduqları ölkənin tərkibində rahat ömür sürürdülər və onların yaşamaq uğrunda mübarizəyə heç bir ehtiyacları yox idi.

Bəli, ermənilər Azərbaycanın tərkibində də yaşayırdılar. Ancaq hayları 1830-cu ildən başlayaraq Qafqaza yerləşdirənlərin "planları" başqa idi. Yəni ermənilərin bölgənin türk-müsəlman əhalisinə qarşı qoyulması "ssenarisi" işə salınmış, belə bir ovqat yaradılmışdı ki, sanki müsəlmanlara qarşı mübarizə müqəddəsdir və bu müqəddəsliyin erməni dövləti adlı hədəfi var. O dövlət ki, ideoloji bazasında bir xalqın dövlətə çevrilməsi üçün tələb olunan hansısa cəhət və ya meyar yox idi. Heç şübhəsiz, Paşinyan oxuduğu kitabda bunları görüb. Görüb ki, hay qövmünü, belə demək mümkünsə, dövlətləndirənlərin nəzərindəki varlıq xətti yalnız mübarizəyə əsaslanır. Əvvəldə haqqında söz açdığımız ermənilərin döyüşkən, mərd olmalarına dair klişelər də bundan qaynaqlanıb. Əlbəttə, bu klişelərin rahat yaşamaqla heç bir əlaqəsi yoxdur. Həm də ona görə əlaqəsi yoxdur ki, ermənilərin "yaşamaq uğrunda mübarizələri" onlara inkişaf gətirməyib, əksinə, geriləmələrinə səbəb olub. Yəni Nikol gəldiyi qənaətdə haqlıdır.

Hazırda Ermənistan və erməni xalqı qarşısında rahat yaşamaq fürsəti yaranıb. Belə bir fürsət onlara tarixin heç bir dövründə verilməmişdi. Nə qədər qəribə səslənsə də, Ermənistana yaşayaraq inkişaf fürsətini verən məhz Azərbaycandır. Əgər ölkəmizin 44 günlük müharibədəki Zəfəri, lokal xarakterli antiterror tədbirlərinin uğuru olmasaydı, Paşinyan qarışıq bütün ermənilər hələ də inkişaf barədə düşünməzdilər.

Sonda onu da bildirək ki, Azərbaycan özünün qətiyyəti və prinsipiallığı ilə Ermənistana ayılmaq, reallığın və həqiqətin üzünə dik baxmaq şansı yaratdı. Bir anlıq təsəvvür edək ki, II Qarabağ müharibəsi Ermənistanın xeyrinə nəticələnib. Belə bir hal yaşansaydı, hayların Türkiyə ərazilərinə iddiaları şaxə qalxacaqdı. Yəni onlara rahat yaşamaq imkanı əsla verilməyəcəkdi.

İndi də tam mənada demək olmaz ki, ermənilər rahat yaşamaq arzusundadırlar. Daşnaklar ölkənin parlamentində hələ də təmsil olunurlarsa, deməli, inkişaf amalı cəmiyyətin alt qatında özünə yer tapmayıb. Hazırda ölkədə revanşist və şovinist baxışlar qalırsa, Ermənistan cəmiyyətin xam xəyallardan qurtulduğunu da söyləmək olmaz. Bütün bunlara görə Paşinyanın xalqı kitab oxumağa daha əzmlə çağırması vacibdir. Özü də ermənilər indiyədək gəldikləri yol barədə nəinki oxumalı, eyni zamanda, nəticə çıxarmalıdırlar. Nəticə çıxarmalıdır ki, kimlərsə onlara "yaşamaq dərsi" keçməsin, yeni sərsəm ssenarilər qondarmasın. Əks halda...

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Bərabərhüquqlu dünya nizamı uğrunda

## *Dekolonizasiya təşəbbüsləri və müasir çağırışlar*

**Dünya tarixində müstəmləkəçilik uzun əsrlər boyunca müxtəlif qitələrdə siyasi, iqtisadi və mədəni təsir mexanizmləri vasitəsilə insanların azadlığını məhdudlaşdırıb. Müstəmləkə siyasəti yürüdən dövlətlər ərazilərin resurslarını istismar etməklə yerli xalqların öz müqəddəratını təyin etmək hüququnu əngəlləmiş, beynəlxalq münasibətlərdə bərabərhüquqlu sistemin formalaşmasına mane olublar. Buna cavab olaraq XX əsrin ortalarından başlayaraq dekolonizasiya prosesləri tarixi ədalətsizliyin aradan qaldırılması istiqamətində mühüm addıma çevrildi. Lakin müasir dövrdə müstəmləkəçiliyin yeni formaları – neokolonializm hələ də dünya siyasətində öz təsirini göstərməkdədir.**




Birləşmiş Millətlər Təşkilatının (BMT) Dekolonizasiya üzrə Xüsusi Komitəsinin fevralın 16-da baş tutan sessiyasında səsləndirilən mesajlar bir daha göstərdi ki, dekolonizasiya məsələsi dünya miqyasında aktualdır və prosesin tam başa çatdırılması beynəlxalq ictimaiyyətin prioritetlərindən biri olaraq qalır. BMT-nin Baş katibi Antonio Quterreşin müraciətində qeyd edilib ki, təşkilatın yaranması zamanı əsas məqsəd dövlətlər arasında "idarə edənlər və tabe olanlar" sistemi olmayan bərabərhüquqlu münasibətlər yaratmaqdır. Hələ 1945-ci ildən etibarən dünya miqyasında 100-dən çox ölkə müstəqillik əldə edib, öz müqəddəratını təyin etmək hüququnu reallaşdırıb. Lakin müstəmləkəçiliyin təsirləri, o cümlədən iqtisadi bərabərsizlik, irqçilik və bəzi xalqların beynəlxalq qərarların qəbulunda məhdud iştirakı hələ də müşahidə olunur. Hazırda dünyada 17 ərazi özünüidarəetmə hüququndan istifadə edə bilmir və BMT bu ərazilərin gələcəyinin həmin ərazilərin nümayəndələri, idarə edən dövlətlər və quruma üzv dövlətlər arasında inklüziv dialoq yolu ilə müəyyən edilməsinin vacibliyini vurğulayır. Proses zamanı hər bir ərazinin xüsusi sosial, iqtisadi və ekoloji ehtiyacları nəzərə alınmalı, BMT Nizamnaməsi və Baş Assambleya qərarları çərçivəsində hərəkət edilməlidir.

Yeri gəlmişkən, neokolonializm əsasən iqtisadi və siyasi təsir vasitələri ilə zəif dövlətlərin suverenliyinə müdaxilə etməyi, onların resurslarını xarici maraqlara yönəltməyi və yerli inkişaf imkanlarını məhdudlaşdırmağı əhatə edir. Bu baxımdan, Azərbaycanın neokolonializmlə mübarizədə rolu xüsusilə diqqətçəkəndir. Ölkəmiz neokolonializmə sözügedən istiqamətdə həm regional, həm də qlobal səviyyədə fəal siyasət yürüdür. Bakı Təşəbbüs Qrupu (BTQ) dövlətimizin neokolonializmə qarşı mübarizədə mühüm rol oynayan platformalarından biridir. BTQ ölkənin beynəlxalq aləmdə mövqeyini gücləndirir, diplomatik təşəbbüslərlə xarici müdaxilələri neytrallaşdırır və regional inteqrasiya layihələrində milli maraqları qorumağa çalışır. Qrupun təşəbbüsləri arasında, beynəlxalq hüquq və suverenlik məsələlərinin qorunması üzrə strateji təşəbbüslər diqqət çəkir. Bu gün dekolonizasiya və neokolonializm mövzusu geosiyasi baxımdan aktuallığını qoruyur. BMT-nin çağırışlarına cavab olaraq ölkələr və beynəlxalq təşkilatlar inklüziv, ədalətli yanaşmaları inkişaf etdirməli, həmçinin öz müqəddəratını təyin edə bilməyən xalqların hüquqlarını müdafiə etməlidirlər. Azərbaycanın nümunəsi göstərir ki, milli diplomatiya, regional təşəbbüslər və beynəlxalq əməkdaşlıq vasitəsilə neokolonializmə qarşı mübarizə mümkündür. Öz müqəddəratını təyin etməyən xalqların qorunması və dəstəklənməsi həm yerli, həm də qlobal səviyyədə ədalətli sistemlərin formalaşması üçün vacibdir. Azərbaycan modeli və BTQ kimi təşəbbüslər bu yanaşmanın konkret nümunələridir, çünki onlar neokolonializmin həm iqtisadi, həm də siyasi aspektlərini neytrallaşdırmaqla milli və regional dayanıqlılığın təmin olunmasına xidmət edirlər.

Müasir dövrdə neokolonializm siyasətini davam etdirən ölkələrdən misal gətirsək Fransanın adı xüsusi vurğulanmalıdır. Rəsmi Parisin müstəmləkəçilik siyasətinə məruz qalan dövlətlərdə valyuta siyasəti və enerji resurslarına nəzarət mexanizmləri hələ də kolonial dövrdən miras qalan asılılığı qoruyur. Daha dəqiq desək, bu ərazilərdə milli siyasətə təsir edən çoxsaylı investisiya müqavilələri, Fransanın yerli hökumətlərlə strateji tərəfdaşlıq sazişləri və hərbi iştirakı dövlətlərin müstəqil qərarvermə imkanlarını məhdudlaşdırır. Eyni zamanda, Hollandiya kimi keçmiş kolonial dövlətlər də Karib və Cənub-Şərqi Asiya ölkələrində iqtisadi və diplomatik təsir vasitələri ilə neokolonializmi davam etdirir, qlobal bazarlara çıxış imkanlarını müəyyən dərəcədə öz xeyrinə yönəldirlər. BTQ bu ölkələrin keçmiş müstəmləkəçilik irsinin müasir təsir mexanizmlərini qabardır, həmin ərazilərdə yaşayan xalqların problemlərini beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmağa çalışır.

Qloballaşma prosesləri təbii olaraq inteqrasiyanı sürətləndirir, lakin bu milli kimliyin zəifləməsi bahasına baş verməməlidir. Hər bir xalqın dili, tarixi yaddaşı və mədəni irsi onun siyasi mövcudluğunun əsas dayaqlarından biridir. Əgər mədəni müxtəliflik qorunmursa, beynəlxalq sistemdə həqiqi plüralizm və bərabərlikdən danışmaq mümkün deyil. Ekoloji ədalət məsələsi də müasir diskussiyaların ayrılmaz hissəsinə çevrilib. İqlim dəyişikliklərinin nəticələri daha çox həssas regionlara təsir göstərir və bu regionların bir çoxu tarixən xarici asılılıq münasibətlərinə məruz qalmış ərazilərdir. Bu baxımdan, davamlı inkişaf prinsiplərinin həyata keçirilməsi, yaşıl texnologiyalara çıxışın genişləndirilməsi və iqlim maliyyələşdirilməsinin ədalətli bölüşdürülməsi dekolonizasiya gündəliyinin tərkib hissəsi kimi nəzərdən keçirilməlidir.

Müasir dövrdə beynəlxalq hüququn rolu xüsusi əhəmiyyət kəsb edir. Öz müqəddəratını təyinetmə prinsipi, suveren bərabərlik və daxili işlərə qarışmama kimi fundamental normalar praktikada tətbiq olunmalıdır. Əgər bu prinsiplər selektiv şəkildə şərh olunursa və ya geosiyasi maraqlara uyğun şəkildə tətbiq edilirsə, onda beynəlxalq sistemə olan inam zəifləyir. Bu isə çoxtərəfli əməkdaşlığın səmərəliliyini azaldır və qarşıdurma risklərini artırır. Belə bir şəraitdə dövlətlərin məsuliyyəti sadəcə öz milli maraqlarını müdafiə etməklə məhdudlaşmır. Eyni zamanda, daha ədalətli və balanslı qlobal sistemin qurulmasına töhfə vermək də vacibdir. Bu, diplomatik təşəbbüslər, beynəlxalq debatlarda fəal iştirak, alternativ inkişaf modellərinin təşviqi və hüquqi mexanizmlərin gücləndirilməsi vasitəsilə həyata keçirilə bilər. Siyasi iradə və strateji baxış olduqda, kiçik güclər də qlobal gündəlikdə təsirli rol oynaya bilirlər.

Sonda qeyd edək ki, dekolonizasiya məsələsinin gələcəyi, əslində, beynəlxalq sistemin hansı istiqamətdə inkişaf edəcəyindən asılıdır. Əgər bərabərhüquqlu tərəfdaşlıq modeli üstünlük qazanarsa, onda tarixi ədalətsizliklərin nəticələri mərhələli şəkildə aradan qaldırıla bilər. Əks halda, formal müstəqilliklə real asılılıq arasındakı ziddiyyət davam edəcək və yeni siyasi gərginliklər üçün zəmin yaranacaq.

***Nəzrin ELDARQIZI***
***XQ***

# Dünyanın yeni kəsərli Sülh Şurası




***(əvvəli 1-ci səhifədə)***

Dünya mediasının diqqəti hazırda Vaşinqtonda toplaşacaq liderlərə və elan ediləcək rəqəmlərə yönəlib. Amma pərdəarxası məqamlar daha böyük geosiyasi oyunlardan xəbər verir. Trampın sülh modelinin əsas özəlliyi onun səhmdar cəmiyyəti prinsipi ilə işləməsidir. Dünya liderləri şurada iştirak edir və çoxlu pul yatırırlar – fikri yeni diplomatiyanın düsturudur. Məlumata görə, Sülh Şurasında daimi üzvlük statusu qazanmaq üçün tələb olunan 1 milyard dollarlıq ianə və ya buna ekvivalent hərbi-humanitar töhfə dövlətləri real güc nümayişinə məcbur edir. Bu yanaşma beynəlxalq münasibətlərdə populizmin sonunu gətirir və konkret resurslara əsaslanan realpolitika dövrünü başladır. Azərbaycanın bu prosesdəki rolu məhz burada önə çıxır. Yanvarın 22-də Davosda Dünya İqtisadi Forumu çərçivəsində Sülh Şurasının nizamnaməsinin imzalanması mərasimində iştirak edən dövlətlər arasında Azərbaycanın olması təsadüfi deyil.

Qəzza zolağının bərpası prosesi Sülh Şurası üçün ilk sınaq meydanıdır. BMT-nin hesablamalarına görə, Qəzzada dağıntıların miqyası 50 milyon tondan artıq qalıqla ölçülür və bərpa üçün 70 milyard dollara yaxın vəsait lazımdır. Lakin illərdir davam edən müzakirələr və qətnamələr real nəticə verməyib. Trampın təşəbbüsü isə konkret vəsaitlərin toplanması və idarəetmə mexanizminin qurulmasını təmin edir. Qəzzanın İdarəçiliyi üzrə Texnokrat Milli Komitənin yaradılması və onun Sülh Şurasına tabe olması regionda idarəçiliyin siyasi qruplaşmalardan alınaraq peşəkar menecerlərə verilməsini nəzərdə tutur. Bu model uğur qazanarsa, gələcəkdə Ukrayna, Sudan və Yəmən kimi münaqişə ocaqlarında da tətbiq ediləcək.

Avropa İttifaqı daxilində Sülh Şurasına münasibətdə yaşanan çatlamalar yeni dünya nizamının çətinliklərini əks etdirir. İtaliyanın Macarıstan və Bolqarıstan kimi ölkələrin təşəbbüsə qoşulması, Avstriya və Belçika kimi ənənəvi avropalıların kənarda qalması Qərbin vahid blok kimi çıxış etmək qabiliyyətini itirdiyini göstərir. Bu isə Azərbaycan kimi müstəqil xarici siyasət yürüdən ölkələr üçün manevr imkanlarını genişləndirir. Rəsmi Bakı Sülh Şurasında yer almaqla öz milli maraqlarını qlobal səviyyədə müdafiə etmək üçün yeni platforma qazanır. Qoşulmama Hərəkatına sədrliyi dövründə qlobal Cənubun səsi olan Azərbaycan indi də yeni təhlükəsizlik arxitekturasının formalaşmasında aktiv iştirak edir.

* * *

Azərbaycanın xarici siyasətində bu yeni platformaya inteqrasiya xüsusi yer tutur. Prezident İlham Əliyev hər zaman beynəlxalq hüququn aliliyini və ikili standartların yolverilməzliyini vurğulayıb. BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icra edilməməsi və dövlətimizin ərazi bütövlüyünü öz gücünə bərpa etməsi təcrübəsi rəsmi Bakının beynəlxalq təşkilatlara yanaşmasını formalaşdırıb. Azərbaycan üçün Sülh Şurası real nəticələr verən mexanizmdir. Bu platforma vasitəsilə Azərbaycan Ermənistanla sülh prosesində öz mövqelərini möhkəmləndirmək imkanı qazanır. Əgər Sülh Şurası qlobal münaqişələrin həllində əsas arbitrə çevrilərsə, Cənubi Qafqazdakı proseslər bu qurumun diqqət mərkəzində ola bilər və burada Azərbaycanın təsisçi üzvlərdən biri kimi söz haqqı həlledici olacaq.

Fevralın 19-dan sonra dünyada baş verəcək prosesləri ehtimal edərkən bir neçə istiqaməti xüsusi qeyd etmək lazımdır. İlk növbədə, BMT-nin tədricən marginallaşması prosesi sürətlənəcək. Maliyyə axınlarının Sülh Şurasına yönəlməsi BMT agentliklərinin büdcə böhranı ilə üzləşməsinə səbəb ola bilər. İkincisi, ABŞ-ın qlobal liderliyi bərpa olunacaq, lakin bu dəfə fərqli formatda. Tramp Amerikanın polis rolunu oynadığı dünyadan baş direktor olduğu dünyaya keçid edir. Üçüncüsü, regional güclərin rolu artacaq. Sülh Şurasında iştirak edən Türkiyə, Səudiyyə Ərəbistanı, İndoneziya və Azərbaycan kimi ölkələr öz regionlarında sabitliyin təminatçısı qismində çıxış edəcəklər.

Beynəlxalq ekspertlər Sülh Şurasını XXI əsrin Müqəddəs İttifaqı adlandırırlar. Necə ki, 1815-ci ildə Vyana Konqresi Avropada yeni nizam yaratmışdı, bu gün də Vaşinqton görüşü qlobal miqyasda yeni oyun qaydalarını müəyyən edir. Bu qaydalar sadədir: sülh bahalı nemətdir və onun qorunması üçün hamı haqqını ödəmlidir. Artıq heç bir dövlət kənarda durub başqalarının hesabına təhlükəsizlikdən yararlana bilməyəcək. Bu yanaşma ədalətlidirmi? sualı mübahisə doğura bilər lakin onun işlək olduğu danılmazdır.

Sülh Şurasının Qəzzadan sonrakı hədəfləri arasında qlobal miqrasiya böhranının həlli, iqlim dəyişikliyi ilə mübarizədə daha praqmatik yanaşmaların tətbiqi və beynəlxalq terrorizmə qarşı vahid cəbhənin yaradılması yer alır. Bütün bu məsələlər illərdir BMT müstəvisində müzakirə olunsa da, real həllini tapmayıb. Sülh Şurası bürokratik prosedurları kənara qoyaraq birbaşa nəticəyə fokuslanacaq. Məsələn, miqrasiya probleminin həlli üçün miqrantların gəldiyi ölkələrdə iqtisadi layihələrin maliyyələşdirilməsi nəzərdə tutulur ki, bu da problemin kökünü aradan qaldırmağa yönəlib.

Fevralın 19-da Vaşinqtonda baş tutacaq tarixi toplantı yeni dünyanın doğum günüdür. Azərbaycanın bu prosesin mərkəzində olması ölkəmizin beynəlxalq nüfuzunun göstəricisidir. Qəzza xarabalıqları üzərində qurulacaq yeni nizam bütün dünya üçün ümid işığıdır. Trampın Sülh Şurası ənənəvi diplomatiyanın iflasa uğradığı bir vaxtda yeganə alternativ kimi görünür. Və bu alternativin uğurlu olması üçün Azərbaycan da daxil olmaqla bütün tərəfdaş ölkələr öz töhfəsini verməyə hazırdır. Sülh Şurasının "bütün dünyada sülh olacaq" vədi iddialı səslənsə də tarix sübut edib ki, böyük dəyişikliklər məhz cəsarətli addımlarla başlayır.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# Rostovda azərbaycanlı miqrantları nələr gözləyir?

***(əvvəli 4-cü səhifədə)***

Birincisi, Rusiyadakı azərbaycanlı miqrantların əksəriyyəti xidmət və ticarət sektorunda çalışır. Kuryerlik, pərakəndə satış və kiçik sahibkarlıq sahələri onların əsas məşğulluq sahələridir. Qadağaların məhz bu sektorları əhatə etməsi müəyyən sayda soydaşımızın iş yerini itirməsi və ya fəaliyyət sahəsini dəyişmək məcburiyyətində qalması ilə nəticələnəcək. Bu isə həm fərdi gəlirlərə, həm də Azərbaycana göndərilən pul köçürmələrinin həcminə təsir göstərəcək.

İkincisi, Rusiya mediasında qərarın əsaslandırılması "yerli əmək bazarının qorunması" və "Rusiya vətəndaşları üçün əlavə iş imkanlarının yaradılması" kimi təqdim olunur. Lakin iqtisadçıların bir qismi hesab edir ki, xidmət sektorunda işçi qüvvəsinə tələbat yüksək olaraq qalır və miqrantların qısa müddətdə yerli işçilərlə tam əvəzlənməsi real deyil. Çünki Rusiya vətəndaşları bu sahəyə o qədər də maraq göstərmirlər. Bu kontekstdə, əgər işçi çatışmazlığı yaranarsa, qərati, çatdırılma, kiçik marketlər və tütün satışı kimi sahələr son illər əsasən miqrant əməyinə söykənib. Əgər qadağa real icra mexanizmləri ilə ciddi tətbiq olunarsa, qısa müddətdə kəskin əmək çatışmazlığı yaranacaq. Bu isə 2 nəticəyə gətirib çıxara bilər: ya əməkhaqqı artacaq və yerli işçilər üçün bu sahələr daha cəlbedici olacaq, ya da biznes subyektləri xərclərin artması səbəbindən qiymətləri yüksəltməyə məcbur olacaqlar. Hər iki halda bazarda struktur dəyişikliyi qaçılmazdır.

İslahatın ən mühüm elementlərindən biri rəqəmsal nəzarətin gücləndirilməsidir. Yaxın illərdə Xarici İşçilərin Reyestri (XİR) və xaricdən işçi qəbul etmək niyyətində olan işəgötürənlərin vahid siyahısı formalaşdırılacaq. Bu, fərdi qaydada və ya tanışlıq əlaqələri ilə Rusiyaya gedib iş tapan həmvətənlərimiz üçün rəsmi müqaviləsiz fəaliyyət göstərməyi qeyri-mümkün edəcək. Hökumət hər il hər bir region üçün xarici işçi kvotasını müəyyən edəcək ki,



rın yumşaldılması və ya müəyyən sahələr üzrə yenidən nəzərdən keçirilməsi ehtimalı var.

Üçüncüsü, qərarın Avrasiya İqtisadi İttifaqına üzv ölkələrin vətəndaşlarına şamil edilməməsi regionda rəqabət mühitini dəyişəcək. Əslində, eyni sektorda çalışan azərbaycanlı vətəndaşla AİI üzvü olan ölkənin vətəndaşı arasında hüquqi status fərqi yaranır. Bu isə əmək bazarında qeyri-bərabər şərtlər formalaşdıra və Azərbaycan vətəndaşlarının mövqelərini zəiflədə bilər. Uzunmüddətli perspektivdə bu amil Azərbaycan–Rusiya əmək miqrasiyası münasibətlərinin yeni hüquqi mexanizmlərlə tənzimlənməsi məsələsini gündəmə gətirə bilər.

Burada bir amilə də diqqət etmək lazımdır. Rusiya mediasında həmçinin vurğulanıb ki, region rəhbərliyi biznes strukturlarına uyğunlaşma üçün müəyyən keçid müddəti verib. Bu müddət ərzində işəgötürənlər əmək münasibətlərini yenidən qurmalı, ehtiyac yaranarsa, yerli işçi qüvvəsi cəlb etməli və ya fəaliyyət istiqamətlərini dəyişməlidirlər. Təcrübə göstərir ki, bəzi regionlarda oxşar məhdudiyyətlər tətbiq edildikdən sonra iqtisadi çətinliklər səbəbindən qadağaların bir hissəsi geri götürülüb. Rostov vilayətində qəbul edilən qərarın real nəticələri onun davamlı olub-olmayacağını müəyyən edəcək.

**İqtisadçı Kamran Abdullayevin** rəyinə görə, məhdudiyyətlərin ən çox təsir göstərəcəyi sahələr xidmət və pərakəndə ticarət sektorudur: "Rostov vilayətinin timsalında tətbiq edilən kuryer xidməbu da azərbaycanlı miqrantların seçim imkanlarını məhdudlaşdıra bilər. İqtisadi baxımdan da yeni yükün yaranması gözlənilir. Hər bir əmək miqrantı üçün dövlət büdcəsinə aylıq 1,2 min rubl məbləğində vergi avansının ödənilməsi tələb olunacaq. Əgər miqrant ölkəyə ailə üzvlərini gətiribsə, bu ödənişlərin məbləği artacaq.

Belə olan halda, Azərbaycanın iqtisadi maraqları çərçivəsində əmək miqrasiyasının alternativ istiqamətlərinin araşdırılması aktuallaşır. Son illər ölkə daxilində məşğulluğun artırılması, kiçik və orta sahibkarlığın inkişafı, regionlarda yeni iş yerlərinin yaradılması istiqamətində həyata keçirilən proqramlar xaricdə işləyən vətəndaşların bir hissəsinin geri qayıdaraq yerli iqtisadiyyata inteqrasiyasına imkan yaradır".

Beləliklə, Rostov vilayətində tətbiq edilən məhdudiyyətlər regional səviyyədə qəbul edilsə də, onların təsiri daha geniş coğrafiyanı əhatə edir. Azərbaycan üçün əsas məsələ bu qərarın ölkə vətəndaşlarının məşğulluğuna və gəlir imkanlarına mümkün təsirinin minimallaşdırılması, hüquqi və diplomatik müstəvidə maraqların qorunması və alternativ iqtisadi imkanların genişləndirilməsidir. Bu qərarın regionda güclü mövqeyə sahib erməni lobbisinin təsiri ilə qəbul edildiyi ehtimalı da var.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Azərbaycan ziyalılığı və ziyalısı

## III MƏQALƏ

### Ziyalılıq məsuliyyəti və dünya

Azərbaycan ziyalılığının anlamı, şübhəsiz ki, fərdin idrakı keyfiyyətləri ilə sıx bağlıdır. Dünyada bu, ümumi qanundur. Çünki ziyalı olmaq gerçəklikdə həmişə ilk növbədə konkret fərdə aiddir. Əlbəttə, onun ümumi anlamı, yəni sosiallıq aspekti də çox əhəmiyyətlidir. "Sosiallıq" dedikdə ziyalı fərdlərin toplum miqyasında funksiyalarını yerinə yetirmələri ilə yanaşı, "kollektiv varlığın" məsuliyyətini daşımaq "hüququ"nu dərk etməsi də nəzərdə tutulur. Müasir Qərb tədqiqatçıları və institutları alim azadlığı (və ya sərbəstliyi) ilə yanaşı, həmişə "alimlik məsuliyyəti" məsələsini də önə çəkirlər. Onlar faktiki olaraq daim bir-biri ilə vəhdətdə təqdim edilir.



Bununla müasir dünyada ziyalı olmağın kriteriyalarında fərdi azadlıqla kollektiv qarşısında məsuliyyət bir-birini tamamlayır. Bəlkə də ilk baxışdan sadə və şübhə doğurmayan formuldur. Ancaq məsələnin əsas tərəfi fərd-ziyalının toplumda fəaliyyətinin praktiki qiymətləndirilməsi baxımından xeyli mürəkkəbliyi ilə bağlıdır. Bir nümunə gətirək.

İndi Qərb kimi intellektual inkişafı yüksək olan bir geosiyasi-mədəni məkanda "incimiş intellektlər" anlayışı yaranmışdır. Fransız sosioloq A.Turen bunu alimlərin informasiya əl çatanlığı ilə sosial sifariş arasında yaranmış ziddiyyətlə izah edir. Müasir Qərb cəmiyyətlərində ziyalıların elə təbəqəsi vardır ki, lazımi səviyyədə elmi informasiyalarla təmin olunmurlar. Ziyalı isə cəmiyyət qarşısında sosial və mənəvi məsuliyyət hiss edirsə, bu vəziyyətə etiraz edəcəkdir. Onlar cəmiyyət və dövlətin aktual problemlərinin həllində iştiraka can atdıqlarından müəyyən mənada "intellektləri inciyir". Bu da mahiyyətcə, ziyalılığın həm də kollektiv varlıq qarşısında (hətta bütövlükdə dünya, bəşəriyyət, Kosmos) bir "vəzifə" olması kimi təbii tələbata laqeydlik deməkdir.

Deməli, ziyalılığa münasibət insan və bəşər ekzistensiyasının çox dərin qatları ilə bağlıdır. Buradan ziyalılıq məsuliyyəti ilə yanaşı, ziyalıya verilən qiymət məsələsinin önəmi haqqında düşünmək olar.

Öncə, qəbul etmək gərəkdir ki, hər xalqın ziyalılığa və ziyalıya öz yanaşma fəlsəfəsi mövcuddur. Bu da konkret cəmiyyətdə toplumun özünüdərkində başqa dəyərlərlə yanaşı, ziyalılıq modelinin təməl xüsusiyyətlərini aydınlaşdırmağı aktuallaşdırır.

Bununla cəmiyyət özünüdərki intellekt, şüur, zəka aspektlərində reaktuallaşdırma kontekstinə daxil edə bilir. Belə cəmiyyətləri şərti olaraq "bilik cəmiyyətləri" və ya "bilik yaradan toplumlar" adlandıra bilərik. Onların həyatında fəlsəfə, elm, ədəbiyyat, folklorşünaslıq, tarix elmi müəyyənedici rol oynayırlar. Təkrar etmək istərdik – bu o zaman praktiki müsbət nəticə verən hadisə olur ki, cəmiyyət özünün ziyalılıq xüsusiyyətlərinin təməl özəlliklərini adekvat müəyyən edə bilsin.

Bu bağlılıqda Ulu öndər Heydər Əliyevin Azərbaycan ziyalılığı və ziyalısı haqqında söylədiyi fikirlər çox maraqlıdır.

### Ulu öndərin qiymətləndirməsi

Heydər Əliyev öyrədirdi: "Xalq həmişə öz ziyalıları ilə, öz mədəniyyəti, öz elmi ilə tanınır. Şübhəsiz ki, xalqın tarixində sərkərdələrin də, siyasətçilərin də böyük rolu var. Ancaq xalq həmişə mədəniyyəti ilə, elmi ilə tanınıb və keçmiş tariximiz də bunu sübut edir".

Birincisi, Heydər Əliyev hər bir xalqın kimliyinin hər şeydən öncə ziyalılıq, mədəniyyət və elmiliklə müəyyən edildiyini deyir. Bu xüsusiyyəti hətta sərkərdəlik və siyasətçilikdən də üstün tutur. Sübut üçün Azərbaycan xalqının keçmiş tarixini göstərir.

İkincisi, Ümummilli lider bütövlükdə topluma səsləniş edir: keçmişdə olduğu kimi indi də ziyalılığın Azərbaycan xalqının kimliyində aparıcı rol oynadığını unutmaq olmaz!

Sonuncu tezisi də əsaslandıran konkret fikri Heydər Əliyev ifadə etmişdir. Ulu öndər demişdir: "Azərbaycanın bugünkü mədəniyyəti dahi şəxsiyyətlərimizin yaratdığı və əsrlərdən-əsrlərə keçən mədəniyyətimizə, elmimizə, mənəviyyatımıza əsaslanır".

Başqa bir qiymətli deyimində Heydər Əliyev qövmün mentallığının ziyalılıqda ayrıca rolunu vurğulayır və bunu çox əhəmiyyətli məqam kimi aktuallaşdırır. Ümummilli lider ifadə etmişdir: "Azərbaycan xalqı inkişaf etmiş xalqdır. Azərbaycan xalqı öz köklərinə görə zehni inkişaf etmiş xalqdır. Biliyə, inkişafa həmişə diqqət vermiş və bu yol ilə getmiş xalqdır".

Bu ideya-tezisləri bir məntiqi sahəyə gətirib, vahid bucaq altında təsəvvür edə bilərik: Azərbaycan xalqı mental olaraq "zehni inkişaf etmiş" kollektiv mövcudatdır ki, bunu tariximiz, mədəniyyətimiz və mənəviyyatımız sübut edir!

Bir qədər də konkretləşdirsək, Ulu öndər öyrədir ki, tarixdə olduğu kimi, indiki dövrdə də ziyalılıq və ziyalı obrazı Azərbaycan cəmiyyəti üçün nümunəvi olmalıdır. Bu fikrin "ziyalılıq təməlini" faktların yaratdığı ümumi məntiqi mənzərə təşkil edir. Belə ki, "Bu da tam həqiqətdir ki, XX əsrdə Azərbaycan dünya mədəniyyətinə, dünya elminə böyük töhfələr vermişdir. Bizim böyük alimlər, yazıçılar, şairlər, memarlar, rəssamlar, bəstəkarlar, musiqiçilər həm Azərbaycan xalqının elmini, mədəniyyətini, təhsilini zənginləşdirmiş, həm də bütün dünya mədəniyyətinə, elminə böyük töhfələr vermişlər" (Heydər Əliyev). Və buradan Azərbaycan ziyalısı üçün hökm səviyyəsində olan məsuliyyət kriteriyası yaranır.

Həmin məqamı Ümummilli lider aşağıdakı kimi ifadə etmişdir: "Həm xalqımıza, həm də dünyaya nümayiş etdirək, sübut edək ki, xalqımız böyük istedada, elmi potensiala malikdir və bu nailiyyətlərimiz də dünya elminə özünə görə müəyyən töhfələr veribdir".

Aydındır ki, Heydər Əliyev qısa tezisləri ilə faktiki olaraq Azərbaycan ziyalılığının sosial funksiyaları kontekstində bütöv bir yanaşma sistemini ortaya qoymuşdur. Burada ziyalı sərbəstliyi ilə kollektiv mövcudolma fəlsəfəsindən qaynaqlanan məsuliyyət vəhdətdədir. Hətta Azərbaycanın bir qövm kimi varoluşunun ekzistensiyası səviyyəsində təqdimatdır!

İndi bu qiymətləndirmənin işığında hazırkı mərhələdə Azərbaycan ziyalılığı və ziyalısına olan münasibətlərə baxaq.

### Dövlətin münasibəti

Prezident İlham Əliyev Ulu öndərin Azərbaycan ziyalılığı və ziyalılarına olan yüksək fəzilətli münasibətini davam etdirir. Dövlət başçısının AMEA-nın 80 illik yubileyində nitqi zamanı ifadə etdiyi aşağıdakı fikirlər bu baxımdan əhəmiyyətlidir. İlham Əliyev demişdir: "Akademiya 80 il ərzində böyük yol keçmişdir, Azərbaycanda elmin inkişafında aparıcı rol oynamışdır. Bu illər ərzində biz müxtəlif ictimai-siyasi quruluşlarda yaşasaq da, Azərbaycan hər zaman öz elminin inkişafına böyük diqqət yetirirdi. Sirr deyil ki, Ulu öndər Heydər Əliyev hər zaman Azərbaycan alimlərini dəstəkləmək üçün öz səylərini əsirgəmirdi".

Fikirlərinə davam edərək, Azərbaycan lideri xüsusi vurğulamışdır: "Müstəqilliyin ilk illəri çox ağır idi, faciəvi idi. O vaxt məhz Heydər Əliyevin qətiyyəti, iradəsi, xalqa olan bağlılığı bizi böyük bəlalardan qurtara bilmişdir. O da çox böyük göstəricidir ki, onun hakimiyyətə qayıdışından sonra Azərbaycan ziyalıları ilə, Azərbaycan ictimaiyyəti ilə ilk görüşü məhz 1993-cü ildə Milli Elmlər Akademiyasında olmuşdur. Beləliklə, o, bir daha müstəqil Azərbaycanın, yəni yeniləşən Azərbaycanın prioritetlərini açıq şəkildə bəyan etmişdir".

Bundan 10 il öncə, 2015-ci ildə AMEA-nın 70 illik yubileyində Prezident İlham Əliyev Azərbaycan ziyalıları haqqında eyni ruhda fikir bildirmişdir. Dövlət başçısı demişdir: "Mən çox istəyirəm ki, Azərbaycan alimləri gələcəkdə də ölkəmizin hərtərəfli inkişafında daha fəal rol oynasınlar. Çünki ölkəmizin gələcəyi elmi potensialın səviyyəsi ilə bilavasitə bağlıdır. Hər bir ölkədə, o cümlədən Azərbaycanda inkişaf elmin səviyyəsi ilə bağlıdır. Bu gün yeni texnologiyalar əsridir. O ölkələr ki, bu texnologiyaların sahibidir, əlbəttə, onlar dünya miqyasında öz maraqlarını daha böyük dərəcədə müdafiə edə bilirlər".

Bunlardan başqa, Azərbaycan Prezidenti fəaliyyəti müddətində çoxlu sayda Azərbaycan elm və mədəniyyət xadimlərinin yubileylərinin təşkil edilməsinə ayrıca diqqət yetirmişdir. Bu istiqamətdə AMEA olduqca fəal mövqe tutur. Akademiyada Azərbaycanın görkəmli ziyalıları ilə bağlı tədbirlər və xüsusilə, yubileylər davamlı olaraq keçirilir.

### Cəmiyyətin və medianın münasibəti

Yuxarıda vurğuladığımız məqamlar fonunda bütövlükdə cəmiyyətin və ayrıca medianın Azərbaycan ziyalılığı və ziyalılarına münasibəti üzərində dayanmağa ehtiyac vardır. Bütövlükdə cəmiyyət və medianın əsas kəsimi Azərbaycan ziyalılarına sayğı və diqqəti saxlamaqdadırlar. Hətta cəmiyyət bu məsələyə müsbət anlamda daha həssas münasibət göstərir. İnsanlar dövlət və ölkə üçün aktual olan məsələlərin həllində ziyalıların üzərinə daha böyük yük və məsuliyyət düşdüyünü hər fürsətdə xatırladırlar. Yəni cəmiyyət tarixi ənənəyə uyğun ziyalıya yüksək hörmətin və onun başlıca sosial funksiyalarının saxlanmasını anlayır və təqdir edir. Bir çox KİV orqanlarında da Azərbaycan ziyalılığına sayğılı münasibət diqqətdən yayınmır. Bunlar çox müsbət əlamətlərdir.

Bunlarla yanaşı, üzərində ciddi düşünməli olduğumuz neqativ tendensiyalar da özünü göstərir. Müəyyən qruplar ölkənin ziyalı kəsiminin imicinə zərbə vurmağa çalışırlar. Məsələn, görkəmli Azərbaycan mütəfəkkirləri haqqında uydurmalar edərək onları xalqın gözündən salmağa cəhdlər göstərirlər. Nizami, Nəsimi, Füzuli, Məhsəti, Səməd Vurğun, Bəxtiyar Vahabzadə, Azərbaycan sənət adamları və digərləri ilə bağlı müşahidə etdiyimiz ədalətsiz, haqsız və qeyri-real cəhdlər özünü göstərir. Bunlar ziyalılığın "məhək daşlarından" saydığımız mənəvi-əxlaqi və psixoloji qiymətləndirmə ənənəsinə uyğun olmayan hallardır. Bununla bütövlükdə Azərbaycan ziyalılığını "saxta", "qeyri-səmimi" hal kimi qələmə verib, xalqın təməl dəyərlərinə qəsdlər etməyə çalışırlar.

Bu tendensiyanın fonunda son zamanlar bir sıra Azərbaycan ziyalısına, o cümlədən akademik dairələrdə seçilən elm adamlarına qarşı nümayişkaranə şəkildə şər-böhtan atmaq kampaniyasının şahidi oluruq. Özü də bir sıra hallarda, ümumiyyətlə, hər bir azərbaycanlı ailəsində yüksək davranış norması sayılan, tərbiyə, qanacaq və mərifət nümunəsi hesab edilən dəyərlərə qarşı qəsdlərə rast gəlirik. Məsələn, azərbaycanlı üçün böyüyə hörmət, alim və müəllimə dərin sayğı, onun qulluğunda hər zaman durmağa hazır olmaq gözlənilməsi vacib olan davranış standartlarındandır. Buna sübut lazım deyildir. Təəssüf ki, məhz bu kimi keyfiyyətləri cəmiyyətin gözündən salmağa yönəlmiş yazılara və davranışlara rast gəlinir.

Bütün bunlara isə ictimai mühitdən və müəyyən qurumlardan reaksiyalar özünü göstərmir. Məsələn, ziyalılara qarşı atılan şər-böhtan addımlara tutarlı cavabları ictimai fəallar, media ilə bağlı qurumlar niyə vermirlər? Minlərlə Azərbaycan ziyalısı (müəllimi və alimi) bu ölkə, dövlət və xalq üçün həyatını, intellektini "əridir" ki, bunu müdafiə etmək lazımdır. Axı, ziyalılığın ölkənin hər bir ailəsinə aidiyyatı vardır!

Elə bir ailə yoxdur ki, oradan ziyalı çıxmasın! Belə alınır ki, biz özümüz özümüzü müdafiə etmək istəmirik? Bəlkə, düşünürük ki, "məndən keçdi, qardaşıma dəydi" kimi zərərli məntiq daha üstündür? Yəni bu gün təhqiramiz ifadə mənə aid deyilsə, "nəyimə lazımdır, başımı ağrıdım?". Həyat bu kimi düşüncələrin ilk növbədə belə düşünənlərin düşməni olduğunu hər anında sübut edir!

Xüsusilə, sosial şəbəkələrdə baş girələyənlərin bir qisminin pafoslu, lakin çox qaba terminlərlə Azərbaycan ziyalısı haqqında postlar yazmasına mütləq rəsmi münasibət olmalıdır. Onlar indi ziyalını peşə keyfiyyətlərinə görə deyil, hətta fizioloji quruluşuna görə "qiymətləndirir", özlərinin zövqünə uyğun olmayan sifət quruluşunu açıqca təhqir edirlər!

Unutmayaq, kim əlinə qələm alırsa və ya kompüter klaviaturasını tanıyırsa, Azərbaycan ziyalısının zəhmətindən "xərcləyir" deməkdir. Bunu anlamayanların özləri nəinki ziyalı deyillər, hətta nankordurlar. Bunu biz demirik, Azərbaycan ziyalılıq nümunələrindən seçdiyimiz aşağıdakı faktların özü deyir.

...Əmir Teymur müəlliminin atının nalından qopan palçığın xələtinə düşməsini rəmzləşdirmiş, yəni xələti saxlamaq əmrini vermişdi.

Böyük aşıqlarımızdan olan Aşıq Ələsgər ustadı Aşıq Alıya xutabən "bir şəyird ki, ustadına kəm baxa, onun gözlərinə ağ damar-damar" demişdi. Halbuki Aşıq Alını deyişmədə məğlub etmişdi!

Hacı Zeynalabdin Tağıyev məzarının müəlliminin məzarının ayaq tərəfində qazılmasını vəsiyyət etmişdi...

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

**Azərbaycanda sosial siyasətin prioritet istiqamətləri, pensiya və müavinət artımları, eləcə də Böyük Qayıdış proqramı çərçivəsində sosial təminat mexanizmlərinin təkmilləşdirilməsi hazırda ictimai müzakirələrin əsas mövzularındandır. Dövlət büdcəsində sosialyönümlü xərclərin payı, indeksasiya qərarları və əmək qanunvericiliyində edilən son dəyişikliklər bu sahədə aparılan islahatların sistemli xarakter daşıdığını göstərir. Mövzu ilə bağlı suallarımızı Milli Məclisin deputatı, Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev cavablandırır.**

# Dövlətin aztəminatlı ailələrə qayğısı davamlıdır

## *Uğurlu sosial siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır*

**– Musa müəllim, dövlət büdcəsində sosial xərclərin artırılması sosial təminat sistemində hansı yeni imkanlar yaradır?**



– Prezident İlham Əliyev dəfələrlə vurğulayıb ki, Azərbaycan sosial dövlətdir və həyata keçirilən siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Dövlət büdcəsi tərtib olunarkən vətəndaşların sosial rifahı əsas prioritet kimi nəzərə alınır. Təsadüfi deyil ki, artıq ənənəvi olaraq hər il dövlət büdcəsinin təxminən 40 faizi sosialyönümlü layihələrin maliyyələşdirilməsinə yönəldilir. O cümlədən 2026-cı ilin dövlət büdcəsində də xərclərin 41,2 faizi və ya 17,1 milyard manatı sosialyönümlü sahələrə ayrılıb. Eyni zamanda, pensiyaçıların, müavinət və təqaüd alanların sosial müdafiəsinin təmin edilməsi məqsədilə Dövlət Sosial Müdafiə Fondunun büdcəsi 2026-cı ildə əvvəlki illə müqayisədə 10,4 faiz artırılaraq 8 milyard 440 milyon manata çatdırılıb. Bu isə pensiyaların davamlı, vaxtında və artımlarla ödənilməsinə imkan yaradır.

**– Pensiyaların indeksləşdirilməsi mexanizmi bu təbəqənin real gəlirlərinin qorunmasına necə xidmət edir?**

– Ötən il ölkədə orta aylıq əməkhaqqı 9,3 faiz artıb. Bununla əlaqədar olaraq Prezidentin imzaladığı son sərəncama əsasən, bütün pensiyaçıların pensiyalarının sığorta hissəsi 9,3 faiz indeksləşdirilərək artırılıb. Artımlar yanvarın 1-dən hesablanır. Yanvar ayına düşən fərq isə fevral ayında ödənilir və nəticədə vətəndaşlar artımı ikiqat şəkildə alacaqlar. Bu qərar təxminən 1,1 milyon pensiyaçını əhatə edir. Cari il üçün proqnozlaşdırılan illik inflyasiya səviyyəsi 5,6–6 faiz civarındadır. Pensiyalardakı 9,3 faizlik artım inflyasiyanı 40 faiz kimi əhəmiyyətli dərəcədə üstələyir ki, bu da pensiyaçıların real gəlirlərinin qorunmasına və sosial rifahının yaxşılaşmasına xidmət edir.



**– Minimum əməkhaqqı və yaşayış minimumuna il ərzində yenidən baxılması hansı zərurətdən irəli gəlir?**

– Dövlət başçısı aztəminatlı ailələrin sosial müdafiəsini daim diqqət mərkəzində saxlayır. Son illər pensiyalar, sosial müavinətlər və Prezident təqaüdləri mərhələli şəkildə artırılıb. Ötən il ölkədə V sosial islahat paketi icra olundu və nəticədə təxminən 3 milyon vətəndaşı əhatə edən artımlar həyata keçirildi. İl ərzində bu kimi artımlar digər sahələrdə də olacaq. Əmək qanunvericiliyində edilmiş dəyişikliklər sosial təminat sisteminin çevikliyini artırır. Qanuna əsasən, minimum əməkhaqqı və yaşayış minimumunun məbləğinə il ərzində bir dəfədən az olmayaraq yenidən baxıla bilər. Yenidən baxılması isə həmin vəsaitin artırılması deməkdir. Bu mexanizm zərurət yarandıqda il ərzində əlavə artımların edilməsinə hüquqi əsas yaradır. Bundan başqa, cari ildə həm yaşayış minimumu, həm də ünvanlı dövlət sosial yardımı üçün ehtiyac meyarının məbləği 300 manata çatdırılıb. Bu qərar aztəminatlı ailələrin sosial müdafiəsinin daha etibarlı təmin olunmasına xidmət edir.

**– Pensiya yaşı ilə bağlı yanaşmanın meyarı nədən ibarətdir? Bu yaş həddinin artırılması və ya azaldılması gözlənilirmi?**

– 2016-cı ildən etibarən pensiya yaşına mərhələli artım tətbiq olunur. 2023-cü ildə kişilər üçün pensiya yaşı 65-ə çatdırılıb. Bu ilin birinci yarısında qadınlar üçün də pensiya yaşı 65 olacaq. Qeyd edək ki, dünyanın bütün ölkələrində pensiya yaşının artırılması tendensiyası müşahidə olunur. Dünyanın heç bir yerində pensiya yaşının azaldılması istiqamətində addımlar atılmayıb. Orta ömür uzunluğunun artması və əmək qabiliyyətinin qorunması bu prosesi şərtləndirir. Hazırda ölkəmizdə pensiya yaşının nə artırılması, nə də azaldılması gündəmdədir. Azərbaycanın iqtisadi siyasəti, onun məntiqi davamı olan sosial siyasət kimi, dayanıqlı inkişaf konsepsiyasına əsaslanır. Sosial siyasət yalnız əməkhaqqı və pensiya artımları ilə məhdudlaşmır. Bu siyasət həm də infrastrukturun qurulması, yaşayış mühitinin yaxşılaşdırılması və vətəndaşlar üçün keyfiyyətli sosial xidmətlərin təmin olunmasını əhatə edir.

**– Böyük Qayıdış proqramı çərçivəsində Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən bərpa və quruculuq işləri uzunmüddətli sosial-iqtisadi inkişaf baxımından hansı perspektivlər vəd edir?**

– Hazırda dövlətin daxili siyasətində prioritet istiqamətlərdən biri Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sürətli bərpası və yenidən qurulmasıdır. Məcburi köçkünlərin doğma torpaqlarına qayıtması strateji məqsəd kimi müəyyən edilib, bu istiqamətdə sistemli tədbirlər həyata keçirilir. 2022-ci ildə "Azərbaycan Respublikasının işğalından azad edilmiş ərazilərinə Böyük Qayıdışa Dair I Dövlət Proqramı" qəbul olunub. Bu proqram 2026-cı ilin sonunadək qüvvədədir. Proqramda nəzərdə tutulan tədbirlərin icrası üçün indiyədək dövlət büdcəsindən 25 milyard manatdan artıq vəsait xərclənib. Hazırda Qarabağ və Şərqi Zəngəzurun, demək olar ki, bütün rayon və kəndlərində genişmiqyaslı tikinti-quruculuq və abadlıq işləri aparılır. 70 mindən çox vətəndaş həmin ərazilərə qayıdıb, orada yaşayır və çalışır. İlin sonunadək bu rəqəm 100 mini keçəcək. Əsas məqsəd qayıdan əhalinin daimi məskunlaşmasını təmin etməkdir. Bunun üçün müasir infrastrukturun yaradılması, yeni iş yerlərinin açılması, təhsil, səhiyyə, mədəniyyət və idman obyektlərinin qurulması prioritet istiqamətlərdir.

Kənd təsərrüfatının ənənəvi istiqamətləri ilə yanaşı, bölgənin turizm imkanları da genişdir. Mineral su ehtiyatlarının 40 faizdən çoxu Laçın və Kəlbəcər rayonları ərazilərində yerləşir. Bu resurslardan istifadə etməklə balneoloji və sanatoriya-kurort komplekslərinin yaradılması, regionun beynəlxalq turizm mərkəzinə çevrilməsi üçün real imkanlar mövcuddur və bu istiqamətdə işlər aparılır.

Təhsil infrastrukturu da paralel şəkildə inkişaf etdirilir. Qarabağ Universiteti artıq fəaliyyət göstərir və genişlənmə mərhələsindədir. Yaxın illərdə onun beynəlxalq səviyyəli ali təhsil müəssisəsinə çevrilməsi perspektivi var. Bununla yanaşı, Ağdam, Şuşa və Füzulidə kolleclərin, eləcə də digər ali təhsil müəssisələri və onların filiallarının yaradılması məsələsi də perspektiv istiqamət kimi qiymətləndirilə bilər.

Bütün bu tədbirlər göstərir ki, həyata keçirilən sosial siyasət yalnız cari sosial ödənişlərlə məhdudlaşmır, eyni zamanda, uzunmüddətli və dayanıqlı inkişaf modelinə əsaslanır.

***Söhbəti yazdı:***
***Tacir SADIQOV***
***XQ***

# İtaliya Azərbaycanın yatırımlarını dəstəkləyir

## *İnvestisiyalar 2,5 milyard avroya çatıb*

**Azərbaycan–İtaliya münasibətləri uzun illərdir ki, Azərbaycanın Avropa ilə əməkdaşlıq xəttində ən sabit və nəticəyönümlü tərəfdaşlıq modellərindən biri kimi çıxış edir. İki ölkə arasında siyasi dialoqun yüksək səviyyədə qurulması iqtisadi sahədə də ardıcıl inkişaf üçün möhkəm baza yaradıb. Xüsusilə enerji, investisiya, nəqliyyat-logistika və “yaşıl enerji” istiqamətlərində Azərbaycan–İtaliya əlaqələri inkişaf edir.**

İtaliya hazırda Azərbaycanın Avropada ən böyük ticarət tərəfdaşlarından biridir. Bu göstərici, ilk növbədə, enerji sahəsində qurulan strateji əməkdaşlıqla bağlıdır. Azərbaycanın Avropanın enerji təhlükəsizliyində rolunun artması fonunda İtaliya həm ən böyük alıcı bazarlarından biri, həm də Avropa bazarına çıxış üçün mühüm tranzit və paylayıcı mərkəz rolunu oynayır. Cənub Qaz Dəhlizi və TAP layihəsi çərçivəsində həyata keçirilən qaz tədarükü İtaliya üçün alternativ enerji mənbələrinin şaxələndirilməsi baxımından əhəmiyyət daşıyır.

Bununla yanaşı, iqtisadi əlaqələr yalnız enerji ixracından ibarət deyil. Son illərdə iki ölkə arasında qeyri-neft sahələrində əməkdaşlıq gündəliyi də genişlənir. İtaliya şirkətləri Azərbaycanda infrastruktur, tikinti, sənaye avadanlıqları, kənd təsərrüfatı texnologiyaları, emal sənayesi və xidmət sektorunda fəaliyyətini artırmağa maraq göstərir.



Azərbaycanın işğaldan azad edilmiş ərazilərdə həyata keçirdiyi bərpa və yenidənqurma proqramı da İtaliya biznesi üçün yeni əməkdaşlıq imkanları yaradan istiqamətlərdən biri kimi qiymətləndirilir. İtaliya şirkətləri işğaldan azad olunan ərazilərdə aktiv fəaliyyət göstərirlər. İtaliya şirkətlərinin gördüyü işlər miqyasına görə Türkiyə şirkətlərindən sonra ikinci yerdədir.

İki ölkə arasında iqtisadi əməkdaşlığın əsas göstəricilərindən biri də ticarət dövriyyəsidir. Dövlət Gömrük Komitəsinin məlumatına görə, ötən ilin yanvar–noyabr aylarında Azərbaycan və İtaliya arasında ticarət dövriyyəsi 11 milyard 242 milyon ABŞ dolları olub. Bunun 10 milyard 803 milyon ABŞ dollarını ixrac, qalan hissəsini isə idxal təşkil edib. Beləliklə, Azərbaycan–İtaliya ticarətində müsbət saldo formalaşıb.

Qeyd edək ki, bu günlərdə Romada keçirilən “Qafqazdan Aralıq dənizinə” adlı konfrans Azərbaycan–İtaliya iqtisadi gündəliyinin əsas istiqamətlərini bir daha gündəmə gətirib. Azərbaycanın İtaliyadakı səfiri Rəşad Aslanov bildirib ki, Azərbaycan İtaliya və Sloveniyanın “Yaşıl Enerji Dəhlizi” layihəsinə (“Black Sea Energy”) qoşulacağına ümid edir.

Səfirin sözlərinə görə, Azərbaycan əməkdaşlıq üçün getdikcə daha cəlbedici ölkəyə çevrilir və Avropanın Asiya, Çin və Mərkəzi Asiya ilə əlaqəsi qaçılmaz olaraq Azərbaycandan keçir. O qeyd edib ki, Azərbaycan infrastrukturu fəal şəkildə inkişaf etdirir və söhbət təkcə neft və qazdan getmir, həm də gələcəkdə Mərkəzi Asiyanı Xəzər dənizi, Azərbaycan, Gürcüstan, Qara dəniz vasitəsilə Rumıniya, Macarıstan, daha sonra isə ümid edildiyi kimi Sloveniya və İtaliya ilə birləşdirəcək elektrik kabeli layihəsindən gedir. Səfir vurğulayıb ki, bu, qiymətləndirilmədə İtaliyanın CESI şirkətinin iştirak etdiyi mühüm layihədir.

Xəzər–Qara dəniz–Avropa yaşıl dəhlizi layihəsi çərçivəsində birgə müəssisənin yaradılmasına dair Anlaşma Memorandumu 25 iyul 2023-cü ildə Gürcüstan, Macarıstan, Rumıniya və Azərbaycan arasında imzalanıb. Layihənin əsas komponentlərindən biri olan Qara dəniz sualtı kabeli Gürcüstan və Rumıniyanı birbaşa birləşdirəcək və Cənubi Qafqazla Cənub-Şərqi Avropanın enerji sistemlərini bir-birinə bağlayan ən iri infrastruktur təşəbbüslərindən biri kimi dəyərləndirilir.

Sualtı kabelin ümumi uzunluğunun 1155 kilometrdən çox olacağı, bunun 1115 kilometrinin suyun altında, 40 kilometrinin isə quruda yerləşəcəyi bildirilir. Layihə üzrə kabelin gərginliyi 525 kV, ötürmə gücü isə 1300 MVt səviyyəsində nəzərdə tutulur. Qara dəniz üzərindən çəkiləcək sualtı elektrik kabelinin tikintisinin 2032-ci ildə tamamlanması planlaşdırılır.

Azərbaycan–İtaliya iqtisadi münasibətlərinin digər əsas dayağı qarşılıqlı investisiyalarla bağlıdır. Azərbaycanın İtaliyaya investisiyalarının həcmi təxminən 2,5 milyard avro təşkil edir. Bu barədə də səfir Rəşad Aslanov həmin konfransda danışıb. Diplomat xatırladıb ki, ötən il Azərbaycan Dövlət Neft Fondu (ARDNF) İtaliyanın infrastruktur sektoruna investisiya yatırıb və bu, ilk belə addım olub.

Bundan əlavə, bərpaolunan enerji sektorunda ARDNF vasitəsilə İtaliyada layihələr həyata keçirən “Enfinity Global Inc.” şirkətinin təxminən 50 faizi əldə edilib. İnvestisiyalar hesabına Emiliya–Romanya və Latsio regionlarında ümumi gücü 400 MVt olan günəş elektrik stansiyaları tikilir.

Səfir Rəşad Aslanovun diqqət çəkdiyi əsas məqamlardan biri də ticarət əlaqələrinin miqyasıdır. Onun sözlərinə görə, bu gün İtaliya Azərbaycanın əsas ticarət tərəfdaşıdır: “Azərbaycanın ticarət dövriyyəsinin 65 faizi İtaliyanın payına düşür, bunun da 45 faizi enerji sektorudur. Hazırda Azərbaycan İtaliyanın bir nömrəli neft və iki nömrəli təbii qaz təchizatçısıdır. İtaliyanın qaza olan tələbatının 17 faizi Azərbaycandan edilən təchizat hesabına ödənilir”.

Eyni zamanda, səfir xatırladıb ki, 2026-cı ilin yanvarından İtaliya təkcə qaz qəbul edən ölkə deyil, həm də tranzit ölkəyə çevrilib: “Azərbaycan qazı Almaniya və Avstriyaya çatdırılmağa başlanıb. Bu, son 10 ildə görülən işlərə əlavə dəyər qatır”.

Tərəfdaşlığın iqtisadi mahiyyətinin genişlənməsi İtaliya tərəfinin yanaşmalarında da açıq şəkildə ifadə olunur. İtaliya-Azərbaycan Ticarət Palatasının prezidenti Manuela Traldi konfransda bildirib ki, İtaliya öz bazarında Azərbaycanın iştirakının gücləndirilməsinə və ikitərəfli investisiya əməkdaşlığının dərinləşdirilməsinə yönəlmiş bir sıra əməliyyatları dəstəkləmək niyyətindədir.

Manuela Traldinin sözlərinə görə, bu gün Azərbaycanın İtaliyadakı iştirakı ilə bağlı mühüm əməliyyatlar həyata keçirilir. O qeyd edib ki, söhbət enerji sektorundan başlayan, lakin onun hüdudlarından xeyli kənara çıxan investisiyalar və tərəfdaşlıqlardan gedir. Bu, həm Azərbaycan Dövlət Neft Fondunun mühüm investisiyaları, həm də Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) İtaliyanın ən böyük ilkin emal qruplarından birini əldə etməsi ilə bağlıdır.

Palata rəhbəri bu addımları münasibətlərdə “sürət dəyişikliyi”nin ilk, lakin artıq konkret siqnalları kimi qiymətləndirib və onların qaçılmaz olaraq ticarət mübadiləsinin artmasına səbəb olacağını vurğulayıb.

***Musa BAĞIRLI***
***XQ***

## Beynəlxalq şirkət ölkəmizdə iqtisadi artımın sürətlənəcəyini bəyan edib

**Ötən il Azərbaycan iqtisadiyyatında artım tempi zəifləsə də, 2026-cı ildə bu sahədə yenidən artım gözlənilir. Bu barədə beynəlxalq sığorta və aktivlərin idarə edilməsi şirkəti olan “Allianz Group” məlumat yayıb.**




Bildirilib ki, Azərbaycanın iqtisadi dinamikası 2024-cü ildəki 4,1 faizdən 2025-ci ildə, təxminən, 1,6 faizə qədər yavaşlayıb. Bununla belə, təbii qaz ixracının və qeyri-neft sektorunun genişlənməsi hesabına artımın 2026-cı ildə 2,6 faizə qədər yüksələcəyi proqnozlaşdırılır.

Qurumun məlumatına əsasən, 2025-ci ildə ölkədə inflyasiya 5,6 faizə yüksəlib. Bu artım isə, əsasən, ərzaq məhsulları və xidmətlər sektorunda qiymət artımları ilə bağlı olub. Bununla belə, inflyasiya hələ də Mərkəzi Bankın 4 faiz ±2 faiz bəndi hədəf diapazonu daxilində qalır. “Allianz” analitiklərinin fikrincə, manat güclü valyuta ehtiyatlarının dəstəyi ilə sabitliyini qoruyur. Lakin xarici risklər davam edir. Şirkət hesab edir ki, qlobal enerji qiymətlərində dəyişkənlik, ticarət pozuntuları və regional geosiyasi gərginliklər iqtisadi bərpanı zəiflədə bilər.

“Daxili tələbat əməkhaqqı artımının yavaşlaması və istehlakçıların ehtiyatlı davranışı səbəbindən məhdudlaşır. İnvestisiya artımı isə, xüsusilə karbohidrogen sektorunda, zəif olaraq qalır. 2026–2027-ci illər üzrə perspektivlər şaxələndirmənin sürətindən, qeyri-neft sektorlarının dayanıqlığından və qlobal əmtəə bazarlarında sabitliyin qorunmasından asılı olacaq”, – deyə hesabatda bildirilir.

## Qusarın elektrik təsərrüfatı yeniləşdirilir

**“Azərişıq” ASC Prezident İlham Əliyevin tapşırıqları əsasında ölkə ərazisində istismar müddətini başa vurmuş elektrik şəbəkəsinin yenidən qurulması, təmir-bərpa işlərinin aparılması istiqamətində mühüm tədbirlər həyata keçirir.**



Qurumdan XQ-yə verilən məlumata əsasən, Xaçmaz Regional Enerji Təchizatı və Satışı İdarəsi tərəfindən 14 kəndin elektrik şəbəkəsi tam yenilənib. Hazırda isə region üzrə 17 kənddə yenidənqurma işləri davam etdirilir.

İdarənin ərazisinə daxil olan Qusar rayonunda bir neçə kənddə təmir-bərpa işləri yekunlaşdırılıb. Yenidənqurma işləri nəticəsində 110/35/10 kilovoltluq “Qusar” yarımstansiyası ilə 35/10 kilovoltluq yarımstansiya arasında 35 kilovoltluq ikidövrəli xətt çəkilib. Bununla yanaşı, Yuxarı Tahircal kəndinin 10 kilovoltluq elektrik şəbəkəsi yenidən qurulub, 0.4 kilovoltluq xətlərdə cari təmir və yenidənqurma işləri aparılıb. Rayonun Əvəcük, Gündüzqala, Xürəl, Köhnə Xudat qazmalar kəndlərinin elektrik şəbəkəsi isə tamamilə yenilənib.

Cari ilin ilk günlərindən başlayaraq Şahdağ istiqamətində elektrik təsərrüfatında təmir-pərpa, sazlama işlərinə start verilib. Bu məqsədlə ərazidəki yararsız dayaqlar yenilənir, özünüdaşıyan izolyasiyalı naqillər çəkilir. Son günlərdə yağan güclü qar və şaxtalı hava şəraitinə baxmayaraq, idarənin əməkdaşları bu istiqamətdə işləri fasiləsiz olaraq davam etdirirlər. Hazırda Şahdağ istiqamətində Çubuqlu, Bədirqala, Langi, Aladaş, Laza və Əlix kəndlərində təmir-bərpa və yenidənqurma işləri aparılır. İşlər yekunlaşdıqdan sonra Qusarda həm mərkəz, həm də ətraf kəndlər daha keyfiyyətli və fasiləsiz elektrik enerjisi ilə təmin olunacaq.

Xatırladaq ki, “Azərişıq” ASC bütün regionlarda, həmçinin Qarabağ və Şərqi Zəngəzurda mərhələli şəkildə təmir-bərpa və yenidənqurma işlərini davam etdirir. Məqsəd abonentləri fasiləsiz və dayanıqlı elektrik enerjisi ilə təmin etməklə yanaşı, enerji itkisini minimuma endirməkdir.

## Meyvə və tərəvəz ixracı 5 faiz artıb

**2026-cı ilin yanvar ayında ölkədən 60 min 692,3 ton meyvə və tərəvəz ixrac edilib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 4,5 faiz çoxdur.**



Dövlət Gömrük Komitəsinin məlumatına görə, ixrac edilən meyvə və tərəvəzin dəyəri 31,7 faiz artaraq 79 milyon 688,9 min dollar olub.

Xatırladaq ki, 2025-ci ilin yanvar ayında isə Azərbaycandan 60 milyon 487,7 min dollar dəyərində, yəni 58 min 72,5 ton meyvə və tərəvəz ixrac edilib.

***XQ***

# “Əsrin müqaviləsi”nin “böyük neft” mərhələsi

## *Ötən müddətdə “Mərkəzi Azəri” platformasından 157 milyon ton neft çıxarılıb*

**21 il əvvəl, 2005-ci il fevralın 18-də “Azəri” yatağının mərkəzi hissəsində quraşdırılmış nəhəng, nadir platformanın istismara verilməsi ilə Azərbaycanın yeni neft strategiyası çərçivəsində böyük neft hasilatına başlanılıb. Həmin gün Azərbaycan Prezidenti İlham Əliyev yeni inşa olunmuş “Mərkəzi Azəri” hasilat, qazma və yaşayış platformasına gələrək AÇG-nin tammiqyaslı işlənməsinin başlandığını bildirən ilk neftin əldə olunması mərasimində iştirak edib. Bu, ölkəmizin yeni neft strategiyasının təməl daşı sayılan “Əsrin müqaviləsi”nin ilkin neft layihəsindən sonra əldə olunmuş möhtəşəm tarixi nailiyyət idi.**

Xəzərin Azərbaycan sektorunda yerləşən “Azəri-Çıraq-Günəşli” (AÇG) yataqlar blokunun işlənməsi müqavilə sahəsinin geniş bir ərazini əhatə etməsi, eləcə də buradakı zənginlik səbəbindən bir neçə mərhələyə bölünüb. Bu barədə qərar Azərbaycan hökuməti ilə beynəlxalq konsorsiumun iştirakçıları arasında əldə olunmuş razılaşmaya əsasən verilib. Belə bir qərarın qəbul edilməsinin digər mühüm səbəbi isə “Əsrin müqaviləsi” çərçivəsində nəzərdə tutulmuş böyük neft hasilatına başlananadək zəruri ixrac sisteminin yaradılması ilə bağlı olub.

XX əsrin nəhəng neft sazişinin uğurla reallaşdırıldığı “İlkin neft” layihəsi çərçivəsində Azərbaycan Dövlət Neft Şirkətinin (ARDNŞ) balansında olan bir sıra infrastruktur obyektlərində modernləşdirmə işləri həyata keçirilib. Bu mərhələdə “Dədə Qorqud” qazma qurğusu əsaslı şəkildə yenidən qurulub, 24 quyunun qazılması üçün nəzərdə tutulmuş “Çıraq” platforması istismara verilib. Buradan sahilədək 176 kilometr uzunluğunda sualtı neft kəməri çəkilib, Səngəçalda dünya səviyyəli terminal inşa olunaraq ilk neftin qəbulu və onu ixrac siteminə yönəltmək üçün hazır vəziyyətə gətiilib.

AÇG-nin işlənilməsi dövründə ən mürəkkəb və məsuliyyətli mərhələ sayılan “İlkin neft” layihəsi üzrə əldə olunmuş zəngin təcrübə sonralar “Azəri” yatağının və “Günəşli”nin dərinlikdə yerləşən hissəsinin də işlənməyə cəlb edilməsi üçün yol açıb. Beləliklə, 2001-ci il avqustun 30-da ABƏŞ-in Rəhbər Komitəsi “Azəri-Çıraq-Günəşli dəniz yataqlarının tammiqyaslı işlənilməsinin “Faza-1” layihəsini təsdiqləyib. Bununla bağlı müvafiq sənədi Azərbaycanın dövlət başçısı Heydər Əliyevin iştirakı ilə ARDNŞ prezidenti Natiq Əliyev və ABƏŞ-in rəhbəri Devid Vudvord imzalayıblar.

“Azəri” yatağının mərkəzi hissəsinin işlənilməsini nəzərdə tutan “Faza-1” layihəsi çərçivəsində, ilkin proqnozlara əsasən, 1 milyard 425 milyon barel və ya 193 milyon ton neftin hasilatı nəzərdə tutulub. Layihənin ümumi dəyəri 3,4 milyard dollar təşkil edib ki, bunun da 2,74 milyard dolları tikinti işlərinə, qalan hissəsi isə quyuların qazılmasına sərf olunub. Bununla yanaşı, xaricdən Bakıya gətirilən material və avadanlıqların daşınmasına, təqribən, 700 milyon dollar xərclənib.

“Faza-1” layihəsi çərçivəsində AÇG-dən gündəlik neft hasilatının 133 min bareldən 375 min barelə çatdırılması nəzərdə tutulurdu. Bu isə dənizdə və quruda nəhəng tikinti-quraşdırma işlərinin həyata keçirilməsini tələb edirdi. Bu məqsədlə 2001-ci il noyabrın 30-da Bakıda “Faza-1” layihəsinin həyata keçirilməsi çərçivəsində 5 xarici şirkətlə ümumi dəyəri 750 milyon dollar olan 6 böyük müqavilə imzalanıb. “Mərkəzi Azəri” platformasının üst modullarının tikintisi, eləcə də sualtı neft kəmərlərinin çəkilməsi ABŞ-ın “McDermott Caspian Constractors” şirkəti tərəfindən həyata keçirilib. Platformanın dayaq blokunun, svayların və qazma əməliyyatları üçün qurğunun dayaq plitəsinin tikintisi; dənizdə nəqletmə və quraşdırma işləri; qazma avadanlığı ilə təminat; yaşayış bloklarının inşası isə müvafiq olaraq Fransanın “Boygues Offshore”, İtaliyanın “Saipem”, Fransanın



“Eiffel” və İsveçin “Emtunqa İnternational” şirkətləri tərəfindən reallaşdırılıb.

“Faza-1” layihəsi çərçivəsində “Mərkəzi Azəri” platformasının dayaq bloklarının tikintisi və platformanın modullarının montaj edilməsi ARDNŞ-in “Şelflayihətikinti” İstehsalat Birliyinin (indiki Heydər Əliyev adına Dərin Özüllər Zavodu) meydançasında həyata keçirilib. Bununla yanaşı, layihə çərçivəsində dənizdə həyata keçirilən bir sıra əməliyyatlar zamanı ARDNŞ-in neft donanmasına aid olan borudüzən gəmilərdən, kran və barjalardan, həmçinin xidməti gəmilərdən istifadə edilib.

Xatırladaq ki, “Mərkəzi Azəri” platforması Bakıdan 100 kilometr şərqdə, Xəzərin 128 metr dərinliyində yerləşir. Platforma “Azəri” yatağının mərkəzi hissəsindən neft hasil etmək üçün inşa olunub. Bu unikal hasilat, qazma və yaşayış platforması ona körpü ilə birləşmiş texniki platforma olan kompressor və suvurma qurğusu ilə birlikdə Xəzərdə ən böyük dəniz komplekslərindən biridir. Sözügedən kompleks AÇG-dəki digər platformalara və qurğulara vacib əməliyyatlar mərkəzi kimi də xidmət göstərir və öz qabaqcıl texniki imkanları sayəsində bütün yataqda əməliyyatların təhlükəsiz və etibarlı aparılmasını təmin edir. Ümumilikdə isə, “Faza-1” layihəsinin obyektlərinə 48 quyu gövdəsinə malik hasilat, qazma və yaşayış platforması, buradan Səngəçal terminalına qədər 30 düymlük neft və 28 düymlük sualtı qaz boru kəmərləri, adıçəkilən terminalın genişləndirilməsi işləri daxildir.

“Azəri-Çıraq-Günəşli” yataqlar blokunun tammiqyaslı işlənmə layihəsinin birinci mərhələsi çərçivəsində tikinti-quraşdırma işləri 2004-cü ilin sonlarında başa çatdırılıb. Ötən müddətdə adıçəkilən platformadan 58 quyu qazılıb. Hazırda həmin quyuların 43-ü istismadadır. Bunlardan da 28-i neft hasilatı, 9-u qaz injektor və 5-i suvurma quyularıdır. 1 quyudan isə şlamların yenidən laya vurulması üçün istifadə olunur.

Ötən 21 il ərzində “Mərkəzi Azəri” platformasından 1,2 milyard bareldən çox və ya 157 milyon ton neft çıxarılıb. Burada illik maksimal neft hasilatı isə 2007-ci ildə qeydə alınıb. Həmin il platformadan orta gündəlik hasilat 244 min barel və ya illik 12 milyon ton olub. Sonrakı illərdə müqavilə sahəsində hasilatın aşağı düşməsi fonunda bu göstərici xeyli azalıb. “bp-Azərbaycan” şirkətinin məlumatına görə, 2025-ci ildə “Mərkəzi Azəri” platformasında bütün əməliyyatlara təhlükəsiz və etibarlı şəkildə davam etdirilib. Platforma il ərzində gündəlik 90 min barel orta hasilat göstəricisi ilə AÇG platformaları arasında liderliyini qoruyub saxlayıb. Bütövlükdə isə, “Azəri-Çıraq-Günəşli” yataqlar blokundan indiyədək hasil olunmuş neftin 25,2 faizi, səmt qazının isə 38,5 faizi məhz bu platformanın payına düşüb.

Hazırda “Mərkəzi Azəri” kompleksində 210-a yaxın işçi çalışır ki, onların da 96 faizi, platformanın növbəli çalışan iki rəhbərindən biri olan Cavid İsgəndərli də daxil olmaqla azərbaycanlı mütəxəssislərdir. Məhz onların səyi ilə dünya səviyyəli dəniz obyekti olan “Mərkəzi Azəri” platforması hələ uzun illər Azərbaycanın neft strategiyasına dəyərli töhfələr verəcək.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Qlobal Şəhərsalma Forumuna 3 ay qalır

## *Bakı yenidən dünyanın diqqət mərkəzinə çevriləcək*

**2026-cı ilin mayında Bakı dünyanı urbanizasiya, dayanıqlı şəhərsalma və həyat keyfiyyətinin artırılması mövzusunda fikir mübadiləsinə cəlb edəcək. Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası 17–22 may tarixlərində paytaxtımızda keçiriləcək.**




Azərbaycan Hökuməti və dövlət strukturları WUF13-ün yüksək səviyyədə keçirilməsi üçün səfərbər olublar. Artıq rəsmi hazırlıq mərhələsi uzun müddətdir ki, həm təşkilati, həm də logistik baxımdan davam edir. Bakı şəhəri bu qlobal platformaya ev sahibliyi etməyi strateji təşəbbüs kimi qəbul edib.

İlk növbədə təşkilati strukturun yaradılması bu prosesin əsas mərhələlərindən biri olub. Prezident İlham Əliyevin sərəncamı ilə WUF13-ün hazırlanması və idarə olunması üçün xüsusi Təşkilat Komitəsi təsis edilib və bu qurum bütün mərhələlər üzrə koordinasiyanı həyata keçirir.

Bu komitənin rəhbərliyi ilə beynəlxalq təşkilatlarla əməkdaşlıq gücləndirilib. Məsələn, forumun milli koordinatoru Anar Quliyev və BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) icraçı direktoru Anaklaudia Rossbax birgə görüşlər, brifinqlər və dialoqlar keçirərək forumun mövzusunu və əsas istiqamətlərini beynəlxalq ictimaiyyətə çatdırıblar.

Ümumiyyətlə, COP29 kimi beynəlxalq gündəmin mərkəzində dayanan mötəbər platformaya ev sahibliyi etməsi ölkəmizin təşkilati gücünün və diplomatik çəkisinin göstəricisidir. Belə tədbirlər dövlətin idarəetmə mədəniyyətini, çevik qərarvermə bacarığını və beynəlxalq standartlara uyğun fəaliyyət modelini nümayiş etdirir. Azərbaycan bu proseslərdə kənar müşahidəçi kimi yox, təşəbbüs irəli sürən, gündəm formalaşdıran tərəf kimi çıxış edir.

Bu baxımdan 2026-cı ilin mayında Bakıda keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası xüsusi əhəmiyyət daşıyır. Söhbət təkcə növbəti beynəlxalq tədbirdən getmir. Bu forum şəhərlərin gələcəyinin, urbanizasiyanın yeni mərhələsinin və dayanıqlı inkişaf modellərinin müzakirə olunduğu qlobal platformadır. Bakının bu prosesin mərkəzinə çevrilməsi Azərbaycanın beynəlxalq nüfuzunun məntiqi davamıdır.

Forum ölkəmiz üçün iki istiqamətdə mühüm imkan yaradır. Bir tərəfdən, son illər həyata keçirilən şəhərsalma layihələri, işğaldan azad edilmiş ərazilərdə qurulan “ağıllı şəhər” və “ağıllı kənd” konsepsiyaları, paytaxtda və regionlarda aparılan yenidənqurma işləri dünya auditoriyasına təqdim ediləcək. Digər tərəfdən isə Azərbaycan dayanıqlı urbanizasiya, müasir şəhər idarəçiliyi və sosial inklüzivlik mövzularında qlobal diskussiyalara töhfə verən tərəf kimi çıxış edəcək.

Forum günlərində dünyanın müxtəlif ölkələrindən minlərlə nümayəndənin Bakıya gəlməsi gözlənilir. Bu isə paytaxtın yalnız siyasi və iqtisadi mərkəz kimi deyil, həm də intellektual dialoq platforması kimi mövqeyini möhkəmləndirəcək. Şəhər bir neçə gün ərzində urbanistika ideyalarının, innovativ həllərin və yeni inkişaf yanaşmalarının toqquşduğu məkana çevriləcək.

Ümumdünya Şəhərsalma Forumunun Bakıda keçirilməsi həm də tarixi və müasirliyin vəhdətini simvolizə edir. Qədim İçərişəhərin daş yaddaşı ilə müasir memarlıq nümunələrinin bir arada mövcudluğu Azərbaycanın urbanistik kimliyini özündə əks etdirir. Bu tədbir vasitəsilə ölkəmiz göstərir ki, ənənəyə sədaqət və müasir texnologiyaların tətbiqi paralel şəkildə inkişaf edə bilər.

Təbii ki, belə miqyaslı forumun təşkili ciddi hazırlıq tələb edir. Xarici qonaqların qarşılanması, təhlükəsizlik tədbirləri, logistika zəncirinin qurulması, beynəlxalq media ilə koordinasiya – bütün bu proseslər vahid mexanizm kimi işləməlidir. Azərbaycan əvvəlki təcrübələrdə bunun öhdəsindən uğurla gəldiyini sübut edib. Bu dəfə də məqsəd yalnız tədbiri keçirmək deyil, onu nümunəvi səviyyədə təşkil etməkdir.

WUF13 başa çatdıqdan sonra belə, onun təsiri davam edəcək. Azərbaycan beynəlxalq tədbirlərə ev sahibliyi edən aparıcı mərkəzlərdən biri kimi mövqeyini daha da gücləndirəcək. Eyni zamanda, forum çərçivəsində qurulan əlaqələr, imzalanan əməkdaşlıq təşəbbüsləri və aparılan müzakirələr ölkənin urbanizasiya siyasətinə yeni impuls verəcək.

Bakı 2026-cı ilin mayında sadəcə bir forumun keçirildiyi şəhər olmayacaq. O, şəhərlərin gələcəyinin müzakirə olunduğu qlobal tribunaya çevriləcək. Azərbaycan isə bu tribunalda öz sözünü deyən, təşəbbüs göstərən və gələcəyin şəhər modelini formalaşdırmağa çalışan dövlət kimi çıxış edəcək.

### Əlaqələndirilmiş hazırlıq

Bakı Olimpiya Stadionu WUF13 üçün əsas məkan olaraq seçilib və burada tədbirə uyğun infrastruktur və məkan planlamaları aparılır. Bu stadionun logistika, konfrans zonaları, təqdimat sahələri və Urban Expo üçün uyğunlaşdırılması üzərində iş gedir.

Dövlət qurumları və turizm sektorunun aktorları ilə yerləşmə vasitələrinin nümayəndələri arasında görüşlər keçirilib. Bu görüşlərdə qonaqların rahat yerləşməsi, xidmət standartları və logistika məsələləri müzakirə olunub ki, tədbirdə iştirak edəcək qonaqlar üçün yüksək səviyyədə xidmət təmin edilsin.

Rəsmi sosial media hesabları və kommunikasiya platformaları da aktiv fəaliyyətə başlayıb, bununla da həm yerli, həm də beynəlxalq ictimaiyyət forumun gedişatı, proqramı və yenilikləri barədə məlumatlandırılır.

### Gənc enerji və könüllülük

Forumun bir başqa mühüm şərti geniş könüllü dəstək sisteminin qurulmasıdır. Forum üçün könüllü proqramı çərçivəsində 16 minədək müraciət daxil olub və bu müraciətlərin əsasında seçilən 2500 gənc könüllü üçün müsahibələr və təlim proqramları təşkil edilir. Bu könüllülər forum zamanı iştirakçıları qarşılayacaq, informasiya xidmətlərini dəstəkləyəcək və təşkilati proseslərdə fəal rol oynayacaqlar.

Bu təşəbbüs gənclər üçün yalnız fəaliyyətdə iştirak etmək deyil, həm də beynəlxalq təcrübə qazanmaq, müxtəlif ölkələrdən gələn iştirakçılarla ünsiyyət qurmaq və liderlik bacarıqlarını inkişaf etdirmək üçün bir fürsətdir.

Artıq 2025-ci ilin sonlarından etibarən görülən bu genişmiqyaslı hazırlıq tədbirləri forumun yüksək səviyyədə keçirilməsi üçün əsas zəmin yaradıb. Bu tədbir, həm də Azərbaycan üçün şəhərsalma sahəsində qlobal dialoqa qoşulmaq, təcrübə mübadiləsi aparmaq, eləcə də öz uğurlu şəhər layihələrini nümayiş etdirmək baxımından xüsusi əhəmiyyət daşıyır.

Azərbaycanın bu sahədəki hazırlıqları onu yalnız regional lider deyil, həm də dünya miqyasında urbanizasiya prosesində söz sahibi dövlətlərdən birinə çevirir. Dünya şəhərləri üçün yeni ideyalar, dayanıqlı inkişaf strategiyaları və innovativ yanaşmalar WUF13 vasitəsilə formalaşacaq və Bakı bu dialoqun mərkəzində dayanacaqdır.

***Nurlan ABDALOV***
***XQ***

# Paytaxtda “yaşıl” soyqırımı təmiz gələcəyə qənim kəsilib

## *Ümumi nəzarət və cərimələr niyə bu cinayətlərin qarşısını ala bilmir?*

**Son illər Bakı şəhərinin simasının dəyişməsi, burada müasir şəhərsalma prinsipləri əsasında tamamilə yeni yaşayış mühitinin formalaşdırılması və genişmiqyaslı yaşıllaşdırma tədbirlərinin həyata keçirilməsi ölkə siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib. Xüsusilə Prezident İlham Əliyev tərəfindən irəli sürülən təşəbbüslər nəticəsində paytaxtda yeni parklar salınıb, mövcud yaşıllıq zolaqları bərpa edilib, ictimai məkanlar sakinlərin istifadəsinə qaytarılıb.**

Lakin bütün bu müsbət proseslərin fonunda narahatedici hallar da müşahidə edilir. Ayrı-ayrı şəxslər tərəfindən qanunsuz ağac kəsilməsi, yaşıllıq sahələrinin dağıdılaraq yerində iaşə obyektlərinin, kommersiya tikililərinin və ya qeyri-qanuni parklanma zonalarının yaradılması kimi faktlar ictimai narazılığa səbəb olur. Bu hallar şəhər estetikası ilə bərabər, ekoloji təhlükəsizliyə də ciddi zərbə vurur.

### Özbaşınalıq, yoxsa sistemli cinayət?

Son dövrlər paytaxtda qanunsuz ağac kəsilməsi ilə bağlı narahatlıq doğuran faktlar göstərir ki, yaşıllıqların məhv edilməsi təsadüfi hadisə sayılmır. Məsələn, Nizami rayonunda aparılan tikinti işləri zamanı çoxsaylı ağacların “soyqırımı”na məruz qalması sakinlərin etirazına səbəb olub. Oxşar fakt “Ağ Şəhər” ərazisində də qeydə alınıb, məsələ ilə bağlı cinayət işi başlanılıb. Xətai rayonunun Əhmədli qəsəbəsində, Sarayevo küçəsində illər boyu formalaşmış yaşıllıq sahəsinin qısa müddətdə tamamilə məhv edilməsi isə xüsusilə ciddi narahatlıq doğurub.

Ağır texnika vasitəsilə ağaclar kökündən çıxarılıb və ərazi beton örtüklə əvəzlənib, bununla da şəhərin bu ərazisində “ağciyərlər” sıradan çıxarılıb. Sakinlərin narazılığı ondan ibarətdir ki, bu cür hallar sonradan daha çox kommersiya obyektlərinin tikintisi ilə nəticələnir. Bu isə yaşıllığın məqsədli şəkildə sıradan çıxarılması ehtimalını gücləndirir.

Yeri gəlmişkən, elmi araşdırmalara görə, bir hektar yaşıllıq sahəsi ildə 4,6–6,5 ton karbon qazını udur və 3,5–5 ton oksigen hasil edir. Orta ölçülü bir ağac gün ərzində 3 nəfərin nəfəs alması üçün lazımi oksigeni reallaşdırır. Böyük çətirə malik ağaclar ildə onlarla kiloqram toz və zərərli hissəcikləri udaraq havanı təmizləyir. Səs-küyün azaldılması, temperaturun tənzimlənməsi, şəhər mikroiqliminin qorunması baxımından da yaşıllıqlar əvəzsizdir. İqlim dəyişikliklərinin sürətləndiyi bir dövrdə şəhər mühitində hər bir ağac strateji önəm daşıyır.

Belə bir qiymətləndirməni nəzərə alan ekspertlərin fikrincə, qanunsuz ağac kəsilməsi halları zamanı təkcə inzibati cərimələrin tətbiq edilməsi ilə problemi aradan qaldırmaq çətindir. Çünki təcrübədə bəzi sahibkarlar üçün bu cərimələr tikinti xərclərinin bir hissəsi kimi əvvəlcədən hesablanır. Yəni hüquq pozuntusu iqtisadi baxımdan “riskli, amma sərfəli” əməliyyata çevrilir.

Ekoloq Sadiq Həsənovun sözlərinə görə, paytaxt yarı-quraq ərazi olduğundan burada ağacların əkilməsi, böyüməsi və oksigen təmin etməsi uzun müddət, eləcə də ciddi qayğı tələb edir. Şəhərdə müəyyən boya çatmış ağacların kəsilməsi oksigen mühitinə mənfi təsir göstərir və havanın keyfiyyətini pisləşdirir.

Bakının Nizami və Xətai rayonlarında nəqliyyatın intensivliyi və havanın daha çox çirklənməsi nəzərə alınarsa, bu ərazilərdə yaşıllıq sahələrinin qorunması daha çox zəruridir. Bu səbəbdən Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən ağacların qorunmasına ciddi şəkildə nəzarət olunmalıdır. Azərbaycan qanunvericiliyinə görə, ağacların kəsilməsinə görə, fiziki şəxslər 600-800 manat, hüquqi şəxslər isə 4 min–5 min manat səviyyəsində cərimə olunur.

Düzdür, adıçəkilən nazirlik son vaxtlar Bakı və ətraf rayonların bir çox ərazilərdə ağacların pasportlaşdırılmasını həyata keçirib və bu ağacların kəsilməsi üçün mütləq ekspertiza departamentindən icazə alınması qanuniləşdirilib. Lakin bəzi hallarda, məsələn, bu yaxınlarda Nizami rayonunun Çobanzadə küçəsində yerləşən “Orbita” MTK yaşayış binasının ərazisində ağacların kəsilməsi, qanunvericilik və ekspertiza prosedurlarına əməl olunub-olunmaması baxımından ciddi yoxlanılmalıdır. Əgər qayda pozuntusu aşkar edilərsə, mütləq inzibati cəzalar tətbiq olunmalıdır.

Əksər ekspertlər tərəfindən bu və digər səbəblərdən qanunsuz ağac kəsilməsi zamanı cinayət məsuliyyəti mexanizmlərinin daha sərt tətbiq edilməsi zəruri sayılır. Onların fikrincə, əgər yaşıllıq sahəsinə dəymiş zərər böyük məbləğlə hesablanarsa, bu, sadəcə, inzibati xəta kimi yox, ictimai təhlükəli əməl kimi qiymətləndirilməlidir.

### *Ekspert rəyi*



**Bəxtiyar HÜSEYNOV, ekoloq**

Bakıda müxtəlif şəxslər tərəfindən ağacların qanunsuz şəkildə məhv edilərək yerində iaşə və digər xidmət obyektlərinin tikilməsi və ya parklanma yerləri salınaraq qeyri-qanuni şəkildə gəlir əldə edilməsi ciddi narahatlıq doğurur. Dövlət Ekoloji Təhlükəsizlik Xidmətinin əməkdaşları tərəfindən həmin sahələrdə vaxtaşırı nəzarət tədbirləri həyata keçirilir, yaşıllıqların qanunsuz kəsilməsi faktları aşkar olunur. Hər bir fakt üzrə yaşıllıqlara dəymiş ziyanın məbləği cinayət tərkibi yaratdığından məsələyə hüquqi qiymət verilməsi üçün toplanmış materiallar hüquq-mühafizə orqanlarına göndərilir.

Ağacların qanunsuz kəsilməsi və yaşıllıq zolaqlarının məhv edilməsi lokal hadisə kimi təqdim edilsə də, əslində, söhbət sistemli tendensiyadan gedir. “Yaşıl” soyqırımı ifadəsi emosional səslənsə də, meşələrin və şəhər yaşıllıqlarının məqsədli şəkildə sıradan çıxarılması artıq sosial-iqtisadi təhlükəsizlik məsələsi olaraq qəbul edilir. Çünki ekoloji balansın pozulması yalnız təbiətin itkisi deyil, bu, eyni zamanda, iqtisadi dəyərin azalması, ictimai sağlamlıq risklərinin artması və gələcək nəsillərin hüquqlarının məhdudlaşdırılması deməkdir.

Ağacların kütləvi kəsilməsi iqlim dəyişikliklərini sürətləndirir, torpaq eroziyasını artırır, su ehtiyatlarını azaldır, biomüxtəlifliyi məhv edir, şəhərlərdə istilik adası effektini gücləndirir, eləcə də insan sağlamlığına mənfi təsir göstərir. Bəs yaranmış belə bir vəziyyətin qarşısı necə alınmalıdır?

Bu problemin həlli yalnız cərimə mexanizmi ilə mümkün deyil, bu məsələdə sistemli yanaşma tələb olunur. İlk növbədə, rəqəmsal nəzarət sistemləri yaradılmalıdır. Cinayət məsuliyyətinin sərtləşdirilməsi də diqqət mərkəzində saxlanılımalı, inzibati cərimələrlə yanaşı, ağırlaşdırılmış cinayət məsuliyyəti tətbiq edilməlidir. Ekoloji cinayətlər iqtisadi cinayət kateqoriyasına daxil edilməli və gəlir müsadirəsi mexanizmi tətbiq olunmalıdır.

Ekoloji hüquqpozmalar ayrıca iqtisadi cinayət kateqoriyası kimi təsnif olunmalıdır. Xüsusilə Qanunsuz ağac kəsiminə görə yalnız cərimə yox, azadlıqdan məhrumetmə sanksiyası tətbiq olunmalıdır, qanunsuz tikinti məqsədilə kəsilən ağaclara görə obyektin istismarına qadağa mexanizmi yaradılmalıdır, ekoloji zərərin məbləği bazar qiyməti ilə deyil, ekosistem xidmətlərinin dəyəri ilə hesablanmalıdır.

Kəsilən hər ağacın əvəzlənməsi mexanizmi formal xarakter daşımamalıdır. Bu məqsədlə mərkəzləşdirilmiş ekoloji kompensasiya fondu yaradılmalı, fond vəsaitlərinin istifadəsi ictimai auditdən keçməli, əvəzləyici əkilmə işləri üçün minimum 3-5 illik monitorinq öhdəliyi tətbiq edilməlidir. Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən meşə fondunun tam elektron xəritəsi hazırlanmalı, hər ağac kəsimi üçün QR-kodlu icazə sistemi tətbiq olunmalı, qanunsuz kəsim faktları üzrə açıq onlayn reyestr yaradılmalıdır.

Bütün bunlarla bərabər, ekoloji məhkəmələrin yaradılması, tikinti icazələrinin məcburi ekoloji auditdən keçirilməsi, bələdiyyələrin məsuliyyətinin artırılması, şəhərsalma planlarında minimum yaşıllıq normativlərinin sərtləşdirilməsi və ekoloji cinayətlərin ictimaiyyətə açıqlanması mexanizmi qurulmalıdır.

Xatırladaq ki, Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva tərəfindən yaşıllıqların qorunması və ağac əkilməsi istiqamətində irimiqyaslı layihələr həyata keçirirlər. Dövlət başçısı çıxışlarının birində açıq şəkildə bildirib: “Aidiyyəti qurumlar təklif versinlər, biz ağacları kəsənlərə qarşı daha da ciddi tədbir görməliyik. Onlar məsuliyyətə cəlb edilməlidir. Bir daha demək istəyirəm ki, şəhərdə bir dənə də olsun ağac Ekologiya və Təbii Sərvətlər Nazirliyinin icazəsi, rəyi olmadan kəsilə bilməz”. Bu mövqe dövlət siyasətinin qətiyyətini göstərir.

Bundan başqa, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, eləcə də digər müvafiq qurumlar tərəfindən meşə fondunun tam rəqəmsal xəritələşdirilməsi, süni intellekt əsaslı monitorinqlərin keçirilməsi, bələdiyyə və icra strukturlarının məsuliyyətinin artırılması, tikinti icazələri ilə bağlı ekoloji ekspertizanın sərtləşdirilməsi qarşıya mühüm vəzifələr kimi qoyulmalıdır.

Yuxarıda sadalananlarla yanaşı, şəffaf torpaq reyestri yaradılmalı, torpaq mülkiyyəti və təyinatı üzrə məlumat bazası açıq olmalıdır. Bu, saxta sənədləşmənin qarşısını alır. Ekoloji QHT-lərin və medianın rolu artırılmalıdır. Skandinaviya ölkələrində ictimai məlumatlandırma mexanizmləri qanunsuz kəsim hallarının aşkarlanmasında ciddi rol oynayır. Yaşıllıq kompensasiyası mexanizmi yaradılmalıdır. Bir ağac kəsilirsə, əvəzində neçə ağac əkilməsi qanunla dəqiq müəyyənləşdirilməlidir və bu proses müstəqil auditdən keçməlidir. Bir sözlə, ağac kəsimi məsələsi sadəcə ekoloji problem deyil, bu, sosial ədalət, iqtisadi dayanıqlılıq və gələcək nəsillərin hüquqları məsələsidir. “Yaşıl” soyqırımı anlayışı emosional görünə bilər, amma meşələrin sistemli məhvi, həqiqətən, milli təhlükəsizlik səviyyəsində qiymətləndirilməlidir.



### Avtomobillər çoxalır, yaşıllıqlar azalır

Bakıda avtomobillərin sayının getdikcə artması əlavə ekoloji təzyiq yaradır. Minlərlə nəqliyyat vasitəsinin yaratdığı karbon oksid emissiyası onsuz da ağır olan şəhər mühitini yükləyir. Monitorinqlər göstərir ki, intensiv nəqliyyat axını müşahidə edilən ərazilərdə havada zərərli qazların miqdarı parkların içərisinə nisbətən dəfələrlə yüksək olur. Yaşıllıq sahələrinin parklanma yerlərinə çevrilməsi ilə problemi daha da dərinləşir. Bu, bir tərəfdən qeyri-qanuni gəlir mənbəyinə çevrilir, digər tərəfdən isə şəhərin ekoloji balansını pozur.

Problemin kökündə hüquqi boşluqlarla bərabər, həm də ekoloji şüurun yetərincə formalaşmaması dayanır. Çünki təbiətə münasibət yalnız qanunla deyil, həm də əxlaqi norma ilə tənzimlənməlidir. Ona görə də ekoloji təhsil də məktəb səviyyəsindən başlayaraq davamlı şəkildə inkişaf etdirilməli, media vasitəsilə maarifləndirmə işi gücləndirilməlidir. Cəmiyyət ağacı sadəcə landşaft elementi kimi deyil, eyni zamanda, canlı ekosistemin ayrılmaz hissəsi kimi qəbul etməlidir.

Bəs strateji yanaşma nəyi tələb edir? Ekspertlər bu suala cavablarında isə bildirirlər ki, qanunsuz ağac kəsilməsinə görə cinayət məsuliyyəti sərtləşdirilməlidir. Zərərin ödənilməsi ilə yanaşı, bərpaedici mexanizmlərin tətbiqi (kəsilən hər ağaca görə çoxsaylı yeni ağac əkilməsi), şəffaf monitorinq və ictimai nəzarət mexanizmlərinin genişləndirilməsi, alternativ nəqliyyat vasitələrinin – velosiped, elektrik skuterləri və ictimai nəqliyyatın təşviqi, nəhayət, yaşıllıq sahələrinin statusunun dəyişdirilməsinə ciddi məhdudiyyətlərin tətbiqi gücləndirilməlidir.

Qeyd edək ki, bu gün Bakı artıq regional deyil, qlobal miqyasda tanınan şəhərdir. Buna görə də paytaxtın memarlıq siması, mədəni mühiti və urbanistik inkişafı ilə yanaşı, ekoloji balansı da qorunmalıdır. Yaşıllıqları məhv edən hər bir şəxs isə təkcə bir neçə ağacı yox, gələcək nəsillərin sağlamlığını riskə atır. Bu baxımdan, məsələ inzibati cərimə çərçivəsində deyil, ictimai təhlükəsizlik və milli maraq kontekstində qiymətləndirilməlidir.

Bakını gözəlləşdirmək dövlət siyasətinin prioritetidir. Bu gözəlliyi, eləcə də tarixiliyi qorumaq, müasirliyi inkişaf etdirmək isə hər birimizin vətəndaşlıq borcudur. Lakin bilərəkdən və məqsədli şəkildə yaşıllıqlara qəsd edənlər üçün hüquqi məsuliyyət daha sərt və prinsipial olmalıdır. Əks halda, bir neçə şəxsin qısa müddətli kommersiya maraqları bütöv şəhərin uzunmüddətli ekoloji təhlükəsizliyindən üstün tutulmuş olar. Bu isə nə hüquqi, nə də mənəvi baxımdan qəbul edilə bilər.

***Vaqif BAYRAMOV***
***XQ***

I Ümumittifaq Türkoloji Qurultay

# 100 il sonra “danışan” məxfi sənədlər

## Arxiv materiallarının xronoloji transkripsiyası, seçmə tərcümələr və şərhlər

**Azərbaycan Xalq Cümhuriyyətinin arxiv işi sahəsində təşəbbüsləri 1920-ci ilin aprel ayında Azərbaycanın XI qızıl ordu tərəfindən işğalı ilə yarımçıq qalır. Lakin qısa müddət sonra – 1920-ci ilin may ayında Azərbaycan Sovet Respublikasının Xalq Maarif Komissarlığının abidələrin mühafizəsi şöbəsi tərəfindən arxiv işi haqqında xüsusi layihənin hazırlanması qərara alınır. Azərbaycan İnqilab Komitəsinin Rəyasət Heyətinə təqdim olunmuş “Vahid dövlət arxiv fondunun yaradılması və Xalq Maarif Komissarlığı yanında Mərkəzi Dövlət Arxivinin təşkili haqqında” həmin layihə 6 dekabr 1920-ci il tarixli iclasda müzakirəyə çıxarılır və təsdiq olunur.**

**1921-ci il avqustun 29-da AK(b)P MK Siyasi və Təşkilat Bürosu tərəfindən Mərkəzi Dövlət Arxivi bazasında Azərbaycan Kommunist Partiyası tarixinə dair materialların toplanması məqsədilə Komissiyanın – Azərbaycan Partiya Tarixi Bürosunun yaradılması qərara alınır. AK(b)P MK-nın 8 may 1925-ci il tarixli Qərarı ilə Büro kollegiyasının tərkibi dəyişdirilir. Həmin Qərarın “b” bəndinə əsasən Azərbaycan Partiya Tarixi Bürosu mövcud arxivi uçota almalı və onun mühafizəsini təmin etməli idi. Azərbaycan İnqilab Komitəsinin sədri Nəriman Nərimanov tərəfindən imzalanmış 8 bənddən ibarət Dekretə müvafiq olaraq Azərbaycan ərazisində baş vermiş tarixi, ictimai hadisələrə aid sənədlərin, habelə fəaliyyətdə olan idarə və müəssisələrin, ictimai təşkilatların arxivləri Vahid dövlət arxiv fondunun tərkibinə daxil edilməli, dövlət idarələrinin yazışmalar da daxil olmaqla, kargüzarlıq işləri və müxtəlif dövlət müəssisələri, ictimai təşkilatlara aid köhnə materiallar Mərkəzi Dövlət Arxivinə təhvil verilməli, həmçinin, məxfi olmayan sənədlər Azərbaycan Dövlət Nəşriyyatı tərəfindən müntəzəm olaraq nəşr olunmalı idi.**

1928-ci ildə Mərkəzi Dövlət Arxivi bazası əsasında Azərbaycanda Sinfi mübarizənin və Kommunist Partiyasının tarixini öyrənən İnstitut yaradılır. 1939-cu ildən institutun adı dəyişdirilərək ÜİK(b)P MK yanında Marks-Engels-Lenin İnstitutunun Azərbaycan filialı adlandırılır və Arxiv İnstitutunun tərkib hissəsi kimi fəaliyyət göstərir. 1956-cı ildən AKP MK yanında Partiya Tarixi İnstitutu – Sov.İKP MK yanında Marksizm-Leninizm İnstitutunun filialı adlandırılır. 1969-cu il iyul ayının 14-də ulu öndər Heydər Əliyevin Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilməsi ilə iqtisadi durğunluq, siyasi və mənəvi tənəzzül vəziyyətində olan Azərbaycan üçün quruculuq, dinamik inkişaf və yüksəliş dövrü başlanır və bütün Azərbaycanda olduğu kimi, Partiya Arxivi üçün də bu, yeni dövrün başlanğıcı olur. Beləliklə, Azərbaycanın ictimai-siyasi tarixində qiymətli sənədlərin mühafizəsində böyük rol oynayan bu mənəvi xəzinənin – İctimai-Siyasi Sənədlər Arxivinin təməli, sözün əsl mənasında, ümummilli lider Heydər Əliyev tərəfindən qoyulur.

Arxiv işi Azərbaycan Respublikasında hər zaman dövlət rəhbərliyinin diqqət mərkəzində olmuşdur. Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan bu ardıcıl dövlət siyasəti bu gün də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən davam etdirilir və ölkənin arxiv fondlarında mühafizə olunan sənədlərin qorunması, tədqiqi və istifadəsinə xüsusi önəm verilir. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 21 iyun tarixli Sərəncamına əsasən, Siyasi Partiyalar və İctimai Hərəkatlar Dövlət Arxivi adlandırılan keçmiş Partiya Arxivi Milli Arxiv İdarəsinin tabeliyindən çıxarılaraq Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin tabeliyinə verilmişdir. Ardınca, 2009-cu il 22 iyul tarixli Sərəncamla arxivin adı dəyişdirilərək Siyasi Sənədlər Arxivi kimi təsdiq edilmişdir. Hazırda isə Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 12 oktyabr tarixli Fərmanına uyğun olaraq arxiv İctimai-Siyasi Sənədlər Arxivi adı altında fəaliyyət göstərir.

İctimai-Siyasi Sənədlər Arxivində I Ümumittifaq Türkoloji Qurultayın tarixinin öyrənilməsi baxımından mühüm elmi əhəmiyyətə malik sənədlər mühafizə olunur. Sözügedən tarixi hadisənin siyasi, iqtisadi, sosial və mədəni kontekstini geniş şəkildə əks etdirən bu qiymətli materiallar türk xalqları tarixinin yenidən işlənməsi, eləcə də müstəqillik düşüncəsinin formalaşması və inkişafı baxımından zəngin mənbə bazası yaradır. Arxivdə qorunub saxlanılan I Ümumittifaq Türkoloji Qurultaya dair məxfi, tam məxfi və adi sənədlər, habelə qurultayla bağlı məktublar, protokollar və teleqramlar yüz il ərzində ilk dəfə olaraq elmi ictimaiyyətin istifadəsinə təqdim olunur.

Bu qovluğa I Ümumittifaq Türkoloji Qurultayın çağırılması barədə İ.Stalinə göndərilmiş teleqramların, ÜİK(b)P MK-nın bu barədə qərarları, Təşkilat Komissiyası, bu qurumun protokolları, məktubları, qurultaya gələn nümayəndə və nümayəndə heyətlərinin siyahısı, ÜİK(b)P MK-nın qurultaya rəhbərlik edən şəxsləri haqqında materiallar, SSRİ üzrə qurultayla bağlı stenoqrafik hesabatlar, bölmə iclaslarındakı çıxışlar və qurultaya aid sənədlər toplanmışdır. Materialların hamısı möhürlə təsdiqlənmişdir. Bu, arxiv sənədlərinin rəsmi olaraq Moskva və Bakının partiya strukturlarında saxlanılmasının və nəzarətdə olduğunun sübutudur.

Sənədlərin üzərində “Oxunandan sonra yandırılsın” – qeydi yer alsa da, sözügedən materiallar məhz göndərildiyi qurumun – Mərkəzi Komitənin Məxfi 6-cı şöbəsinə məxsus qovluqda aşkar edilmişdir. Bu sənədlər 105 il ərzində ilk dəfə olaraq elmi ictimaiyyətin və geniş oxucu auditoriyasının istifadəsinə təqdim olunur.

I Ümumittifaq Türkoloji Qurultayın nəfəsini arxiv sənədləri ilə yenidən canlandırdıq: protokollar, teleqramlar, çıxışlar, komissiya qeydləri… İlk dəfə olaraq rus dilində olan arxiv sənədləri xronoloji ardıcıllıqla çap olunur, sistemli və elmi şəkildə təqdim olunur. Türk xalqlarının yaddaşında iz kimi qalacaq bu sənədlər, 100 il öncənin səsini bu günə çatdırmaq cəhdinin nəticəsidir.



Azərbaycan Kommunist (bolşeviklər) Partiyasının Mərkəzi Komitəsi Gizli şöbənin məlumatının tam məxfi şəkildə saxlanması tələb olunur. AK(b)P MK Katibliyinin 14 iyun 1925-ci ildə 6-cı iclasının 32 saylı protokolundan çıxarışa əsasən qurultayın çağırılması ilə bağlı Cəbiyevin göstərişi müzakirə olunur və qəbul edilir:

***a) Qurultayın çağırılmasını zəruri hesab etmək;***

***b) Qurultayın 1925-ci ilin iyun ayının əvvəlində Bakıda keçirilməsini məqsədəuyğun hesab etmək;***

***c) Tədbirin əhəmiyyəti nəzərə alınaraq, RKP Mərkəzi Komitəsindən xahiş edilsin ki, SSRİ Elmi Şərqşünaslıq Assosiasiyasına Qurultayın çağırılması üçün maddi və təşkilati təminatı üzərinə götürməyi təklif etsin.***



* * *

Bu tip məxfi və gizli sənədlər Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 6-cı şöbəsi tərəfindən verilir və qorunub saxlanılırdı:

*1. Mərkəzi Komitənin protokollarından çıxarışların, habelə Mərkəzi Komitə və partkomlar tərəfindən verilmiş ayrı-ayrı göstərişlərin hansı şəxslərə göndəriləcəyi Mərkəzi Komitə katiblərindən biri, katibləri tərəfindən müəyyən edilir və yalnız konkret şəxslərə ünvanlanır.*

*2. Mərkəzi Komitənin və partkomların çıxarış və göstərişlərinin bu sənədlərdə adı keçməyən şəxslərə verilməsi qəti qadağandır.*

*3. Mərkəzi Komitə və partkomların çıxarış və ayrı-ayrı şəxsi göstərişləri xüsusi şəxsi işlərdə saxlanmalıdır və heç bir halda bu sənədlərin sovet və ya həmkarlar ittifaqı kargüzarlığına əlavə olunmasına yol verilməməlidir.*

*4. Mərkəzi Komitənin və partkomların çıxarış və göstərişlərinin surətinin çıxarılması, habelə onların sovet və ya həmkarlar ittifaqı kargüzarlığında yazılı şəkildə istinad olunması qəti şəkildə qadağandır.*

*5. Bu qərarların hər hansı bir pozuntusu baş verdikdə, Mərkəzi Komitənin gizli şöbəsi dərhal bu barədə məlumat verir və məsələ Mərkəzi Komitənin Katibliyinə və ya partiya komitələrinə çatdırılaraq, günahkarlar ciddi partiya məsuliyyətinə cəlb olunurlar.*



Sənəd Ümummittifaq Türkoloji Qurultayının çağırılması üzrə Təşkilat Komissiyasının məruzəsinə Əlavələr başlığı altında təqdim olunub. Bu hissə Türkoloji Qurultayın təşkili ilə bağlı praktiki və maddi məsələlərə, o cümlədən mədəniyyət sarayının tikintisinə, qəzetlərdə təbliğata və büdcə məsələlərinə həsr olunub.

### Əlavə № 5/1

Yoldaş Ağamalıoğlu, Cəbiyev, Hüseynzadə və Məmmədzadəyə tapşırılsın ki, əlifba, terminologiya, lüğətçilik, elmi formalar, orfoqrafiya, tarix, ədəbiyyat və etnogenezin öyrənilməsi sahəsində çalışan bütün Azərbaycan təşkilatlarını bu sahələr üzrə əlaqələndirsinlər və həmin təşkilatların qurultaya hazırlıq işlərinə rəhbərlik etmək məqsədilə birləşməsini təşkil etsinlər. Bunun üçün aşağıdakılar tələb olunur:

***1. Bu üçlüyə tapşırılsın ki, Bakıda Azərbaycan Şərq Elmi-Tədqiqat İnstitutunun yaradılması zərurəti və imkanı məsələsini ətraflı araşdırsınlar.***

***2. Yoldaş Ağamalıoğlu, Cəbiyev və Hüseynzadəyə tapşırılsın ki, yeni Azərbaycan əlifbasının, xüsusilə də rayonlarda, tətbiqi, yayılması və populyarlaşdırılması səviyyəsini yoxlasınlar; latın əlifbası ilə maarifləndirmə və tədris işlərinin hansı səviyyədə həyata keçirildiyini müəyyən etsinlər, yeni əlifba ilə yazılmış kitabların hazırlanma vəziyyətini araşdırsınlar, yayılmasının qarşısını alan səbəbləri müəyyən etsinlər və nəticələr barədə Mərkəzi Komitəyə məlumat versinlər.***

***3. Azərbaycan Kommunist Gənclər İttifaqı MK-ya, “Kommunist” və “Azərnəşr”ə təklif edilsin ki, qarşıdakı aylarda yeni latın əlifbasının rayonlarda, xüsusilə kəndli və müəllimlər arasında təbliğini öz fəaliyyətlərinin əsas istiqamətlərindən biri hesab etsinlər.***

***4. Noyabr ayının ortalarında Bakıda maarif təşkilatları və mədəniyyət işçilərinin müşavirəsi çağırılsın ki, rayonların Türkoloji Qurultay üçün yetərincə hazırlıqlı olub-olmadığını və bu işdə qarşıya çıxan məsələləri müzakirə etsinlər. Bu müşavirə xüsusi olaraq yalnız latın əlifbası məsələsinə həsr olunsun.***

***5. SSRİ-nin Milli Məsələlər üzrə Mərkəzi Komitəsinin məktubuna və digər respublikaların müraciətlərinə cavab olaraq, Qurultayın çağırılmasına dair müvafiq yazışmalar həyata keçirilsin.***

***6. Kütləni qurultaya hazırlamaq.***

***7. Zakraykom, Zaksovnarkom və SSRİ Xalq Təsərrüfatı Komissarlığı qarşısında qurultayın çağırılması ilə bağlı xərclərin təmin olunması məsələsini qaldırmaq.***

***8. Qəzet redaksiyalarına Türkoloji Qurultayın geniş şəkildə təbliğ edilməsini tapşırmaq.***

***9. Qurultayın Türk Mədəniyyəti Sarayında keçirilməsi. Ümumittifaq Xalq Təsərrüfatı Şurasına (ÜXTŞ) tapşırılsın ki, Saray binasının tikintisini təcili şəkildə başa çatdırsın.***

***10. Sovetlər İttifaqı Mərkəzi Komitəsinə (SİMK) təklif edilsin ki, Azərbaycanın Tədqiq və Tətəbbö Cəmiyyətinin illik smetasını (büdcəsini) təcili şəkildə nəzərdən keçirsin.***

***Doğrudur: QLEBOV***

* * *

Bu sənəd Azərbaycan nümayəndələrinin Türkoloji Qurultaya hazırlıqla bağlı gördüyü tədbirlərin konkret planını əks etdirir. Burada əsasən əlifba islahatı, terminologiya, lüğətçilik, orfoqrafiya, tarix, ədəbiyyat və etnogenezlə bağlı təşkilatların əlaqələndirilməsi, yeni latın əlifbasının tətbiqi və təbliği, maarifləndirmə işlərinin gücləndirilməsi və qurultayın təşkili üçün maliyyə-təşkilati məsələlərin həlli üzrə göstərişlər verilmişdir.

**Əsas istiqamətlər:**

*1. Elmi koordinasiya: Azərbaycan təşkilatlarının birləşdirilməsi və yeni institutun yaradılması məsələsinin araşdırılması.*

*2. Əlifba islahatı: Latın qrafikasının bölgələrdə tətbiq səviyyəsinin yoxlanılması, yayılma problemlərinin müəyyənləşdirilməsi və onların aradan qaldırılması.*

*3. Maarif və təbliğat: Kommunist Gənclər İttifaqı, “Kommunist” qəzeti və “Azərnəşr”in latın əlifbasının kəndlilər və müəllimlər arasında təbliğinə yönəldilməsi.*

*4. Müşavirə: Bakıda maarif və mədəniyyət işçilərinin toplantısının keçirilməsi və xüsusi olaraq latın əlifbası məsələsinin müzakirəsi.*

*5. Təşkilati və maliyyə məsələləri: Qurultayın keçirilməsi üçün maliyyə təminatı, təbliğat işlərinin gücləndirilməsi, mətbuatda geniş işıqlandırılması və tədbirin Türk Mədəniyyəti Sarayında keçirilməsi üçün tikintinin sürətləndirilməsi.*

*6. Əsas təminat: Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin illik büdcəsinin təcili baxılması.*

* * *

Əlifba məsələsinin mərkəzi rol alması: Sənədin bütün maddələrində əsas diqqət latın əlifbasının tətbiqi və onun maarif, kənd təsərrüfatı, müəllimlər arasında yayılması üzərində cəmlənmişdir. Bu göstərir ki, əlifba islahatı sadəcə texniki məsələ deyil, həm də ideoloji, mədəni və siyasi transformasiyanın simvolu kimi qəbul olunmuşdur.

**Elmi mərkəzlərin yaradılması təşəbbüsü:** Bakıda yeni Şərq Elmi-Tədqiqat İnstitutunun yaradılması məsələsi diqqət çəkir. Bu Azərbaycan elmi mühitinin institutlaşması və müstəqil şəkildə türkoloji araşdırmaların aparılması üçün mühüm addım idi.

**Siyasi və təşkilati koordinasiya:** Sənəddə yalnız elmi məsələlər yox, həm də SSRİ qurumları qarşısında maliyyə və təşkilati təminat məsələləri qaldırılır. Bu, göstərir ki, qurultay həm yerli, həm də İttifaq miqyasında böyük siyasi əhəmiyyət daşıyırdı.

**Maarifləndirmə və kütləvi hazırlıq:** Mətbuat orqanlarının, nəşriyyatların və gənclər təşkilatlarının bu işə cəlb olunması kütləvi ictimai şüurun dəyişdirilməsi məqsədinə xidmət edirdi. Bu, əlifba islahatını sadəcə akademik müzakirə səviyyəsindən çıxarıb geniş xalq hərəkatına çevirmək niyyətini ortaya qoyur.

**Mədəniyyət infrastrukturu:** Qurultayın Türk Mədəniyyəti Sarayında keçirilməsi və binanın tikintisinin təcili başa çatdırılması məsələsi tədbirin nüfuzlu beynəlxalq mədəni-siyasi hadisə kimi planlaşdırıldığını göstərir.

Bu sənəd göstərir ki, 1926-cı il Türkoloji Qurultaya hazırlıq prosesi yalnız elmi deyil, həm də siyasi, ideoloji və mədəni müstəvidə strateji əhəmiyyət daşıyırdı. Azərbaycan nümayəndələrinin təqdim etdiyi plan həm SSRİ rəhbərliyinə, həm də türkologiya elminə dair genişmiqyaslı hədəfləri əks etdirir:

–Latın əlifbasının məcburi tətbiqi və geniş təbliği;

–Yeni elmi institutların yaradılması;

–Maarif işçilərinin kütləvi səfərbərliyi;

–Qurultayın nüfuzlu siyasi-mədəni tədbir kimi təşkili.

Bu, əslində, Azərbaycan SSR-in türkologiyada aparıcı rol almağa çalışdığını və əlifba islahatını mədəni modernləşmənin əsas sütunu kimi irəli sürdüyünü sübut edir.



Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin Katibliyinin 6-cı gizli şöbəsinin 1925-ci il 24 oktyabr tarixli 54 saylı protokol çıxarışından.

***Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsi Türkoloji Qurultayın çağırılması üzrə Təşkilat Komitəsinin məruzəsiçisi Cəbiyevin çıxışını müzakirə edərək qərara alır ki,***

***a/ məruzəçi T. Cəbiyev tərəfindən təqdim edilmiş təkliflər, 9-cu və 12-ci bəndlər istisna olmaqla, iclasda edilən düzəlişlərlə birlikdə təsdiqlənsin (Təkliflər əlavə olunur);***

***b/ SSRİ Mərkəzi İcraiyyə Komitəsinin diqqətinə çatdırılsın ki, Azərbaycanın Tədqiq və Tətəbbö Cəmiyyətinə münasibətdə laqeydlik var. Məsələn, Cəmiyyət yararsız bir binada yerləşir. Buna görə də Cəmiyyətin fəaliyyətinin təmin olunması üçün uyğun bir binanın təcili şəkildə axtarılması zəruri hesab edilir.***

* * *

Bu sənəd həm təşkilati təkliflərin təsdiqini, həm də Azərbaycanın Tədqiq və Tətəbbö Cəmiyyətinin fəaliyyət şəraiti ilə bağlı narahatlığı əks etdirir.

1925-ci ilin oktyabrında Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin Katibliyinin verdiyi qərar Türkoloji Qurultayın təkcə elmi deyil, həm də inzibati və təşkilati baxımdan ciddi şəkildə planlaşdırıldığını və partiya nəzarətində həyata keçirildiyini göstərir. Təşkilat Komitəsinin təqdim etdiyi təkliflər, müəyyən bəndlər istisna olmaqla, rəsmi şəkildə təsdiqlənir ki, bu da partiya orqanlarının prosesə birbaşa müdaxiləsini və onun istiqamətləndirici rolunu ortaya qoyur. Eyni zamanda, sənəddə elmi mühitin maddi-texniki şəraiti ilə bağlı ciddi narahatlıq da ifadə olunur. Xüsusilə Azərbaycanın Tədqiq və Tətəbbö Cəmiyyətinin yararsız binada yerləşməsi və buna dövlət səviyyəsində laqeydlik göstərilməsi tənqid edilir. Bu isə bir tərəfdən elmi cəmiyyətin potensial əhəmiyyətinə diqqət çəkir, digər tərəfdən isə elmi fəaliyyətin mərkəzi strukturlar tərəfindən hələ də lazımi səviyyədə dəstəklənmədiyini bildirir.



Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin Rəyasət Heyətinin Gizli şöbəsinin 2 noyabr 1925-ci il tarixli iclasının 80 saylı protokolunun çıxarışından aydın olur ki, iclasda Türkoloji Qurultayın çağırılması üzrə Təşkilat Komissiyasının nümayəndələrinin, konkret olaraq Məmmədzadə və Zifeldin Moskvaya ezam olunması ilə bağlı S.M.Kirov məsələ qaldırır, qərar yekdilliklə qəbul edilir.

*(ardı var)*

***Nadir MƏMMƏDLİ,***
***AMEA Nəsimi adına Dilçilik İnstitutunun direktoru, filologiya elmləri doktoru, professor***

# “Yaşıl” gələcəyimizin su strategiyası

*Suyumuz həmişə gur axacaq, otumuz boy atıb göyərəcək*

**Son illərdə qlobal iqlim dəyişikliyi və orta temperaturun yüksəlməsi, çaylarda sululuğun, əsasən də şirin su ehtiyatlarının azlığı müşahidə olunmaqdadır. Əhalinin sürətli artımı, həyat standartlarının yüksəlməsi, ölkə iqtisadiyyatının, o cümlədən kənd təsərrüfatının inkişafı da bu proseslərə təsirsiz ötüşmür. Bu proseslərin fonunda suya tələbatın artması respublikanın su təhlükəsizliyinin təmin edilməsi istiqamətində təxirəsalınmaz tədbirləri zəruriləşdirir.**

Ölkəmizdə dövlətin birbaşa dəstəyi ilə su təchizatı sahəsində yeni sututarların yaradılması və şəbəkə infrastrukturunun genişləndirilməsi istiqamətində iri layihələr icra edilir. Həyata keçirilən tədbirlər hesabına su təsərrüfatı sisteminin inkişafı sürətlənir, əhalinin fasiləsiz içməli su ilə təminatı və irriqasiya sistemi əhəmiyyətli dərəcədə yaxşılaşdırılır.

Su hər bir dövlətin sosial-iqtisadi sabitliyini və inkişaf perspektivlərini müəyyən edən strateji resursdur. Ölkəmizin su ehtiyatlarının 70 faizdən çoxu qonşu dövlətlərdən, əsasən Kür, Araz və digər kiçik çaylar vasitəsilə daxil olur. Onu da qeyd edək ki, Azərbaycan Cənubi Qafqazda su ehtiyatlarına ən az malik olan ölkələrdəndir. Mütəxəssislərin qənaətinə görə, bu səbəbdən Xəzər dənizindən əldə ediləcək duzsuzlaşdırılmış sudan geniş istifadə etmək mümkündür. Bildirilir ki, iqlim dəyişiklikləri yağışların bölgələrə qeyri-bərabər paylanmasına təsir göstərir.

Bəzi bölgələrdə suyun miqdarı artarkən, digərlərində su qıtlığı yaşanır. Quraqlıq su mənbələrinin azalmasına və



suyun keyfiyyətinin pisləşməsinə gətirib çıxarır. Su ehtiyatlarının çirklənməsi onun istifadəyəyararlılığını azaldır. Kənd təsərrüfatı məhsulları və sənaye tullantıları su mənbələrini çirkləndirir. Dünya üzrə kənd təsərrüfatında böyük miqdarda su istehlak edilir. Tarlalarda suyun israfı, damcı sistemləri və suvarma texnologiyalarının çatışmaması, sənayeləşmə və urbanizasiya su ehtiyatlarının azalmasına səbəb olur. Hər gün milyonlarla ton suyun israf edilməsi xüsusilə inkişaf etmiş ölkələrdə şirin su ehtiyatlarını sürətlə tükəndirir.

Dəniz suyunun duzsuzlaşdırılması yolu ilə içməli su istehsalı layihələri dünyanın bir sıra ölkələrində icra edilir. Qlobal istiləşmə, su ehtiyatlarının səmərəsiz istifadəsi və dünyada artan quraqlıq içməli suyun istehsalı üçün duzsuzlaşdırma zavodlarının istifadəsinə təkan verib. Son illərdə dünyada dəniz suyunun duzsuzlaşdırılması layihələrində “Əks Osmos” (Reverse Osmosis) texnologiyası tətbiq edilir. Bir sıra ölkələrdə bu layihələr dövlət-özəl tərəfdaşlığı modeli ilə həyata keçirilir. Müasir çağırışlara çevik və strateji cavab verən Azərbaycan su təminatında inqilabi yeniliklərə start verir.

2026-2035-ci illəri əhatə edən yeni Dövlət Proqramının strateji sütunlarından biri dəniz suyunun duzsuzlaşdırılması texnologiyasının tətbiqidir. Əsas hədəf innovativ üsulların tətbiqi ilə illik 100 milyon kubmetr içməli su ehtiyatı yaratmaqdır. Su ehtiyatlarının azalması, istehlakın artması və qonşu ölkələrdən asılılıq dəniz suyunun duzsuzlaşdırılması zavodunun tikintisini təkcə cari çağırışlara cavab olaraq deyil, həm də uzunmüddətli perspektivdə su təchizatının davamlılığına doğru atılan strateji addıma çevirir.

Layihə su ehtiyatlarının şaxələndirilməsində mühüm rol oynayacaq, duzsuzlaşdırma texnologiyasının effektivliyini qiymətləndirməyə imkan verəcək, analoji təşəbbüslərə zəmin yaradacaq, Bakı və Abşeron yarımadasını içməli su ilə təmin edəcək, həmçinin xarici mənbələrdən asılılığı azaldacaq. Yeni magistral kəmərin inşası emal olunmuş dəniz suyunun mövcud paylayıcı şəbəkəyə tam inteqrasiya edəcək. İnnovativ üsullarla əldə edilən içməli su Ceyranbatan su anbarı vasitəsilə Bakı, Sumqayıt və Xırdalan şəhərlərinin su təchizatı sistemlərinə ötürülərək şəbəkədəki gərginliyi azaldacaq.

Beləliklə, şəhər sakinləri müasir texnologiyalarla təmizlənmiş sudan istifadə edəcəklər. İndiyədək Azərbaycanın su ehtiyatları əsasən yağıntılardan, çaylardan və məhdud yeraltı mənbələrdən asılı idisə, artıq Xəzər dənizinin tükənməz sərvəti əhalinin xidmətinə verilir. Proqramda tullantı sularının təmizlənməsi və ətraf mühitə təsirin minimuma endirilməsi məsələlərinə xüsusi diqqət ayırılır. Müasir təmizləyici qurğuların inşası və mövcud qurğuların rekonstruksiyası nəticəsində tullantı suları beynəlxalq ekoloji standartlara uyğun təmizlənəcək. Bu, Xəzər dənizinin, torpaq və yeraltı su ehtiyatlarının qorunmasına, ümumilikdə, regionun ekoloji vəziyyətinin yaxşılaşdırılmasına mühüm töhfə verəcək.

Onu qeyd etmək lazımdır ki, Azərbaycanda su itkilərinin qarşısının alınması üçün dövlət investisiyaları əsasən infrastrukturun modernləşdirilməsinə, köhnə boru kəmərlərinin dəyişdirilməsinə və ağıllı idarəetmə sistemlərinin tətbiqinə yönəldilir. 2024-2027-ci illər üzrə strateji hədəflər içməli su itkilərini mərhələli şəkildə 33-35 faizə qədər azaltmağı hədəfləyir.

2026-2035-ci illəri əhatə edəcək Dövlət Proqramı iki mərhələdə həyata keçiriləcək. Birinci mərhələ (2026–2030) mövcud infrastrukturun əsaslı yenilənməsi, yağış sularının idarə olunması, tullantı sularının təkrar istifadəsi, “ağıllı su şəbəkələri”nin tətbiqi və su itkilərinin azaldılması kimi prioritetləri ehtiva edir. İkinci mərhələ (2031–2035) isə yeni su anbarları və nasos stansiyalarının tikintisi, təchizatın fasiləsizliyinin təmin edilməsi və müasir xidmət modellərinin tətbiqini hədəfləyir.

Beləliklə, icra olunacaq Dövlət Proqramının məqsədi su mənbələrinin dayanıqlılığının təmin edilməsi, suyun mənbədən götürülməsi, emalı, nəqli, saxlanılması və paylanması proseslərin optimallaşdrılması, əhalinin keyfiyyətli və dayanıqlı su ilə təmin edilməsi, alternativ su mənbələrindən istifadəni nəzərdə tutur. Proqramın uzunmüddətli məqsədləri Bakı şəhərinin Baş Planı ilə uzlaşdırılaraq müasir su təchizatı xidmətlərinin göstərilməsi və ölkənin su ehtiyatlarının səmərəli idarə olunmasına imkan yaradacaq.

Dövlət Proqramının təsdiqlənməsi və paralel şəkildə mütəxəssis hazırlığına start verilməsi göstərir ki, Azərbaycan su təhlükəsizliyini uzunmüddətli milli prioritet kimi qəbul edib. İcra mexanizmlərinin bölüşdürülməsi, mərhələli planlaşdırma və maliyyə təminatı ilə yanaşı, universitet-sənaye-dövlət üçbucağının qurulması hədəflərə çatma ehtimalını yüksəldir. Bu, həm paytaxt və Abşeronun fasiləsiz, keyfiyyətli su təminatı, həm də ekoloji təhlükəsizliyin möhkəmləndirilməsi deməkdir. Ölkə başçısı bildirib ki, “Su təchizatı yalnız texniki məsələ deyil, xalqın rifahı, sağlamlığı və şəhərin dayanıqlı inkişafı üçün strateji prioritetdir”. Bu fikirlər proqramın həm də sosial məsuliyyət çərçivəsində icra olunacağını deməyə əsas verir.

Xalqımızın qədimdən qalmış xoş bir diləyi var: “Suyun axsın, otun göyərsin”.

Azərbaycan dövlətinin həyata keçirdiyi su təhlükəsizliyi layihələri nəticəsində sularımız daim axacaq, otlarımız həmişə göyərəcək. Bu “yaşıl” gələcəyimizin əsas təminatlarından biridir.

***Mustfi K AMAL***
***XQ***

### *Ekspert rəyi*



**Rövşən ABBASOV,**
**coğrafiya üzrə fəlsəfə doktoru,**
**ətraf mühit problemləri üzrə mütəxəssis**

Hazırda Bakı şəhəri və Abşeron yarımadasında su təchizatı və kanalizasiya sahəsində əsas problemlər köhnəlmiş infrastruktur, yüksək su itkiləri, artan əhali və iqlim dəyişiklikləri fonunda su resurslarına təzyiqin yüksəlməsi, eləcə də çirkab və yağış sularının düzgün idarə olunmaması ilə bağlıdır. Su itkilərinin qarşısının alınmasında dövlət investisiyaları ilə yanaşı, ev təsərrüfatlarının rolu da xüsusi əhəmiyyət daşıyır. Təəssüf ki, Bakı şəhərində və ətraf ərazilərdə yerləşən bağ sahələrində içməli suyun suvarma məqsədilə istifadəsi qiymətli su ehtiyatlarının israfına səbəb olur.

2026–2035-ci illəri əhatə edən dövlət proqramı bu problemlərin kompleks və sistemli həllini nəzərdə tutur. Proqram çərçivəsində 200 kilometrdən artıq magistral və paylayıcı şəbəkələrin tikintisi, mövcud şəbəkələrin yenilənməsi, su itkilərinin azaldılması, alternativ su mənbələrinin tətbiqi və suya qənaət mədəniyyətinin formalaşdırılması əsas istiqamətlərdəndir.

Mühüm komponentlərdən biri də Bakı şəhəri ətrafında yerləşən göllərin mərhələli şəkildə təmizlənməsi və bərpasıdır. Bu tədbirlər ekoloji tarazlığın qorunmasına, yerli mikroiqlimin yaxşılaşmasına, rekreasiya imkanlarının genişlənməsinə və şəhər mühitinin sağlamlaşdırılmasına xidmət edəcək.

Eyni zamanda, müasir yağış suları sistemlərinin qurulması xüsusi əhəmiyyət kəsb edir. Bu sistemlər vasitəsilə yağış suları çirkab sularla qarışmayacaq, ya birbaşa dənizə təhlükəsiz şəkildə axıdılacaq, ya da toplanaraq parkların, yaşıllıq sahələrinin və bağların suvarılmasında istifadə ediləcək. Yağış sularının effektiv idarə olunması Bakı şəhərində tez-tez müşahidə olunan subasma hallarını azaldacaq və şəhər infrastrukturunun dayanıqlığını artıracaq.

Bakı şəhərindən Xəzər dənizinə axıdılan çirkab suları ciddi ekoloji risk yaradır. Hazırda 50 faizdən çox ev təsərrüfatlarından çıxan çirkab suların birbaşa və ya kifayət qədər təmizlənmədən Xəzərə axıdılması dənizin çirklənməsinə səbəb olur. Dövlət Proqramı çərçivəsində bu suların müasir təmizləmə qurğularında emal edildikdən sonra Xəzərə axıdılması dənizin qorunması baxımından mühüm əhəmiyyət daşıyır.

Bundan əlavə, Xəzərin suyunun duzsuzlaşdırılması Bakı və Abşeron yarımadası üçün strateji alternativ su mənbəyi kimi çıxış edir. Duzsuzlaşdırma iqlim və hidroloji risklərdən asılılığı azaldır və uzunmüddətli su təhlükəsizliyini təmin edir. Müasir texnologiyalar tətbiq edildikdə bu yanaşma iqtisadi baxımdan da səmərəli hesab olunur.

Dövlət Proqramının icrası nəticəsində tullantı suları və kanalizasiya sisteminin təminatı 50 faizdən 95 faizə qədər artacaq. Dövlət başçısı su itkilərinin azaldılmasının ölkəmiz üçün vacib olduğunu qeyd edib. Su itkisi 40-45 faiz təşkil edir. Bu baxımdan proqramda su strategiyasında itkilərin minimallaşdırılması, magistral kəmərlərdə və ötürücülərdə su itkisinin, nəzarətdən kənar istifadənin qarşısının alınması və sayğaclaşmanı başa çatdıraraq suyun tam uçotunun aparılması öz əksini tapıb.

Ümumilikdə, bu Dövlət Proqramı su ehtiyatlarının qorunması, Xəzər dənizinin ekoloji təhlükəsizliyinin təmin edilməsi, Bakı şəhərinin iqlim dəyişikliklərinə davamlılığının artırılması, ölkənin davamlı inkişafı və əhalinin sosial rifahının yüksəldilməsi baxımından strateji əhəmiyyət daşıyır.

### *Ekspert rəyi*



**İsmət BAXIŞOV,**
**Azərkosmosun Coğrafi İnformasiya Sistemləri Mərkəzinin direktoru**

Günümüzdə müasir peyk texnologiyaları su ehtiyatlarının monitorinqində və idarə olunmasında real nəticələr verməkdədir. Peyk məlumatları su anbarlarının doluluğunu, çay axınlarının dinamikasını, buzlaqların həcmini, torpağın rütubətini və vegetasiya vəziyyətini mütəmadi izləməyə imkan yaradır. Bu göstəricilər quraqlıq risklərinin erkən müəyyənləşdirilməsi, suvarma planlarının optimallaşdırılması və su itkilərinin azaldılmasında praktiki əhəmiyyət kəsb edir, xüsusilə kənd təsərrüfatında suyun səmərəli istifadəsi üçün vacibdir. Eyni zamanda, peyk monitorinqi Xəzər dənizində sahilboyu eroziya və ekosistem proseslərinin izlənməsinə şərait yaradır, bu da sahil infrastrukturu və su təchizatı planlaşdırmasında önəmli rol oynayır.

Son illərdə aparılan peyk müşahidələri və çoxillik Yer müşahidə məlumatları göstərir ki, iqlim dəyişiklikləri Azərbaycanda su ehtiyatlarına ciddi təsir göstərir. 2017–2025-ci illərdə buzlaq sahələri təxminən 9 faiz, Xəzər dənizinin səviyyəsi 1995–2025-ci illərdə aşağı düşərək sahilboyu su örtüyü 883 kvadratkilometr azalıb. Eyni dövrdə Xəzərin səth sularının temperaturu 0,5–0,7°C artıb, xlorofil-a konsentrasiyası isə 30 faizdən çox azalıb. Atmosfer müşahidələri orta illik temperaturun uzunmüddətli normadan 1,1°C artıq olduğunu göstərir.

Peyk əsaslı analizlər ölkə ərazisinin 29 faizinin quraqlıqdan, 6 faizinin isə yüksək səhralaşma riskindən təsirləndiyini bildirir. Eyni zamanda, su anbarlarının səth sahəsində mövsümi dəyişikliklər, Kür çayının bəzi hissələrində en dəyişiklikləri və torpaq rütubəti peyk məlumatları ilə dəqiq izlənilir. Bu göstəricilər su resurslarının idarə olunmasında operativ və elmi əsaslı qərar qəbuletmənin vacibliyini bir daha təsdiqləyir.

Milli səviyyədə məlumatların sistemləşdirilməsi üçün Azərkosmos tərəfindən yaradılmış www.climatereport.az platforması peyk göstəricilərini interaktiv xəritələr, qrafiklər və analitik panellər vasitəsilə təqdim edir. Platforma dövlət qurumları və mütəxəssislər üçün vahid analitik mühit yaradır, su ehtiyatlarının azalması, quraqlıq və səhralaşma risklərini məkan üzrə dəqiq qiymətləndirməyə imkan verir və suvarma, adaptasiya və resurs idarəçiliyi üzrə əsaslandırılmış qərarların qəbuluna şərait yaradır.

Azərbaycanda su resurslarının davamlı idarə olunması məqsədilə təsdiq edilmiş “Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya” ölkənin su təchizatı və irriqasiya sistemlərinin modernləşdirilməsini, su itkilərinin azaldılmasını, alternativ su mənbələrinin tətbiqini və suya qənaət mədəniyyətinin təşviqini əhatə edir. Strategiya çərçivəsində infrastruktur layihələri ilə yanaşı, peyk və CİS (Coğrafi İnformasiya Sistemləri) texnologiyalarının tətbiqi planlaşdırılır ki, bu da su ehtiyatlarının səmərəli idarə olunmasına və ölkədə su təhlükəsizliyinin uzunmüddətli təmininə imkan verəcək. Strategiya çərçivəsində Azərkosmos tərəfindən yerüstü su mənbələrinin rəqəmsallaşdırılması layihəsi icra olunur, ərazilərin peyk təsvirləri çəkilir və beynəlxalq təcrübə əsasında rəqəmsallaşdırma işləri həyata keçirilir.

# Yaza nə qaldı…

## *reportaj*

**Gəncənin küçə və meydanlarında, parklarında bahar tədricən özünü göstərir. Özü də bu dəyişiklik sadəcə havanın isinməsi ilə deyil, şəhərin müxtəlif güllərlə bəzədilməsində də özünü büruzə verir. Gəncənin ən mərkəzi nöqtələrindən biri olan İcra Hakimiyyətinin İnzibati binasının ətrafında, Dövlət Bayrağı dirəyinin yaxınlığında, buta formaları və güldanlar bu gün rəngarəng güllərlə bəzənir.**

Ərazidə işçilər torpaq və torf qarışığını əl ilə səpərək yeni əkiləcək primula güllərinə yer hazırlayır. Yaşıllaşdırma şöbəsinin müdiri Elmar Əzizov da buradadır, işlərin gedişini izləyir.

– Əvvəlcə köhnə və ömrünü bitirmiş gül kollarını təmizləyirik, torpağı zənginləşdiririk. Bu, bitkilərin sağlam və uzunömürlü olması üçün vacibdir. Bizim məqsədimiz yalnız şəhəri gözəlləşdirmək deyil, həm də sakinlər üçün təmiz, yaşıl və rahat mühit yaratmaqdır.

Ərazidəki canlı mənzərə sakinlərin də marağına səbəb olub. Uşaqları ilə gəzən şəhər sakini Yaşar Məmmədov deyir: “Uşaqlar burada dayanıb, güllərin ətrini çəkir, şəkil çəkdirirlər. Həqiqətən də kiçik, amma böyük sevinc bəxş edən bir mənzərə yaranıb”.

Yaxınlaşan bir qrup gənc isə telefonlarını çıxararaq gül əkini prosesini çəkir. Yaşlı qadın Nigar Əliyeva isə əlavə edir: “Bu rəngarəng gülləri görmək insana həqiqətən də baharın yaxınlaşdığını xatırladır. Şəhər daha canlı və xoş görünür”.

Aksiya çərçivəsində işçilər yalnız yeni gülləri əkmir, həm də mövcud yaşıllığa aqrotexniki qulluq göstərir, ərazinin suvarılmasını təmin edirlər. Elmar Əzizov bildirir ki, mövsümü güllərin əkini yalnız bu ərazi ilə məhdudlaşmayacaq, şəhərin digər yerlərində də yaşıllıq zolaqları artırılacaq.

Gəncənin mərkəzində bu gün yaranan mənzərə göstərir ki, yaz hələ tam gəlməsə də, açan güllər və yaşıllıq şəhərin ruhunu canlandırır, sakinlərin üzünə təbəssüm gətirir. Yekdil rəy budur ki, hər bir gül əkini aksiyası, şəhərə həyat və bahar müjdəsi gətirən kiçik, amma təsirli bir addımdır.

Bəli, yaz yaxınlaşır… Aşıq Alı necə deyib?

***Aydır, ildir, gəlib-keçir ömürdən,***
***Tələsirik, görən yaza nə qaldı?***

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

**Gəncə**









*Nəriman Həsənzadə – 95*

# Milli poeziyamızın qocaman ustadı

**Duyğulu şeir bir ömür, hər misra bir taledir. Azərbaycan poeziyasının tanınmış nümayəndələrindən olan xalq şairi Nəriman Həsənzadənin yaradıcılığında keçmişin ağrısı ilə gələcəyin ümidi xatirəyə çevrilir.**

O, 34 bədii-poetik toplunun, "Nəriman", "Zümrüd quşu", "Kimin sualı var?", "Atabəylər" poemalarının, "Nabat xalanın çörəyi" povestinin, "Tariximiz, taleyimiz" adlı irihəcmli elmi-ədəbi-tənqidi məqalələr kitabının müəllifidir. 2004-cü ildə "Seçilmiş əsərləri" dövlət tərəfindən latın qrafikası ilə kütləvi tirajla nəşr edilmiş, 100-dən artıq şeirinə musiqi bəstələnmişdir. Bəstəkar Ramiz Mustafayevlə "Nəriman" və Nazim Əliverdibəyovla "Vətən" kantatalarını işləmişdir.

Nəriman Həsənzadə bir sıra Avropa və Şərq ölkələrində keçirilən elmi-ədəbi konfransların, poeziya simpoziumlarının, rəsmi dövlət səfərlərinin iştirakçısıdır.

Bu gün ömür yolunun 95 illik zirvəsini haqlayan, "Şərəf", "Şöhrət" və "İstiqlal" ordenli söz sərrafı ilə yarım əsrdən artıq bir dövrü əhatə edən yaradıcılıq yolundan, ədəbiyyatın bugünkü missiyasından danışdıq.

**– Nəriman müəllim, şairlik taledir, yoxsa seçim?**

– Şairlik bir az yanmaq, bir az susmaq, bir az da hamının duya bilmədiyini duymaqdır. Bu, taleyin yazısıdır, o yazını oxumaq, söz sənətində usta olmaq isə iradə tələb edir. Bəzən düşünürəm ki, əgər şairlik seçim olsaydı, çoxları bu yolu seçməz, bu ağır yükü daşımağa razı olmazdı.

**– İllər ötür, nəsillər dəyişir, amma söz yaşayır. Sizcə, söz zamana qalib gəlir, yoxsa zaman şairi ələkdən keçirir?**

– Şair yalnız bu günlə yaşamır, keçmişin izlərini, gələcəyin nəfəsini də eyni anda duyur. Adi insan üçün zaman ardıcıllıqdır – dünən, bu gün, sabah. Şair üçün isə uşaqlıq xatirəsi ilə sabahın arzusu eyni misrada görüşə bilir. Mən şeir yazanda bəzən illər aradan çəkilir, dünənlə bu gün arasında sərhəd qalmır. Deməli, zaman mənim içimdə yaşayır. Amma bir həqiqət də var: zaman şairi sınağa çəkir. Hər dövr öz sualını verir. Sən o suallara cavab tapa bilirsənsə, sözün yaşayır. Tapmırsansa, zaman səni unutdurur. Ona görə deyərdim ki, zaman şairin yaddaşında əbədiyyət qazanır.

Bilirsiniz, zamanla yarışa çıxmaq mümkün deyil. O hər kəsdən güclüdür, insanı da aparır, adları da unutdurur. Amma söz həqiqətdən doğulubsa, bir misra ürəkdən gəlibsə, zaman ona toxuna bilmir, söz qalib gəlir.

***Müsahibimiz bu gün 95 yaşı tamam olan Xalq şairi, Azərbaycan Yazıçılar Birliyi Ağsaqqallar Şurasının sədri, Əməkdar incəsənət xadimi Nəriman Həsənzadədir***



**– Deyirlər, şeir çəkilən ağrı yükünün, həm də yaşanan sevincin susmayan sədasıdır. Bu fikirlə razılaşırsınızmı?**

– Bəli, mən öz misralarımda da bunu təsdiq etmişəm. İllər öncə yazmışam ki, "Mənim bu aləmdə öz aləmim var, sənlə sevincim var, sənsiz qəmim var". Yəni kağız üzərində yazılan misranın arxasında yaşanmış bir ömür dayanmasa, zaman onu çox tez aparır. Yaşanmış ağrı, həqiqi sevgi, içdən gələn etiraf sözə çevriləndə artıq zamanın hökmü zəifləyir. Çünki o söz kağızdan əvvəl qəlbə yazılıb. Mən heç vaxt masa arxasında "şeir yazmağa" oturmamışam. Şeir məni tapıb: ya bir ağrının içində, ya bir sevincin zirvəsində, ya da gecənin səssizliyində.

**– Sovet dövründən müstəqilliyə qədər keçdiyiniz sənət yolu yaradıcılığınıza hansı dəyişiklikləri gətirib?**

– Zaman, mühit insanı da, sözü də dəyişir. Sovet dövründə biz başqa bir ideoloji mühitdə yaşayırdıq. Sözün sərhədi, deyə biləcəyin və deyə bilməyəcəyin məqamlar vardı. O illərdə şair daha çox məcazla, işarə ilə, bəzən sükutla danışırdı. Müstəqillik dövrü isə mənəvi baxımdan tamam başqa bir mərhələ oldu. Azadlıq həm böyük nemətdir, həm də məsuliyyət. Çünki artıq sözün qarşısında süni baryerlər yox idi. İndi vicdanla üz-üzə qalırdın. Yazdıqlarının arxasında dayanmaq daha ciddi məsuliyyət tələb edirdi. Sovet dövrü mənə dözümlülük və ehtiyatlılıq öyrətdi, müstəqillik isə daxili azadlıq verdi. Amma bir həqiqət dəyişmədi: şair hər dövrdə həqiqətin tərəfində olmalıdır. Sadəcə, o həqiqətin ifadə forması zamanla dəyişir.

**– Vətən mövzulu şeirlərinizdə alovlu bir yanğı, daxili göynərti açıq-aydın duyulur...**

– Uşaqlıqdan eşitdiyin laylalar, torpağın qoxusu, doğma el-oba, böyüyüb boya-başa çatdığın kəndin təbiəti-bütün bunlar səni formalaşdırır. Sonra anlayırsan ki, sən təkcə öz ömrünü yaşamırsan, bir xalqın yaddaşını da daşıyırsan. Vətən mövzusu mənim üçün həmişə daxili ağrı olub. Çünki vətən seviləndə də ağrıdır, itiriləndə də. Bu torpağın sevinci də, faciəsi də şairin ürəyindən keçir. Əgər o ağrı içindən keçmirsə, yazılan söz sadəcə ritorika olur. Məncə, bu məsuliyyət hissi sevgidən doğur. Sevdiyin şeyi qorumaq istəyirsən. Şairin silahı isə sözdür. Mən vətənə borcumu yalnız sözlə qaytara bilərəm və bu söz səmimi olmalıdır.

**– Qarabağ zəfərindən sonra yazarlarımızın qarşısında hansı missiyalar dayanır?**

– Qarabağ zəfəri yalnız hərbi qələbə deyil, illərlə içimizdə daşıdığımız nisgilin, həsrətin, ağrının yerini qürur, sevinc tutub. Möhtəşəm zəfərimiz ədəbiyyatın da qarşısında yeni vəzifələr qoyur. İndi quruculuqdan, dirçəlişdən, Böyük Qayıdışdan yazmalı, qalibiyyətimizi bütün dünyaya ədəbi nümunələrlə də çatdırmalıyıq. Amma bu, sadəcə qələbə pafosu olmamalıdır. Ədəbiyyat hadisəni yox, onun insan taleyində yaratdığı dəyişimi göstərməlidir. Yeni missiya yaddaşı qorumaqdır. Biz ağrını unutmalıyıq, amma ağrıdan güc, o zəfərdən isə mənəvi məsuliyyət doğmalıdır. Çünki torpaq azad olunubsa, ruh da ucalmalıdır. Məncə, ədəbiyyat indi daha dərin olmalıdır. Qələbəni tarix yazır, amma onun mənasını söz açır. Mən də Zəfərin verdiyi bu mənəvi güclə böyük həqiqəti misralara köçürdüm:

***Qoca tarix, daha susma, millət qalxıb ayağa,***
***And içibdi uluların yaşadığı torpağa.***
***Mən yazıram bu günləri, sinəmdəki varağa,***
***Daha "qaçqın", daha "köçkün" olmayacaq, ey Vətən!***

**– Sizcə, milli kimlik məsələsində ədəbiyyatın rolu nədən ibarətdir? Sözün məfkurəvi təsiri zəifləməyib ki?**

– Hesab etmirəm ki, ədəbiyyatın rolu zəifləyib. Sadəcə, ifadə formaları dəyişib. Milli kimliyi qoruyan xalqın dili, yaddaşı, ədəbiyyatıdır. Ədəbiyyat millətin özünüdərkidir. Şair xalqın ruhunu yazıya köçürür. Bəli, indi informasiya dövrüdür. Amma buna baxmayaraq, insan yenə də öz kökünə, soyuna qayıtmaq ehtiyacı duyur. O qayıdışın yolu ədəbiyyatdan keçir. Çünki ədəbiyyat millətin daxili səsidir. Məncə, ədəbiyyatın rolu zəifləməyib, sadəcə məsuliyyəti artıb. İndi yazılan hər söz daha böyük məkanda səslənir. Ona görə də milli kimliyi qoruyan söz həm səmimi, həm də dərin olmalıdır. Kimliyini itirən xalqın gələcəyi də sual altına düşər. Ədəbiyyat isə bu kimliyin yaddaşıdır.

**– Uzun və məhsuldar yaradıcılıq yoluna nəzər salanda "qırılma nöqtəsi" hesab etdiyiniz anlar oldumu?**

– Belə anlar az olmayıb. Məsələn, gənclik illərində sözün yükünü tam anlamadan yazdığım şeirlər vardı. Sonra anladım ki, sözün yükünü daşımaq üçün hər şeydən əvvəl məsuliyyət lazımdır. Daha sonra sovet illəri, müstəqillik, Qarabağ həsrəti və zəfəri – mənim yaradıcılığımda yeni mərhələlər açdı. Hər mərhələ öz sınağı, öz qırılma anını gətirdi. İndi qəlbimdə sönməz sənət atəşini bu misralarla ifadə edirəm:

***Yaşım gör illərin harasındadır,***
***İllər məhvərimdən qoparır məni.***
***Ürəyim əvvəlki sevdasındadır,***
***Dünya qayğılara aparır məni.***

**– Yazılmamış – macal tapıb ipə-sapa düzmədiyiniz şeirləriniz varmı?**

– Bəli, ürəyimdə saysız-hesabsız yazılmamış şeirlər var. O şeirlər qəlbimdə yaşayır, susur, amma yox olmur. Mən onları unutmuram, onlar isə məni tərk etmir. Yazılmamış şeir həm bir yükdür, həm də bir nemət. Bəzən düşünürəm ki, şairin ən səmimi şeiri – yazılmayanıdır, çünki o şeir sənin öz daxili səsindir.

**– Əgər həyatınızı bir şeirlə ifadə etməli olsaydınız, o hansı şeiriniz olardı?**

***– Nəriman Həsənzadə adım, soyadım,***
***Əski əlifbada yazılacaqdı xalqın həyatı, mənim həyatım.***
***Məni yetmiş milyon oxuyacaqdı,***
***Mən ölməyəcəyəm, bu arzum haqdır,***
***Sən də görəcəksən, demə uzaqdır.***

**– Nəriman müəllim, maraqlı müsahibəyə görə sizə təşəkkür edirik. Müdriklik zirvəsi olan növbəti yubileyinizi oxucularımız və kollektivimiz adından təbrik edirik. Sizə daha uzun və sağlam ömür arzulayırıq.**

***Müsahibəni apardı:***
***Mehparə ƏLİYEVA***
***XQ***

*Asəf İsgəndərov – 85*

# Tanınmış riyaziyyatçı, nüfuzlu pedaqoq

**İnsan ömrü yaşadığı illərlə deyil, Vətən və xalq qarşısında etdiyi xidmətlər, dəyərli işlər, xeyirxah əməllərlə ölçülür. Ömür cəmiyyətə, insanlığa faydalı olduqda daha qiymətlidir. Haqqında söhbət açdığımız elm və təhsil fədaisi, dünyaşöhrətli riyaziyyatçı Asəf İsgəndərov yola saldığı 85 ilin zirvəsindən baxanda ayların, illərin unudulmaz xatirələri, üzləşdiyi çətinliklər, qazandığı uğurlar kino lenti kimi gözünün önündən keçir.**



Asəf müəllim Lerik rayonunun Cəngəmiran kəndində dünyaya göz açıb. Kənd məktəbini qızıl medal, Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) fizika fakültəsini fərqlənmə diplomu ilə bitirib. 1963-cü ildə təhsil aldığı universitetin "riyazi və nəzəri fizika" ixtisası üzrə aspirantura şöbəsinə daxil olub. Aspirant hazırlığını M.V.Lomonosov adına Moskva Dövlət Universitetində keçib.

26 yaşında "İstilikkeçirmə nəzəriyyəsinin bəzi tərs məsələləri" mövzusunda namizədlik, 37 yaşında isə Moskva Dövlət Universitetində "Parabolik və elliptik tənliklər üçün tərs məsələlər" mövzusunda doktorluq dissertasiyalarını uğurla müdafiə edən Asəf İsgəndərov keçmiş ittifaqda perspektivli alim kimi tanınıb.

1967-ci ildə Azərbaycan Dövlət Universitetində, sonra Azərbaycan Elmlər Akademiyasının Riyaziyyat və Mexanika İnstitutunda elmi fəaliyyətlə məşğul olub. 1973-cü ilin dekabrında Bakı Dövlət Universitetində elmi-pedaqoji fəaliyyətini davam etdirərək Optimallaşdırma və idarəetmə kafedrasının müdiri seçilib.

Professor Asəf İsgəndərov riyazi fizika, hesablama riyaziyyatı və optimal idarəetmə sahələrində bir sıra tədqiqatların müəllifi, korrekt qoyulmamış və identifikasiya məsələlərinin nəzəriyyəsini və həll üsullarını inkişaf etdirmiş görkəmli riyaziyyatçıdır.

Parlaq istedada malik alim riyaziyyat sahəsində praktik əhəmiyyəti olan çox mühüm elmi nəticələr almışdır. Riyazi fizikanın xətti və kvazi-xətti tənlikləri və onların diskret analoqları üçün tərs məsələlərin yeni sinfini, bu məsələlərin korrektlik nəzəriyyəsini, tədqiq etmiş, onların həll üsullarını göstərmiş və əsaslandırmışdır. İlk dəfə olaraq diferensial tənliyin həllindən asılı əmsalın tapılmasına dair tərs məsələyə baxmış, bu məsələnin elmi-praktik əhəmiyyətini göstərmiş, korrektlik hüdudlarını müəyyənləşdirərək effektiv həll üçün xüsusi requlyarlaşdırma üsulunu əsaslandırmışdır. İlk dəfə olaraq xüsusi törəməli yüklənmiş diferensial tənlik adlanan yeni sinif diferensial tənlikləri onların əsas tipləri üçün sərhəd məsələlərinin keyfiyyət nəzəriyyəsini və həll üsullarını işləmişdir.

Professor Asəf İsgəndərovun elmi fəaliyyəti əsasən tətbiqi riyaziyyat və riyazi fizika sahələrini əhatə edir. Xüsusi törəməli diferensial tənliklərin fiziki proseslərin modelləşdirilməsinə tətbiqi, riyazi fizika tənlikləri üçün tərs və qeyri-korrekt qoyulmuş məsələlərin analizi, təbiət elmləri, iqtisadiyyat və texniki sahələrdə proseslərin riyazi dillə təsviri istiqamətində sanballı tədqiqatların, dəyərli elmi nəticələrin müəllifi kimi tanınır.

Riyazi ədəbiyyatlarda alimin məqalələrinə 2 minə yaxın istinad edilib. Aldığı elmi nəticələr dünyanın müxtəlif ölkələrində nəşr olunmuş onlarla monoqrafiyalara, namizədlik və doktorluq dissertasiyalarında, yüzlərlə elmi məqalələrdə daxil edilib, istifadə olunub.

Dünyada tanınan məşhur riyaziyyatçılardan M.M.Lavrentyev, V.Q.Romanov, Y.E.Anikonov, A.L.Buxqeym, O.M.Alifanov, E.A.Artyuxin, S.V.Rumyantsev, V.B.Qlasko, A.M.Denisov, K.Q.Reznitskaya və digər alimlərin monoqrafiyalarında və C.R.Cannonun kitabında A.İsgəndərovun tərs məsələlər nəzəriyyəsinə dair elmi nəticələrinə xüsusi yer verilib. Onun elmi yaradıcılığını riyaziyyat elminin korifeyləri sayılan akademiklərdən A.H.Tixonov, A.A.Samarskiy, V.A.Sadovniçiy, V.K.İvanov, B.N.Straxov, V.G.Romanov, K.H.Hoffmann, R.Gorenflo yüksək qiymətləndiriblər.

Zəhmətkeş alim, bacarıqlı təhsil təşkilatçısı A.İsgəndərov 2005-ci ildə Lənkəran Dövlət Universitetinin rektoru, sonra isə AMEA Lənkəran Regional Elmi Mərkəzinin direktoru vəzifəsinə təyin olunub. Rektor vəzifəsində çalışdığı 11 il ərzində universitetin elmi və tədris potensialının gücləndirilməsinə, regionda ali təhsilin inkişafına mühüm töhfələr verib.

Universitetə rəhbərlik etdiyi dövrdə fakültələrin sayını 2-dən 4-ə, kafedraların sayını isə 11-ə çatdırıb. Təhsilin praktiki tərəfini gücləndirmək məqsədilə universitetdə yeni laboratoriyalar yaradılıb. Magistratura və doktorantura şöbələrinin işi daha da təkmilləşdirilərək təhsil ocağının elmi potensialı artırılıb. Yurdumuzun cənub bölgəsində ali təhsilin nüfuzunun yüksəlməsi, gənclərin təhsil imkanlarının genişlənməsi üçün burada hər cür şərait yaradılıb.

İlk növbədə, qazanılan beynəlxalq qrantlar hesabına təhsil müəssisəsinin maddi-texniki bazası möhkəmləndirilib, tədris korpusları yenidən qurulub, laboratoriyalar müasir avadanlıqlarla təchiz edilib. Elmi kitabxana zənginləşdirilib, elektron resurslara çıxış imkanları artırılıb. Elmi jurnalların və topluların nəşri genişləndirilib.

Universitetdə müntəzəm beynəlxalq və respublika səviyyəli elmi konfranslar təşkil edilib. Bir sıra xarici universitetlərlə əməkdaşlıq sazişləri imzalanıb. "Erasmus" və digər proqramlar çərçivəsində tələbələrin xaricdə təhsilinə, müəllim və tələbələrin elmi layihələrdə iştirakına diqqət artırılıb.

Görkəmli alim 30-a yaxın elmlər namizədi, 10-a yaxın elmlər doktoru hazırlayıb. O cümlədən 80-ə yaxın namizədlik və doktorluq dissertasiyalarına opponentlik edib. Onun rəhbərliyilə AMEA-da, Bakı Dövlət Universitetində və Lənkəran Dövlət Universitetində elmi-tədqiqat problem laboratoriyaları təşkil edilib. Asəf müəllimin səyi ilə BDU-nun Tətbiqi Riyaziyyat Elmi-Tədqiqat İnstitutunda fəaliyyət göstərən laboratoriyalardan biri, optimallaşdırma və idarəetmə kafedrası, Lənkəran Dövlət Universitetində isə iqtisadi təhlil və idarəetmə kafedrası yaradılıb.

Onun elmi, təşkilatçılıq fəaliyyəti pedaqoji işi ilə sıx bağlıdır. Ali məktəb tələbələrinə, magistrlərə optimallaşdırma üsulları, iqtisadi təhlildə optimallaşdırma üsulları, paylanmış parametrli sistemlərin optimal idarə olunması fənlərindən dərs deyib. O, Lənkəran Dövlət Universitetində Riyaziyyat və informatika kafedrasında elmi seminarlar keçirib, gənc riyaziyyatçılar nəslinin yetişməsinə mühüm töhfələr verib, 6 nəfərin fəlsəfə doktorluğu üzrə elmi rəhbəri olub.

Asəf müəllim "Optimallaşdırma üsulları" dərsliyinin müəlliflərindən biri və redaktorudur. Dərslik respublikamızın ali məktəblərində geniş istifadə olunur. Həmçinin A.N.Tixonov, D.P.Kostamarovun "Tətbiqi riyaziyyata giriş mühazirələri" adlı dərs vəsaitini ana dilimizə tərcümə edib.

Professor Asəf İsgəndərov dünyanın qabaqcıl elmi mərkəzlərindən olan Moskva, Kiyev, Novosibirsk, Berlin, Bonn riyaziyyat məktəbləri ilə sıx əlaqə saxlayır. O, 3 dəfə DAAD, 2 dəfə İNTAS-ın qrantını qazanıb. Alman və yapon riyaziyyatçıları ilə birgə qeyri-xətti tərs məsələlərin, Hölder kəsilməz nüvəli birinci növ Abel tipli inteqral tənliklərin, kəsr tərtib diferensial tənliklərin həlli haqqında nüfuzlu beynəlxalq jurnallarda 10-a yaxın elmi məqalə çap etdirib. Rusiya, Almaniya, Türkiyə, Çexiya və İranın universitetlərində dəfələrlə Azərbaycan, rus və ingilis dillərində yüksək elmi və pedaqoji səviyyəli mühazirələr oxuyub, Sərbəst Berlin Universitetində dəvətli professor və dəvətli elmi tədqiqatçı vəzifələrində çalışıb.

120-yə yaxın elmi və 45 elmi-kütləvi məqalənin müəllifidir. Beynəlxalq konfranslarda dəfələrlə təşkilat komitəsinin üzvü olub, 6 respublika və beynəlxalq səviyyəli konfransa sədrlik edib. Professor Asəf İsgəndərov Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasında riyaziyyat elmləri üzrə ekspert şurasının sədri, ixtisaslaşmış müdafiə şuralarının üzvü olub.

Tanınmış, nüfuzlu alim elmi və pedaqoji sahədə nailiyyətlərinə görə "Xalqlar dostluğu" ordeninə, "Əməkdar müəllim", Əməkdar elm xadimi fəxri adlarına layiq görülüb. 2016-cı ildə Azərbaycan Prezidenti tərəfindən "Şöhrət" ordeni ilə təltif olunub.

Asəf müəllim ömrünün müdrik çağlarını yaşayır. O, bu gün də yorulmadan elmi tədqiqat işlərini uğurla davam etdirir, gənclərə qayğısını, dəstəyini əsirgəmir.

***Aytəkin ƏFƏNDİYEVA,***
***Azərbaycan Memarlıq və İnşaat Universitetinin dosenti,***

***Ruslan HƏMİDOV,***
***Lənkəran Dövlət Universitetinin kafedra müdiri, dosent***

*Gəlimli-gedimli dünya ...*

# "Hər ömrün sonu var..."

## *Musa Ələkbərli həyatın gözünə dik baxan şair idi*

**Qələm dostumuz, gözəl şeirləri ilə uzun illər geniş oxucu dairəsinin rəğbətini qazanmış Musa Ələkbərlinin qəfil ölüm xəbəri hər birimizi sarsıtdı. Belə hüznlü ovqatla özü bir vaxt ölümün gözünə dik və nikbinliklə baxmışdı:**

***Axı nə fərqi var, kimdir, nəçidir,***
***İnsan bu dünyada kirayəçidir.***
***Hər ömrün sonu var, ölüm də haqdı,***
***Can ilə ödənir kirayə haqqı...***

Gədəbəy rayonunun Ataxal kəndində dünyaya göz açan Musa şair kimi mayasını bulaqların gümültüsündən, sazın-sözün hənirindən götürmüşdü deyə, ömrünün müdrik çağında belə ilhamı sovulmadı, sənət eşqi soyumadı. Onun istedadı, poetik ruhu, çalışqanlığı gənclik illərindən dəyərləndirilib. Ötən əsrin 60-cı illərində Bakı Dövlət Universiteti filologiya fakültəsinin 2-ci kursunda oxuduğu vaxt ustadı saydığı Hüseyn Arifin "Uğurlu yol"u ilə ilk şeirləri işıq üzü görüb. Sevimli müəllimi Bəxtiyar Vahabzadənin xahişi ilə "azad təyinat" alıb və İlyas Tapdığın köməkliyi ilə "Gənclik" nəşriyyatında işə düzəlib.



1977-ci ildə çıxan ilk kitabını "Məndən şeir istə" adlandırıb. Görkəmli yazıçı-ədəbiyyatşünas Qulu Xəlilov isə "Ədəbiyyat və incəsənət" qəzetində ona açıq məktub yazaraq, xeyir-duasını əsirgəməyib. Həyatını poetik sözün sirrinə-sehrinə bağlamış şair yarım əsrdən çox şəhərdə yaşasa da, köksündə kənd uşağının saf ürəyini gəzdirib, dünyaya nəcib qəlbinin gözü ilə baxıb təqlid etmədən, öz cığırını tutub gedən şair idi. Saf vətənpərvərlik duyğuları şairin yaradıcılığının ana xəttini təşkil edib. Şeirləri pafosdan uzaq, təbii sevgi duyğularının çələngi olub:

***Sevginə köklənib ürəyim, canım,***
***Nə qədər ömrüm var, eşqinlə yanım.***
***Sənə qurban olum, Azərbaycanım,***
***Məni gözlərindən uzağa qoyma!***

Onun "Ürəyimin işığında", "Bəlkə bir də görüşdük", "Gözlərim yol çəkir", "Sevgi bulağı", "Aydanım Ay işığı", "Dünya sevgidən doğulub", "Tanrı mənə söyləməsə, yazmaram", "Gəlir türkün səadəti", "Ürəyimin qapısından keçənlər", "Gözümdə ağlayan bulud" və s. kitabları təpədən-dırnağa şair olan qələm sahibinin poetik tərcümeyi-halı kimi diqqət çəkib. Zaman-zaman Rəsul Rza, Bəxtiyar Vahabzadə, Elçin, Məmməd Araz, Xəlil Rza Ulutürk, İlyas Tapdıq, Nizami Cəfərov, Vaqif Yusifli onun poeziyasını yüksək qiymətləndiriblər.

Musa Ələkbərli nəşriyyat redaktorluğunda illərcə çalışıb. İstedad və qabiliyyətini şəxsi yaradıcılığı ilə bərabər, gənc müəlliflərin əsərlərini seçib-sonlayıb kitab halına salmağa, danışan dili olduğu xalqı üçün ictimai xarakterli publisistik yazılar qələmə almağa sərf edib. Son dövrlərdə "şövq", "coşğu" anlamına gələn "Şur" adlı nəşriyyatın direktoru kimi yorulmaz fəaliyyət göstərib.

Şairin sevgi şeirləri dillər əzbəri idi. Bu mövzuda çox və gözü-könlü tox" yazırdı. Həmin şeirləri oxuyan bütün sevənlər özlərini onun "qəhrəman"ı sanırdılar:

***Ürəyimdə bir həsrətin göynəyi,***
***Gecə-gündüz göyüm-göyüm göynəyir.***
***Biləmmədim heç yer nədir, göy nədir,***
***Həyat bildim mən bu dərdi, ələmi,***
***Məhəbbətdən çox yazıram, eləmi?!***

İnişil XQ-nin səhifələrində Musa Ələkbərlinin publisist Rauf Vəliyevin birlikdə ərsəyə gətirdiyi "Arazı adlayan məktublar" adlı kitab barədə yazmışdıq. Görkəmli ədibimiz Mir Cəlal Paşayevin böyük qardaşı, Cənubi Azərbaycanda S.C.Pişəvəri hərəkatının öncüllərindən biri olan Mir Xəlil Mirəliəşrəf oğlu Xəliliyə həsr edilmiş o kitab əsasən xatirə üslubunda yazılsa da, əhatə dairəsi və fakt zənginliyi ilə diqqət çəkir. Şairin kitabda yer alan "Ayrılığın sonu yoxmuş" lirik poeması "Arazı adlayan məktublar"a poetik ovqat gətirir.

Musa Ələkbərlinin "Sözün qiyaməti qopan yerdəyəm" adlı və sayca 16-cı kitabında son 20 ildə qələmə aldığı şeirlərinin mühüm bir hissəsi, eləcə də Milli Qəhrəmanımız Mübariz İbrahimovdan bəhs edən "Mübarizlik dərsi" poeması çap olunub. Sanballı kitab 776 səhifədən ibarətdir. Bütün səhifələrindən vətəndaşlıq yanğısı, yurd sevgisi, insan mənəviyyatı "aşıb-daşır".

Həmin toplunun bir nüsxəsini gətirib redaksiyamızın qarşısında mənə hədiyyə etdiyi gün son görüşümüz oldu. O, mən, bir də şeir-sənət xiridarı olan həmkarım İlqar Həsənov çay süfrəsi arxasında xeyli söhbət etdik. Musa müəllim gələcək arzularından da danışdı, amma onun istəklərinin yarıda qalacağı, tezliklə bizləri tərk edəcəyi ağlımıza da gəlmədi.

Son illərdə tələbə yoldaşımız – yazıçı-publisist Nurəddin Ədiloğlu şairlə daha çox təmasda olurdu. Adətən, Musa müəllimlə paytaxtın "Gənclik" adlanan parkında elə gənclik həvəsi ilə "səhər yürüşü" edirdilər. Nurəddin indi acı-acı xatırlayır ki, şairin azca əyilmiş qamətini dikəldərək yol gedə-gedə etdiyi söhbətlərdən doymurdum. Gənclik xatirələri, şeir-sənətlə bağlı fikirləri dəyərli idi. Musa Ələkbərli, necə deyərlər, elin kisəsindən gedənlərdən oldu…

***İnnən belə günlərini say, Musa,***
***Sirlərini şeirə çevir, yay, Musa.***
***İndi sənnən gözəllər yox, ay Musa,***
***Mələklərin maraqlanan vaxtıdır.***

Sanki, mələklərin onu qanadlarına alıb aparacağını gözləyirdi. Amma burası da var ki, şair əsərlərinin birində Əzrayıla da "xəbərdarlıq" edib:

***Açılsın gözümdə göylərin qatı,***
***Uçmaq eşqim varsa, ölməyəcəyəm.***
***Əzrayıl da bilsin: mən bu həyatı***
***Şeirsiz bitirə bilməyəcəyəm!***

Ömrünü elə gözəl şeir kimi bitirən Musa Ələkbərli Gədəbəydəki Ataxal bulağının mirvari sularındakı gülümsər əksi ilə, ona aid həzin xatirələrlə yadda qalacaq.

***Əli NƏCƏFXANLI***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 31 (31000) 18 fevral 2026-cı il, çərşənbə

# Milli futbolun 115 illik yubileyinə "Qarabağ"ın töhfəsi

## "Nyukasl"la oyundan isə qələbə gözləyirik

**Tarixi rəsmən 1911-ci ildən hesablanan Azərbaycan futbolunun 115-ci ilindəyik. Ağdamın "Qarabağ" komandasının 2026-cı ilin start ayında UEFA Çempionlar Liqasının pley-off mərhələsinə qazandığı vəsiqə bu əlamətdar hadisəyə gur işıq saçan əvəzolunmaz töhfədir.**






Yanvarda Tofiq Bəhramov adına Respublika Stadionunda Almaniyanın Frankfurt şəhərinin "Ayntraxt" klubu ilə görüşdə şahidi olduğumuz əzmkar qələbə (3:2) həm Azərbaycan çempionunun füsunkar Avropa səyahətini daha maraqlı edərək onu səkkizdəbir finalın astanasına çatdırmış, həm də futbolumuzun 115 illik yubileyinə xüsusi gözəllik gətirmişdir.

UEFA da "Qarabağ" və Norveçin "Budo-Qlimt" klubunun Liqa mərhələsində uğurlarına biganə qalmayıb. Fevralın əvvəlində yayılan bir xəbərdə bildirildi ki, Avropanın ali futbol təşkilatının mütəxəssisləri bu iki komandanın pley-offa vəsiqə qazanmasını qəhrəmanlıq kimi qiymətləndiriblər.

Bu, nəhənglər meydanında böyük-böyük klublarla amansız rəqabətdə kiçik komandaların silahı vaxtından əvvəl yerə qoymamasının, ustalığının və bütün Avropanı heyrətləndirən – kiminin möcüzə, kiminin də inanılmaz, fantastika hesab etdiyi parlaq nailiyyətin yüksək dairələrdə etirafıdır. Hər iki klub 36 komandanın mübarizəsində çətin sınaqlardan şərəflə çıxıb, 12 zəhmli rəqibi "24-lərin" siyahısına buraxmayaraq, həm öz beynəlxalq nüfuzunu artırmış, həm də kiçiklərin də böyük iddialar, arzularla yaşamaq haqları olduğunu inamla bütün dünyaya bəyan etmişdir.

Bugünkü qəhrəmanların 2024-cü ilin payızında Avropa Liqasının əsas mərhələsində Norveçdə öz aralarında keçirdikləri oyun yada düşür. Onda onların tanışlıq görüşündə təmsilçimiz daha üstün futbol oynayıb, pərəstişkarlarını Toral Bayramovla Zubirin qolları və qələbə ilə sevindirmişdilər (2:1). Həmin turnirdə bu kollektivlər Liqa mərhələsi sınaqlarından çıxa bilməmişdilərsə, indi daha nüfuzlu Çempionlar Liqasının pley-off görüşlərinə hazırlaşırlar.

Beynəlxalq Futbol Tarixi və Statistikaları Federasiyasının açıqladığı dünya reytinqi siyahısında Azərbaycan çempionunun əvvəlki siyahı ilə müqayisədə 9 pillə irəliləyərək 69-cu yerdən 60-cı mövqeyə yüksəlməsi də Ağdam komandasının uğurlu çıxışlarının bəhrəsidir. Hazırda "Qarabağ"ı 200 reytinq xalı ilə 502 klubun göstəricilərini əks etdirən siyahıda 60 ən yaxşı komanda sırasında görmək futbol ictimaiyyətimiz üçün, əlbəttə, xoş məqamdır.

Son 10 ildə MDB məkanında Çempionlar Liqasının pley-off mərhələsinə vəsiqə qazanan yeganə komanda "Qarabağ"ın "Ayntraxt"la görüşünədək UEFA turnirlərində Azərbaycan klublarının almaniyalı rəqiblər üzərində qələbəsi yox idi. Ölkə çempionumuz bir ay əvvəl soyuq və şaxtalı yanvar axşamında xoşagəlməz ənənəni pozaraq, almanlarla oyunlarda meydandan qalib ayrılan ilk Azərbaycan klubu oldu.

Statistika onu da xatırladır ki, "Nyukasl" ilə görüşlər ərəfəsində isə İngiltərə komandaları ilə qarşılaşmalarda qələbələrimizin hesabı açılmayıb. Ancaq "Qarabağ" bu boşluğu da doldurub, Azərbaycan futbolunun 115-ci ilində daha bir tarix yaza bilər. Artıq sizin də hiss etdiyiniz kimi, komandamızın buna iradəsi də çatar, ustalığı da.

Saat 21:45-də başlayıb, taleyi gecəyarısı məlum olacaq oyunda FİFA-nın norveçli hakimi Espen Eskasın final işarəsini nikbin əhvalla gözləməyimiz üçün hər cür əsas var.

İngiltərə Premyer Liqasının daimi iştirakçısı Nyukasl şəhərinin, ötən dəfə diqqətə çatdırdığımız kimi, 134 yaşlı eyniadlı klubu təkcə öz ölkəsində deyil, bütün Avropada sayılıb-seçilən, zəngin təcrübəli rəqibdir. Bu komandanın indiki turnirin əsas mərhələsində 14 xal toplayaraq, finişə 12-ci çatması da onun gücündən xəbər verir. Bugünkü qonağımız "Qarabağ"ın imkanlarını da layiqincə qiymətləndirir və onu çətin sınaq gözlədiyini gizlətmir. İndi bizdən qarşıdakı matçın necə nəticələnəcəyini soruşsaydılar, yəqin ki, çoxlarımız tərəddüd etmədən 50:50-yə deyərdik. Amma bu zaman "evdə divarlar da kömək edir" deyimini öz üstünlüyümüz kimi yadda saxlayardıq.

Yəqin diqqət yetirmişsiniz, Bəhlul Mustafazadə hələ uzun müddət yaddan çıxmayacaq 90+4-cü dəqiqədə "Ayntraxt"ın qapısına ömürləri uzadan qızıl qol vuranda əlavə vaxtın son saniyələri gedirdi. Bu, həm də oyunda topa endirilən son zərbə idi. Bir həftə əvvəl Kamilo Duran da Şamaxı şəhər stadionunda Qurban Qurbanovun əlinə kürək götürüb qardan təmizlədiyi meydanda komandasına çox mühüm qələbə qazandıran topu rəqib qapısından keçirəndə yenə tabloda 90+4-ü görürdük. Etiraz etmirik, kaş bu axşam da "Qarabağ" tərəfdarları artırılmış dəqiqələrdə hamılıqla ayağa qalxıb, həlledici qolumuza sevinəydilər.

Yaşıl meydanlarda hünər göstərən "Qarabağ"a bir də ona görə ayrıca təşəkkür düşür ki, komandanın Avropa şəhərlərinə səyahəti zamanı sanki azarkeşlər də onunla birlikdə olurlar. Artıq Portuqaliyanın Lissabon, İspaniyanın Bilbao, İtaliyanın Neapol və İngiltərənin Liverpul şəhərlərində keçirilmiş oyunlarda özümüzü lap onların stadionlarındakı kimi hiss etmişik. Axşam izləyəcəyimiz görüşün nəticəsindən asılı olmayaraq, komandanı İngiltərəyə daha bir səfər gözləyir.

Fevralın 24-dən 25-nə keçən gecə Nyukaslda cavab qarşılaşmasının həyəcanları yaşanacaq. Amma bu da indiki mövsümdə Azərbaycan çempionunun futbolun vətəninə son səfəri olmaya bilər. Əgər futbolçularımız iki oyunun yekununda sevinən tərəf olsalar, səkkizdəbir finalda "Çelsi" – "Barselona" görüşlərinin qalibi qarşısında imtahan verəcəklər. Deməli, İngiltərə və ya İspaniyaya daha bir uçuş istisna deyil.

Çempionlar meydanında həyəcanlı günlər davam edir.

*Oqtay BAYRAMOV,*
*Əməkdar jurnalist*

## İDMAN

### Oxatanlarımız Avropa çempionatında



**Bolqarıstanın Plovdiv şəhərində qapalı məkanda keçirilən kamandan oxatma üzrə Avropa çempionatında Azərbaycan millisinin üzvləri təsnifat mərhələsini uğurla başa vurublar.**

Azərbaycan Kamandan Oxatma Federasiyasından verilən məlumata görə, Məhəmmədəli Əliyev təsnifat mərhələsində 577 xal toplayaraq 20-ci yerdə qərarlaşıb və adını 1/16 finala yazdırıb.

Gənclər (U-21) kateqoriyasında çıxış edən Fatimə Hüseynli 567 xalla 12-ci olub.

Nilufər Ağaməmmədli isə 536 xal toplayaraq turniri 31-ci sırada başa vurub və beynəlxalq reytinqdəki mövqeyini qoruyub.

### Gənc futbolçuların antidopinq təlimi



**Azərbaycan Milli Antidopinq Agentliyi (AMADA) tərəfindən Ağdamın "Qarabağ" klubunun U-15, U-16, U-17 və U-19 komandaları üçün antidopinq mövzusunda maarifləndirmə seminarı təşkil olunub.**

Mərasimdə gənc futbolçulara qadağan olunmuş maddələr və üsullar, dopinq nəzarəti prosesi, eləcə də təmiz və ədalətli idman prinsipləri barədə ətraflı məlumat verilib.

İştirakçılara 2027-ci il yanvarın 1-dən qüvvəyə minəcək yeni Ümumdünya Antidopinq Məcəlləsinin tələbləri, test prosedurları və mümkün intizam sanksiyaları izah edilib. Görüş zamanı idmançıların hüquq və öhdəlikləri, ciddi məsuliyyət prinsipi və terapevtik istifadə üçün istisnalar diqqətə çatdırılıb. Eyni zamanda, narkotik vasitələrin istifadəsinin sağlamlığa, karyeraya və şəxsi həyata mənfi təsirləri real nümunələr əsasında şərh olunub.

Qeyd edək ki, seminarın əsas məqsədi gənc idmançılarda erkən yaşlardan düzgün dəyərlər formalaşdırmaq və onları mövcud risklərdən qorumaqdır.

### Yarımfinalın ilk görüşləri: 2 qələbə, 2 heç-heçə




**Şahmat üzrə Azərbaycan çempionatında yarımfinal mərhələsinin ilk partiyaları keçirilib.**

Yarımfinalda rəmzi ilk gedişi Azərbaycan Şahmat Federasiyasının vitse-prezidenti Yaqub Hüseynov edib.

Federasiyadan verilən məlumata görə, Şəhriyar Məmmədyarov-Aydın Süleymanlı və Məhəmməd Muradlı-Read Səmədov partiyalarında bərabərlik qeydə alınıb.

Qadınların yarışında Ülviyyə Fətəliyeva Gülnar Məmmədovanı məğlub edib. Digər partiyada Ayan Allahverdiyeva iki dəfə qayda pozuntusuna yol verdiyinə görə Türkan Məmmədyarova qalib elan edilib.

Sabah Azərbaycan çempionatında cavab oyunları keçiriləcək.

*Q.YUSİFOĞLU*
*XQ*

# "Risalə"nin növbəti sayları

**Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin araşdırmalar toplusu "Risalə"nin 2 cildi nəşr olunub. "Elm və təhsil" nəşriyyatında çapdan çıxmış elmi toplunun baş redaktoru muzeyin direktoru, akademik Rafael Hüseynovdur.**

Jurnalın redaksiya heyəti isə Azərbaycan alimləri ilə yanaşı, Avropa və Asiyanın bir sıra nüfuzlu elmi-tədqiqat müəssisələrinin filoloq və sənətşünas alimlərini əhatə edir.

Məcmunun Azərbaycan, eləcə də Şərq ədəbiyyatşünaslığı və mədəniyyətşünaslığının önəmli məsələlərinə elmi aydınlıq gətirmiş 20-dən artıq məqalənin yer aldığı növbəti 2 sayı da yerli və xarici kitabxanalara, elm və təhsil ocaqlarına göndəriləcək.

Xatırladaq ki, "Risalə" jurnalı 2004-cü ildən etibarən ildə iki dəfə nəşr olunur və məzmunu etibarilə filoloji tədqiqatları (Azərbaycan və dünya ədəbiyyatı, ədəbiyyat nəzəriyyəsi, ədəbi təhlil və tənqid, mətnşünaslıq və muzeyşünaslıq) elmi ictimaiyyətə və sənətsevərlərə təqdim edir.




Toplunun yeni saylarında muzey əməkdaşlarının, ölkə alimlərinin, eləcə də dissertasiya müdafiəsinə hazırlaşan gənc tədqiqatçıların müxtəlif mövzulara aid elmi məqalələri dərc edilib. Araşdırmalarda klassik və müasir Azərbaycan ədəbiyyatının bir sıra aktual və indiyədək az öyrənilmiş sahələri və mövzuları incələnib.

Jurnal filologiya və sənətşünaslıq elm sahələri üzrə Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi dövri elmi nəşrlər siyahısındadır. Toplu Ədliyyə Nazirliyinin mətbu nəşrlərin reyestrinə də daxil edilib.

*Qabil YUSİFOĞLU*
*XQ*

## HAVA

### Yağmursuz hava, bəzi yerlərdə duman...



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Bəzi yerlərdə arabir duman olacaq. Şimal-qərb küləyi əsəcək.**

Havanın temperaturu gecə 5-8, gündüz 10-14 dərəcə isti olacaq. Atmosfer təzyiqi 754 millimetr civə sütunundan 757 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət 70-80 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 5-10, gündüz 19-24, dağlarda gecə 3-8, gündüz 13-18 dərəcə isti olacaq.

*Q.ƏLİYEV*
*XQ*

**ALLAH RƏHMƏT ELƏSİN!**

Şirvan şəhərindən İlqar Abbasov Milli Məclisin sədri Sahibə Qafarovaya qardaşı

**QALİB BABAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 2932
SİFARİŞ 240
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU
Çapa imzalanmışdır 00:00